AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
Azərbaycan Milli Elmlər Akademiyası
TARİX İNSTİTUTU

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu

# İRƏVAN ƏYALƏTİNİN KAMERAL TƏSVİRİ

## 1831-ci il

### I CİLD. İRƏVAN ŞƏHƏRİNİN KAMERAL TƏSVİRİ

***Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunur***

**BAKI-2018**

Azərbaycan Milli Elmlər Akademiyası
A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
Elmi Şurasının qərarı ilə çap olunur.

**Lahiyə rəhbəri, ön sözün müəllifi və elmi redaktor:** **Yaqub Mahmudov**
*AMEA-nın həqiqi üzvü,*
*Əməkdar elm xadimi,*
*Dövlət Mükafatı laureatı*

**Tərcümə, tərtib və giriş mətninin müəllifi:** **Nazir Əhmədli**
*k.ü.f.d.*

**Məsul redaktor:** **İradə Məmmədova**
*Dövlət Mükafatı laureatı, dos., t.ü.f.d.*

**Elmi rəyçilər:** **Tofiq Nəcəfli**
*Tarix üzrə elmlər doktoru*
**Güntəkin Nəcəfli**
*Dövlət Mükafatı laureatı, dos., t.ü.f.d.*

**Nazir Əhmədli.**
**İRƏVAN ƏYALƏTİNİN KAMERAL TƏSVİRİ.**
***I cild. İrəvan şəhərinin Kameral təsviri.***
Bakı: "Turxan" NPB, 2018, - 328 s.

Kitaba daxil edilən 1831-ci il ildə İ.Şopenin rəhbərliyi ilə qeydiyyatçı katib A.Rıjkov tərəfindən tərtib edilmiş 3 kameral təsvirdə qədim Azərbaycan şəhəri İrəvanın əhalisinin adbaad siyahısı, etnik, sosial tərkibi, yaşı, məşğuliyyəti, sayı, ödədiyi vergilərlə yanaşı, İrəvan şəhərindəki binalar, məhəllələr, meydanlar, çaylar, yollar, bağlar və s. ətraflı təsvir edilmiş, İrəvan şəhəri tam inventarlaşdırılmışdır.

$N\frac{0503020907-014}{(TNP)\ 2018}$

© Nazir Əhmədli, 2018
© Tarix İnstitutu, 2018

# İRƏVAN ŞƏHƏRİNİN və ƏTRAFINDAKI ƏRAZİLƏRİN TARİXİ AZƏRBAYCAN TORPAQLARI OLMASI DANILMAZ HƏQİQƏTDİR

**"İRƏVAN ƏYALƏTİNİN KAMERAL TƏSVİRİ.**
***I cild. İrəvan şəhərinin Kameral təsviri." kitabına***

Azərbaycan Milli Elmlər Akademiyası
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
TARİX İNSTİTUTU

## ÖN SÖZ

İndiki Ermənistan Respublikasının yerləşdiyi ərazi qədim Azərbaycan torpağıdır. Bu diyarın ən qədim sakinləri kimmerlər, skiflər, saklar və digər türk toplumları, o cümlədən oğuz türkləri olmuşlar. Türk xalqlarının, o cümlədən Azərbaycan türklərinin qəhrəmanlıq eposu olan Kitabi-Dədə Qorqud boylarının yarandığı geniş ərazinin tərkib hissəsidir bu yerlər. Bu ərazi yaxın keçmişdə – XIX əsrin əvvəllərində Azərbaycan dövləti olan İrəvan xanlığının əhatə etdiyi torpaqlardır. Bu torpaqların ən qədim yerli əhalisi – aborigen sahibləri Azərbaycan türkləri idi. Lakin 1918-ci ildə beynəlxalq təzyiq nəticəsində İrəvan şəhəri ermənilərə güzəşt edildi. Beləliklə, Cənubi Qafqazda tarixdə ilk dəfə olaraq erməni dövləti yaradıldı.

İlk mənbələr təsdiq edir ki, ayrı-ayrı işğalçı imperiyaların hökmranlıq dövrləri istisna edilməklə, müasir Ermənistan Respublikasının ərazisi ən qədim zamanlardan başlayaraq həmişə Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Bu ərazi X-XVIII əsrlərdə Azərbaycan sülalələri olan ***Sacilər, Salarilər, Şəddadilər, Eldənizlər, Qaraqoyunlular, Ağqoyunlular, Səfəvilər və Əfşarların*** idarə etdikləri Azərbaycan dövlətlərinin tərkibində olmuşdur. Orta əsrlərdə bu torpaqlarda Azərbaycanın Çuxursəd Əmirliyi və Çuxursəd Bəylərbəyiliyi mövcud olmuşdur.

XVIII əsrin II yarısında keçmiş Çuxursəd bəylərbəyiliyinin ərazisində yaranmış Azərbaycan dövlətlərindən birinin –

İrəvan xanlığının paytaxtı İrəvan şəhəri daha da inkişaf etmiş, böyük ticarət və sənətkarlıq mərkəzinə çevrilmişdi.

Rusiya işğalı ərəfəsində İrəvan xanlığında yaşayan əhalinin böyük əksəriyyəti Azərbaycan türklərindən ibarət idi və İrəvan şəhərində oturaq erməni əhalisi yaşamırdı. Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinin şərtlərinə əsasən ermənilərin kütləvi surətdə köçürülüb gətirilməsinə baxmayaraq, çar hakimiyyət orqanları İrəvan xanlığı ərazisində demoqrafik vəziyyəti birdən-birə dəyişdirə bilmədi. İrəvan xanlığının işğalını həyata keçirmiş rus generalı Paskeviç, hətta ermənilərin köçürülüb gətirilməsindən sonra belə, İrəvan bölgəsi əhalisinin ***dörddə üç hissəsinin Azərbaycan türkləri*** olduğunu etiraf edirdi.

Rusiya müstəmləkəçiləri İrana və Türkiyəyə qalib gəldikdən sonra, Türkmənçay (1828) və Ədirnə (1829) müqavilələrinə əsasən Cənubi Qafqazda Qacarlar İranı və Osmanlı imperiyasına qarşı gələcək işğalçılıq planlarını həyata keçirmək üçün xristian - istinadgah məntəqəsi yaratmaq məqsədilə həmin dövlətlərin ərazisində yaşayan erməniləri kütləvi surətdə Şimali Azərbaycan torpaqlarına, əsasən, İrəvan, Naxçıvan, Qarabağ xanlıqlarının ərazisinə köçürdü. İrəvan xanlığını işğal etmiş general Paskeviç İrandan köçürülən ermənilərin ***"İrəvana istiqamətləndirilməsi və həmin ərazidə xristian əhalinin sayının mümkün qədər artırılması"*** barədə konkret göstəriş də vermişdi.

İrəvan xanlığının çar Rusiyası tərəfindən işğalından sonra Qacarlar İranı və Osmanlı dövləti ərazilərindən kütləvi şəkildə köçürülüb gətirilən ermənilərdən 377 ailə məhz İrəvan şəhərinə – Azərbaycan türklərinin yaylaqlara köçərkən qoyub getdiyi evlərə yerləşdirildi. İrəvan şəhərinin tarixi simasını dəyişdirib "erməni şəhərinə" çevirmək siyasəti yeridən erməni vandalları bu qədim Azərbaycan şəhərinin bütün tarixi abidələrini məhv etdilər.

***Bu gün qədim Azərbaycan şəhəri İrəvandan əsər-əlamət qalmamışdır. İrəvan qalası içərisindəki tarixi-memarlıq abi-***

***dələri ilə birlikdə məhv edilmişdir. İrəvan şəhərindən azərbaycanlıların maddi-mədəniyyət izləri silinmiş, şəhərin azərbaycanlı etnik kimliyi yox edilmiş, qədim türk-müsəlman şəhəri monoetnik erməni şəhərinə çevrilmişdir. Lakin tarixin yaddaşını silmək mümkün deyil! Erməni vandallarının dağıdıb məhv etdikləri İrəvan xanlığının paytaxtı olan Azərbaycanın qədim İrəvan şəhəri büsbütün öz tarixi varlığı ilə (əhalisinin etnik tərkibi, maddi-mədəniyyət abidələri, bütün tarixi adları və s.) tarix kitablarında, salnamələrdə, kameral təsvirlərdə, rəsm əsərlərində, qravürlərdə, fotosənədlərdə yaşayır və nəsillərdən-nəsillərə ötürülür.***

Bu baxımdan, vətənpərvər tədqiqatçı, fəlsəfə doktoru Nazir Əhmədlinin oxuculara təqdim etdiyi ***"İrəvan əyalətinin Kameral təsviri." I cild. "İrəvan şəhərinin Kameral təsviri"*** – adlanan bu kitab qədim Azərbaycan şəhəri – İrəvan xanlığının paytaxtı – İrəvan şəhərinin 1831-ci il Kameral təsvirinə həsr olunmuşdur.

Kitaba daxil edilən 1831-ci ildə İ.Şopenin rəhbərliyi ilə qeydiyyatçı A.Rıjkov tərəfindən tərtib edilmiş 3 kameral təsvirdə qədim Azərbaycan şəhəri İrəvanın əhalisinin adbaad siyahısı, etnik və sosial tərkibi, yaşı, məşğuliyyəti, sayı ilə yanaşı, şəhərdəki binalar, məhəllələr, meydanlar, çaylar, yollar, bağlar və s. ətraflı təsvir edilmiş, İrəvan şəhəri tam inventarlaşdırılmışdır.

I Pyotr dövründən başlayaraq ermənilərdən bir alət kimi yararlanmaq siyasəti yeridən Rusiya imperiyası, davamlı olaraq, erməniləri tarixi Azərbaycan torpaqlarında, xüsusən İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazisində məskunlaşdırmağa çalışırdı. Hələ 1784-cü ilin aprelində Ararat patriarxı arxiyepiskop Haykanlı İosif ermənilərin İrəvan ətrafında məskunlaşmasına yardım edəcəyinə vəd verdiyi üçün çar generalı knyaz Q.A.Potyomkinə xüsusi minnətdarlığını bildirmişdi. Cənubi Qafqazdakı rus ordusunun baş komandanı K.F.Knorinq gürcü əsilli P.D.Sisianovla əvəz olunduqdan sonra Rusiyanın bu bölgədəki ermənilərdən yararlanmaq siyasəti daha da gücləndi.

Təbii ki, bütün bu məsələlər kameral təsvirin elmi tədqiqata geniş surətdə cəlb edilməsi nəticəsində aşkar olunacaqdır. Bütün bunlarla yanaşı, qeyd etmək lazımdır ki, "İrəvan əyalətinin Kameral təsviri" Azərbaycanın tarixi torpağı olan İrəvan bölgəsinin tarixini araşdırmaq üçün olduqca qiymətli mənbədir.

Əlbəttə, bu dəyərli mənbədən istifadə edərkən Osmanlı imperiyasının dini siyasəti nəticəsində zaman-zaman bölgə əhalisinin - Azərbaycan türklərinin öz doğma yurd-yuvalarını müvəqqəti tərk etməsi, qədim yaşayış məskənlərimizin müvəqqəti olaraq boş qalması, yurdumuzun bu bölgələrinə Osmanlı imperiyasının müxtəlif ərazilərindən qeyri-türk və qeyri-müsəlman etnoslarının köçürülməsi kimi məsələlər nəzərə alınmalıdır.

Tədqiqatçılara təqdim olunan bu dəyərli mənbəni bizə təqdim etdiyi üçün vətənpərvər tədqiqatçı, istedadlı alim Nazir Əhmədliyə dərin minnətdarlığımı bildirməyi özümə borc sayıram.

Şübhə etmirəm ki, tədqiqatçıların ixtiyarına verilən bu qiymətli ilk mənbə tarixi Azərbaycan torpağı olan İrəvan bölgəsinin keçmişinə hələ çox aydınlıq və yeniliklər gətirəcəkdir.

**YAQUB MAHMUDOV**
*AMEA-nın həqiqi üzvü*
*Əməkdar elm xadimi,*
*Dövlət Mükafatı laureatı*

# İRƏVAN ƏYALƏTİ KAMERAL TƏSVİRLƏRDƏ

## *İrəvan şəhərinin tarixi və İrəvan toponimi haqqında*

1831-ci ildə İnzibati İdarənin müşaviri İ.Şopenin rəhbərliyi ilə İrəvan şəhəri üzrə 3 kameral təsvir tərtib edilmişdir [bax: 63; 64; 65]. Bu təsvirlərə aydınlıq gətirmək üçün, bizcə İrəvan şəhərinin tarixinə qısa şəkildə olsa da nəzər yetirməyə ehtiyac vardır.

İrəvan şəhərinin yerləşdiyi ərazi qədim dövrdə və erkən orta əsrlərdə Urartu, Əhəməni, Sasani, Ərəb Xilafəti, orta əsrlərdə Sacilər, Salarilər, Şəddadilər, Səlcuqlar, Atabəylər, Hülakülər, Cəlairilər və hətta Teymur dönəmində də Azərbaycanın sərhədləri daxilində olmuşdur. Azərbaycan Qaraqoyunlu dövlətinin (1410-1468) yarandığı zamandan başlayaraq mühüm ticarət yollarının üzərində yerləşən Çuxursəd bölgəsi və onun mərkəzi İrəvan daha da sürətlə inkişaf etmişdir [23, 6].

XVII əsr türk səyyahı Evliya Çələbi “..hicri 810-cu (miladi 1407/1408) ildə Teymuri-binur xanın sövdəgərlərindən Xoca Cani-Lahicani adlı bir ənqa bəzirgan bu Rəvan torpağına qədəm basıb, pak ənbər qoxulu bir məhsuldar torpaqda bütün heyəti ilə qərar verib növbə-növ çəltik əkib mal topladıqca nəhayətdə bir böyük qəsəbə olub” [4, 86; 23, 11]. 1410-cu ildə Azərbaycan sülaləsi Qaraqoyunlular Təbrizdə hakimiyyətə gələrkən ***Sədlilər*** sülaləsi İrəvan bölgəsinin sahibi idilər. İrəvan bölgəsi Azərbaycan Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin hakimiyyəti dövründə daha da məşhurlaşdı.

XVI əsrin əvvəlində paytaxtı Təbriz şəhəri olan mərkəzləşmiş Azərbaycan Səfəvi dövlətinin yaranması ilə Azərbaycanın digər bölgələri kimi mərkəzi İrəvan şəhəri olan Çuxursəd

də Səfəvi dövlətinin tərkibinə daxil oldu və uzun müddət Rumlu, Ustaclı və Qacar tayfa əmirləri tərəfindən idarə edildi [bax: 10, 58-61].

İrəvan şəhərinin salındığı yerin əlverişli coğrafi mövqeyini nəzərə alan böyük Azərbaycan hökmdarı *"Şah İsmayıl h.915-ci il (m.1509/1510) tarixində Zəngi çayının şərq sahilində qala salınması üçün Rəvanqulu xanın adına fərman göndərmişdir. 7 il müddətinə salınmış bu qala Rəvanqulu xanın şərəfinə **İrəvan qalası** adlandı"* [4, 86-87; 3, 50; 24, 10-11]. İrəvan şəhəri Osmanlı sərhədlərinə yaxın olduğu üçün Şah İsmayıl onun möhkəmləndirilməsinə xüsusi diqqət yetirirdi. Bu səbəbdəndir ki, XVI əsrdə Osmanlı yürüşləri zamanı sultanın katibi olmuş İbrahim Rəhimizadə **İrəvan şəhərini *"Azərbaycan mülkünün gözü*"** adlandırmışdı [8, 169; 25, 459].

Müxtəlif dövrlərdə ***İrəvan şəhərində*** olmuş səyyahlar onun haqqında maraqlı məlumatlar vermişlər. XVII əsrin 50-ci illərinin ortalarında İrəvanda olmuş fransız səyyahı Jean-Bartiste Tavarnier İrəvan şəhərini təsvir edərkən onun iki hissədən – *içəri şəhər* və *bayır şəhərdən* ibarət olduğunu qeyd edərək yazırdı: "*İçəri şəhərdə* yalnız xan özü, ordu başçıları və hərbiçilər yaşayırlar. Xanın imarəti çaya baxır. Xan çox güclüdür və onun hər zaman sərhədi qorumağa qadir ordusu vardır. ....şimal-qərb hissədə yerləşən *bayır şəhərdə* yaşayış içəri şəhərdən 20 dəfə çoxdur [31, 75; 23, 15].

XVII əsrin 70-ci illərinin əvvəllərində İrəvanda olmuş fransız səyyahı J.Şardən İrəvan şəhərinin ümumi təsvirini verərək yazırdı: *Şəhərin böyük hissəsi bağlardan və üzümlüklərdən ibarətdir. ...O, hər tərəfdən dağlarla əhatə edilmiş düzənlikdə yerləşir. Şimal-qərb tərəfdən Zəngi, cənub-qərb tərəfdən isə Qırxbulaq çayları axır. İrəvan qalası kiçik bir şəhərdən böyükdür. O oval formadadır, perimetri dörd min addım olmaqla, təxminən səkkiz yüz evdən ibarətdir. Orada ancaq təmizqanlı qızılbaşlar yaşayırlar. Qalanın müdafiəsi üçün iki min əsgər ayrıl-*

*mışdır. Hakimin sarayı qalanın içərisindədir. ...Şəhərdə və qalada çoxlu hamam və karvansara vardır* [27, 21-22; 23, 16-17].

1728-ci ildə Osmanlı dövlət məmurları tərəfindən tərtib olunmuş *"İrəvan əyalətinin müfəssəl dəftəri"*nə görə, bu dövrdə İrəvan şəhəri 4 məhəllədən – *Köhnə şəhər, Dəmirbulaq, Dərəkənd* və *Təpəbaşı* məhəllələrindən ibarət olmuşdur [9, 15-16].

XVIII əsrin II yarısında keçmiş Çuxursəd bəylərbəyiliyinin ərazisində yaranmış Azərbaycan dövlətlərindən birinin – İrəvan xanlığının paytaxtı İrəvan şəhəri idi. Müstəqil xanlığın mərkəzi olduqdan sonra İrəvan şəhəri daha da inkişaf etmiş, böyük ticarət və sənətkarlıq mərkəzinə çevrilmişdi.

***İrəvan şəhəri*** iki hissəyə – ***içəri şəhər (qala)*** və ***bayır şəhər*** hissəsinə bölünmüşdü. ***İçəri şəhər*** əsasən qala-şəhərdən ibarət idi. ***İrəvan qalası*** Zəngi çayının sol sahilində yerləşirdi. Qala üç tərəfdən dərin xəndəklə, digər tərəfdən isə, Zəngi çayının sol sahilində sıldırımda tikilmiş iki hündür divarla əhatə olunmuşdu. Qalanın iki qapısı vardı: şimalda məşhur ***Şirvan qapısı***, cənubda isə ***Təbriz qapısı***. Mühasirə zamanı sudan istifadə etmək üçün qaladan Zəngi çayına çıxış da var idi [71, 190; 10, 143-144].

***İrəvan toponiminin*** mənşəyinə gəlincə, qədim Urartu tarixinə sahib çıxmağa çalışan erməni tarixçiləri əsassız olaraq İrəvan şəhərinin adını e.ə. VIII əsrdə Urartu çarı I Argiştinin (e.ə.786-764) dövründə salınmış Erebuni və yaxud İrpuni qalasının adı ilə bağlamağa çalışırlar. Halbuki, son elmi tədqiqat əsərində "Tarixin atası", e.ə. V əsrdə yaşamış yunan tarixçisi Herodota (e.ə. 480-424), qədim Roma, Bizans, yunan, erməni, suriya, rus, ingilis və digər dillərdəki onlarla ilk mənbələrə, elmi ədəbiyyata istinad edilərək ermənilərin Kiçik Asiyanın yerli əhalisi olmadığı, bu etnosun ulu babaları güman olunan friqlərin Kiçik Asiyaya Avropadan (Balkan yarımadasından) köçüb gəldiyi, ermənilərin urartularla heç bir bağlılığının olmaması zəngin faktiki materiallar əsasında sübuta yetirilmişdir [14, 13-18]. Erməni tarixçisi Yervand Şahəziz 1931-ci ildə çap etdirdiyi

«Qədim İrəvan» kitabında İrəvan toponimi ilə bağlı yazır: «Məlum olmuşdur ki, İrəvanın adının ermənicə «yereval» (görünmək- red.) və ya «yerevan qall» (aşkar olmaq, irəli gəlmək- red.) sözləri ilə heç bir əlaqəsi... və heç bir elmi əsası yoxdur....Şəhərin adı ilə bağlı elmi baxımdan qəbul ediləcək, həqiqətə uyğun yeganə şərh Moskva Arxeoloji Cəmiyyətinin üzvü M.Nikolskinin verdiyi şərhdir. Belə ki, 1893-cü ildə o, cəmiyyətin tapşırığı ilə burada səyahətdə olmuş, o vaxta qədər tapılmış mixi xətli yazıları tədqiq etmişdir. M.Nikolskinin izahına görə, İrəvan adı Yeriaini (Eriaini) ölkəsinin adından yaranmışdır. Onun da mərkəzi və ya baş şəhəri İrəvan olmuşdur. Bu Yeriaini ölkəsinin adı isə Urartu çarı I Rusa tərəfindən Göyçə (Sevan) gölü ətrafında zəbt etdiyi 23 ölkələr sırasında olan, gölün sahilində yerləşən «Kolanı-qırılan» (Otsaberd) adlanan kəndin yanında tapılmış yazıda həkk olunmuşdur [23, 8-9].

Erməni tarixçilərinin əksəriyyətinin öz əsərlərində uydurduqlari “qədim erməni tarixi”nin Urartu dövləti ilə əlaqələndirilməsi ənənəvi hal almışdır. Halbuki bu ərazilərdə yaşamadıqları üçün, ermənilərin həmin dövlətlə də heç bir əlaqələri ola bilməzdi. İrəvanın adının I Rusa ilə əlaqələndirilməsi əslində ənənəvi erməni saxtakarlığından başqa bir şey deyildir. Erməni müəllifinin İrəvan toponimi ilə bağlı fikirləri heç biri elmi əsasa söykənmir. Ən əsası isə, M.Nikolskinin gəldiyi nəticələrin nəşr olunduğu mənbə haqqında Y.Şahəziz heç bir məlumat vermir. [20, 485; 23, 9].

İ.Şopen avropalı tarixçi S.Martenin erməni salnaməçisi M.Xorenliyə istinad edərək Ermənistan taxt-tacını hiylə ilə ələ keçirən I Yervandın çar Artaşes tərəfindən məğlub edildiyi yerin “Yervandavan” adlandırılması və həmin yerin sonradan “Yerevan” şəklini alması fikrini tənqid edərək göstərir ki, haqqında söhbət gedən döyüş İrəvan şəhərinin yerləşdiyi yerdən xeyli uzaqda, Talin mahalının ərazisində baş vermiş və “Yervandavan” sözünün İrəvanla əlaqəsi yoxdur [83, 260-261].

İrəvanın Şəhər hissəsinə aid kameral təsvirin izahat yazısında İ.Şopen "İrəvan" sözünün etimologiyası ilə bağlı başqa bir versiya da irəli sürür. O, bu sözün "Ermənistan"da doğulduğunu yazdığı Zərdüştün yaratdığı təriqət mənsublarının ibadət etdikləri Zərvan, yaxud da erməni dilində Erevaq (Zərvan sözünün anlamı olan sonsuz zamanın erməni dilində ifadəsinin qarşılığı olaraq) sözündən yaranmasını ehtimal edir. Sonra daha irəli gedərək, şəhərin adının ermənilərə məxsus olduğunu hər hansı bir şəkildə əsaslandırmaq üçün Zərvan versiyasının deyil, daha çox eyni mənanı daşıyan Erevaq adının üzərində dayanır. Erevan adının şəhərə Erevaqın şərəfinə ucaldılmış hansısa bir məbədə görə verilməsini təxmin edir [65, 92-93]. Təbii ki, bu, elmi əsaslara söykənməyən bir fikirdir. Əvvəla, bütün nüfuzlu tarixçilər tərəfindən Zərdüştün Cənubi Azərbaycanda doğulduğu qəbul edilmişdir [bax: 5, 26-27].

İkincisi isə, Şopenin iddia etdiyi Erevaq adında məbədin mövcudluğu şübhə doğrur. Çünki onun özü də bu məbəddən bəhs edərkən qeyri-müəyyənlik bildirən "hansısa" ifadəsini işlədir və bu versiyanın özünün təxmini olduğunu yazır. Bununla belə, "İrəvan" adının zərdüştlüklə bağlı Zərvan adından yarana biləcəyi fikri, dolayısı ilə bu şəhərin qədim dövrlərdən Azərbaycan türkləri ilə bağlı olmasına gətirib çıxarır. Buna görə də İ.Şopen həmin mülahizəsini 1852-ci ildə nəşr etdirdiyi ***"Erməni vilayətinin Rusiya imperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinə dair tarixi abidə"*** kitabına daxil etməmişdir.

Əvvəldə qeyd etdiyimiz kimi, E.Çələbi *İrəvan qalasının Rəvanqulu xanın şərəfinə adlandırıldığını* yazırdı [4, 87].

AMEA, A.Bakıxanov adına Tarix İnstitutunun son dövr tədqiqatlarından sayılan ***«İrəvan xanlığı. Rusiya işğalı və ermənilərin Şimali Azərbaycan torpaqlarına köçürülməsi»*** kitabı İrəvan toponimi ilə bağlı daha dolğun şərh vermişdir. Kitabda yazılır: «XIX əsr rus müəllifi İ.Zelinski ***İrəvan*** toponimini həm ermənilərin qondarma «Nuh əfsanəsi» ilə bağlı yerevum «görünən», həm də tatarların (Azərbaycan türkləri – *red.*) «teçet»

axan, rəvan mənasında işlətdiyini qeyd edir [78, 1]. Lakin, bu fikirlər elmi əsasa söykənmir. ***İr*** toponiminin erməni dilində izahı yoxdur. ***İr (Yer)*** qədim türk sözü olub ***«yerin günəşə baxan üzü»***nə deyilir [13, 218]. Bəzi tədqiqatçıların fikrincə ***İrəvan*** toponimi türk dillərində ***İr*** «dağın gündüşən tərəfi», «dalğavari dağ zirvəsi» və farsca ***van*** «yer» sözlərindən ibarətdir [1, 270]. ***İrəvan*** toponiminin qədim ***türk teonimlərdən törənən etnik adlar*** sırasına daxil edilməsi [2, 28] və onun qədim türklərin ***İr (Yer)*** Tanrısı ilə eyniləşdirilməsi fikri daha düzgündür [bax: 10, 37].

### *İrəvan xanlığının yaranması və süqutu*

XVIII əsrin birinci qərinəsində Səfəvilər dövlətinin zəifləməsi imperiyanın cənub və şimal-şərq bölgələrinin əfqan və gilzay tayfaları tərəfindən işğal edilməsi, 1722-ci ildə Şah Sultan Hüseynin əfqanlar tərəfindən taxtdan salınması, Osmanlı və Rusiya imperiyalarının 1724-cü il İstanbul müqaviləsi ilə Səfəvi imperiyasının əksər ərazilərini öz aralarında bölüşdürməsi ilə nəticələndi. Bununla da, vaxtilə K.Marksın Makedoniyalı İsgəndərə, Çingiz xana bərabər tutduğu Şah İsmayılın yaratdığı böyük bir imperiya tarix səhnəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Şah Sultan Hüseynin oğlu II Təhmasibin kömək üçün dəvətini qəbul edən böyük Azərbaycan sərkərdəsi və dövlət xadimi, Asiyanın son fatehi Nadir xan Əfşar nəinki dövlətin sərhədlərini bərpa etdi, hətta onu Hindistana qədər genişləndirdi [29, 108-112; 38, 15-19].

Xarici müdaxiləçilərə qarşı müharibələrdə qazandığı qələbələr Nadir şahın orduda və bütün ölkədə nüfuzunu daha da artırsa da, onun yeni müharibələrə hazırlaşması, bunun üçün şəhər və kənd əhalisindən alınan vergilərin artırılması xalqda narazılıq yaradırdı. Taxıl qıtlığı və aclıq vəziyyəti daha da ağırlaşdırırdı [7, 51]. Elə bu səbəbdən Nadir şah bütün imperiyanı bürümüş iğtişaşları yatırıb ölkədə sabitliyi bərpa edə bilmədi və

1747-ci il iyunun 19-dan 20-nə keçən gecə saray əyanları tərəfindən qətlə yetirildi [44, 261; 10, 51].

Nadir şahın qətlə yetirilməsindən sonra İrəvan əhalisi Mir Mehdi xanının başçılığı ilə üsyan qaldırdı. Mir Mehdi xan özünü müstəqil hakim elan etdi. İrəvan xanlığı XVIII əsrin ortalarında müstəqillik qazanmış 20-dən çox xanlıqdan biri idi [7, 52].

Mərkəzi Əfşarlar dövlətində iğtişaşlar yaşandığı bir vaxtda Azərbaycan xanlıqları arasında şiddətli ara müharibələri başlamış, güclü gücsüzü əzməyə və özünə tabe etməyə çalışırdı. Çox keçmədi ki, İrəvan xanlığı Kartli-Kaxet çarının aramsız hücumlarına məruz qalaraq ona xərac ödəməyə məcbur oldu [83, 162; 53, 75; 84, 13].

Müstəqil İrəvan xanlığının əsasını qoyan Mir Mehdi xanı (1747-1748) ilk mənbələr Əfşarların Qasımlı qoluna aid edirlər və onun hələ Nadir şahın sağlığında İrəvan hakimi olması haqqında məlumat verirlər. Mir Mehdi xan digər Azərbaycan xanları kimi, öz xanlığının ərazisini genişləndirmək siyasəti yeridirdi. O, bu məqsədlə 1748-ci ildə Urmiya xanlığına hücum etdi. Urmiya hakimi Fətəli xan Əfşar məğlub olaraq öz xanlığının müəyyən ərazilərini Mir Mehdi xana güzəştə getməyə məcbur oldu. Lakin onun hakimiyyəti uzun sürmədi, 1748-ci ildə Məhəmməd Hüseyn xan Gəraylı (1848-1751) onu əvəz etdi [22, 25; 10, 51-52].

Çox keçmədən İrəvan xanlığının özü qonşu dövlətlər arasında gedən mübarizə meydanına çevrildi. Yaranmış vəziyyətdən yararlanmağa çalışan Kartli-Kaxeti çarları II Teymuraz və oğlu II İrakli, digər tərəfdən isə Qarabağ hakimi Pənahəli xan arasında bölgədə nüfuz dairəsi uğrunda mübarizə qızışdı. Xüsusilə İrəvan, Gəncə, Naxçıvan xanlıqları tez-tez Kartli-Kaxet çarlığının hücumlarına məruz qalırdı [11, 103-148].

Xanlığın ərazisində yaşayan ermənilər bu işdə gürcü çarlarının ən yaxın köməkçiləri idilər. P.Butkov yazır ki, İrəvan və Gəncədən olan ermənilər 1749-cu il avqustun əvvəllərində çarın yanına gələrək çar Teymuraza tabe olacaqlarını və beş min rubl məbləğində vergi verəcəklərini vəd etmişdilər [53, 237-238].

Xanlığının sərhədlərini genişləndirməyə çalışan xanlardan biri də qonşu Azərbaycan xanlarını özünə tabe etmək istəyən Qarabağ xanı idi. Mirzə Camal Cavanşir yazır ki, «az bir müddətdən sonra …Pənah xan Gəncə, İrəvan, Naxçıvan və xüsusilə Ərdəbil vilayətlərini ələ keçirmək və o yerlərin xanlarını özünə tabe etmək qərarına gəldi» [11, 115].

İrəvan xanlığı bu təhlükədən xilas olsa da, çox keçmir ki, yeni təhlükə ilə üzləşir. Azərbaycanda və İranda baş vermiş hadisələr zamanı taxt-tac iddiaçılarından olan Urmiyalı Fətəli xan Əfşar hərbi cəhətdən güclənir və yenidən İrəvan xanlığına yürüş edir [83, 163; 84, 15; 67, 36]. İrəvanlılar möhkəm İrəvan qalasına sığınaraq müdafiə olundular.

*Həsənəli xan Qacarın* (1755-1759) və varisi *Hüseynəli xan Qacarın* (1759-1783) dövründə Kartli-Kaxet çarının İrəvan xanlığına yürüşləri daha da intensivləşdi. Bu viranedici yürüşlərin nəticəsində İrəvan xanlığı 1759-cu ildə II İraklinin xəzinəsinə illik xərac ödəməyə məcbur oldu [69, 129]. II İraklinin İrəvan xanlığına hərbi yürüşləri 1762-1765, 1778-1779-cu illərdə də davam etdi, lakin o İrəvan xanlığını özündən asılı hala sala bilmədi [10, 254-255].

XVIII əsrin son rübündə Azərbaycan xanlıqlarının öz mövqelərini xeyli möhkəmləndirməsi qonşu Kartli-Kaxet çarlığını xeyli narahat etməyə başladı. Azərbaycan xanlarının, xüsusən də Ömər xanın hücumları qarşısında uzun müddət davam gətirə bilməyəcəyini anlayan gürcü çarı II İrakli 1783-cü ildə Rusiya ilə Georgiyevsk sazişini imzalayaraq onun himayəsi altına girdi [53, 11; 68, 67-70; 72, 118-128].

Rusiya imperiyası da öz növbəsində Cənubi Qafqazı işğal etmək, xüsusilə də Azərbaycan xanlıqlarını ələ keçirmək və Osmanlı dövlətinin burada nüfuzunun güclənməsinə yol verməmək üçün xristian dini amilindən, ilk növbədə gürcü çarlarından istifadə etmək siyasəti yeridirdi. Elə buna görə də gürcü çarı 1783-cu il iyulun 24-də (avqustun 4-də) Georgiyevsk şəhərində Rusiyanın himayəsinə keçmək haqqında saziş imzaladı [69, 168-171].

1783-cü il noyabrın 9-da Hüseynəli xan Qacar xəstələnərək vəfat etdi.* Xanın vəsiyyətinə əsasən hakimiyyətə böyük oğlu, 15 yaşlı **Qulaməli xan Qacar** gəldi [52, 267; 60, 114]. Hüseynəli xanın ölümü xanlıqda vəziyyəti kəskinləşdirdi. II İrakli fürsətdən istifadə edərək öz qaynı Baqrationu qoşunla İrəvana göndərdi. Lakin, İrəvana yaxınlaşan Baqration artıq Hüseynəli xanın böyük oğlu Qulaməli xanın taxta çıxdığını eşidərək, hücumu davam etdirməyib geri döndü [7, 69-70]. Beləliklə, Rusiyaya arxalanan gürcü çarının İrəvanla bağlı növbəti hiyləsi də baş tutmadı.

Dövrün ilk mənbələri Georgiyevsk müqaviləsinin bağlanmasından sonra Rusiyaya arxalanan II İraklinin Azərbaycan xanlıqlarına, o cümlədən İrəvan xanlığına qarşı işğalçılıq niyyətinin daha da güclənməsini sübut edir. Qeyd olunan dövrdə Azərbaycan xanlarının II İraklinin təcavüzü ilə bağlı Osmanlı sultanına göndərdiyi məktuba [39, 62; 40, 87; 18, 54-55] əsaslanaraq 1783-cü ilin noyabrında Çıldır valisi Süleyman paşa tərəfindən hazırlanmış bir sənəddə qeyd olunur ki, İrəvan xanı Hüseynəli xanın vəfatından sonra II İrakli Rusiya hərbçilərinin köməyi ilə İrəvan qalasını ələ keçirmək niyyətindədir [39, 72-74; 10, 262-263].

Əfşarlar sülaləsini əvəz edən Qacarların tarix səhnəsinə çıxması ilə onların ən qüdrətli nümayəndəsi Ağa Məhəmməd xan təxminən 50 ilə yaxın hökm sürən xanlıqlar, dərəbəyliklər, iğtişaşlar dövrünə son qoyub Səfəvi imperiyasının keçmiş sərhədlə-

* İrəvan xanı Hüseynəli xanın ölümü ilə bağlı müxtəlif məlumatlar var. Bəzi tədqiqatçılarının fikrinçə, Hüseynəli xan İrəvanda baş verən üsyan nəticəsində öldürülmüşdü [7, 69]. Matenadaranda saxlanılan əlyazmaya əsaslanan V.R.Qriqoryan isə təsdiq edir ki, Hüseynəli xan ağır xəstəlikdən sonra vəfat etmişdir [bax: 10, 262]. Onun ölümündə gürcü çarı II İraklinin barmağının olması ilə bağlı da şübhələr vardır. Qulaməli xanın yerinə taxta onun 12 yaşlı ögey qardaşı, gürcü qızından doğulan Məhəmməd xanın keçməsi bu şübhələri daha da artırır [53, 177; 83, 164; 78, 5]. Yeri gəlmişkən, Hacı Hüseynəli xan mömin bir insan olmuşdur. Çünki xanın cənazəsi Bağdada aparılaraq orada dəfn edilmişdi [52, 274; 60, 268; 10, 262].

rini bərpa etməyə nail oldu. O, nəinki İranın mərkəzi vilayətlərini, eləcə də Azərbaycanın əksər xanlıqlarını mərkəzi hakimiyyətə tabe edə bildi, hətta Tiflisə yürüş edərək Kartli-Kaxet çarını ağır şəkildə cəzalandırdı [11, 52; 53, 339-340; 54, 12-14].

1791-ci ilin əvvəllərində Ağa Məhəmməd xan fərmanlar göndərib Arazdan şimalda olan Azərbaycan xanlarını mərkəzi hakimiyyətə tabe olmağa çağırdı. Gəncə, Şəki, Quba, Bakı xanları şahın fərmanını müsbət qarşıladılar. Lakin Qacar hakimiyyətinə düşmən münasibətdə olan xanlar da var idi və Qarabağ xanı İbrahimxəlil xan həmin cəbhəyə başçılıq edirdi. Onu İrəvan, Lənkəran, Xoy, Urmiya xanları və Kartli-Kaxet çarı II İrakli müdafiə edirdi [53, 320; 67, 5-102].

Ağa Məhəmməd xan separatçıların əksəriyyətini, o cümlədən Kartli-Kaxet çarını ram etsə də, xeyli çəkişmələrdən, müharibələrdən sonra 1797-ci ildə Şuşada sui-qəsd nəticəsində öldürüldü. Hakimiyyətə keçən qardaşı oğlu Fətəli şah hakimiyyətini möhkəmlədirmək üçün bir neçə il iğtişaşları, çəkişmələri yatırmağa vaxt sərf etdi. Ancaq Fətəli şah heç bir zaman Ağa Məhəmməd şah kimi qüdrətli hökmdar ola bilmədi [59, 114-115].

Yaranmış vəziyyətdən istifadə edən Rusiya işğalçılıq planlarını həyata keçirmək üçün daha qətiyyətlə hərəkətə keçdi. Qeyd etmək lazımdır ki, Rusiyanın Georgiyevsk müqaviləsindən sonra göstərdiyi diplomatik səylər də artıq nəticə verməyə başlamışdı. Yerlərdəki nüfuzlu erməni casusları bu işdə ona ciddi kömək edir, əmin-amanlıqlarının və xoş güzəranlarının ancaq Rusiya imperiyasının tərkibində mümkün olacağına dair xanları təşviq edir və bir çox hallarda buna nail də olurdular. İrəvan xanı Məhəmməd xan və Naxçıvan xanı Kəlbəli xan da onların arasında idi. Ağa Məhəmməd xan 1795-ci ildə onların hər ikisini hüzuruna dəvət edərək ruslarla apardıqları gizli yazışmaları, xəyanətlərini sübut etmiş və hər ikisinin edam edilməsinə əmr vermişdi. Lakin saray əyanları Qacar nəslindən olan Məhəmməd xanın dövlət qarşısında xidmətləri olduğunu bildirərək, onun əfv edilməsinə nail oldular. Şah bundan sonra Kəlbəli xanı da edam et-

dirmək fikrindən daşınıb gözlərini çıxartdırdı və hər ikisini həbsə göndərdi [80, 11].

Fətəli şah Qacar əmisi tərəfindən cəzalandırılmış adamların könlünü ələ almaq üçün həbsdə olan xanları, o cümlədən İrəvan xanı Məhəmməd xanı azadlığa buraxdı. Həbsdən azad olan Məhəmməd xan yenidən İrəvanda hakimiyyətə gəldi [12, 124].

1801-ci ildə Kartli-Kaxet çarlığı rəsmi surətdə Rusiyaya birləşdirildikdən sonra Rusiya imperatoru I Aleksandr sentyabrın 12-də digər Azərbaycan torpaqlarını Rusiyaya birləşdirmək yolları haqqında Gürcüstandakı rus qoşunlarının komandanı K.F.Knorrinqə xüsusi təlimat göndərdi. On bir bənddən ibarət olan bu təlimatın 10-cu bəndində yazılırdı: «Ətraf hakimlər və xanlarla əlaqə saxlayaraq Rusiyaya meyl edənlərin sayını artırmaq lazımdır, xüsusilə hələ üzərində Baba xanın (Fətəli şahın) hakimiyyəti təsdiq olunmamış, hazırkı şəraitdə özlərinin təhlükəsizliyi üçün Rusiyaya daha çox meyl göstərən İrəvan, Şəki, Şirvan, Bakı və başqa xanlıqları cəlb etmək lazımdır» [74, 65].

Tapşırılmış missiyanı həyata keçirə bilməyən K.Knorrinq 1803-cü ildə əslən gürcü knyazlarının nəslindən olan daha ambisiyalı və şöhrətpərəst P.Sisianovla əvəz edildi. Məhəmməd xan və İrəvanda olan Kəlbəli xan onunla gizli yazışmalarını davam etdirərək, Rusiya himayəsinə keçmək istədiklərini bildirdilər. Bu xanların yazışmalarından xəbər tutan mərkəzi hökumət əvvəlcə şahzadə Abbas Mirzənin başçılığı ilə İrəvan xanlığına qoşun yeritdi, Məhəmməd xan onu İrəvana buraxmayıb P.Sisianova yazdığı məktublarla ondan kömək istədi, köməyə gələn P.Sisianov Abbas Mirzəni məğlub etsə də, Məhəmməd xan onu da şəhərə buraxmadı, sonra Fətəli şahın özü qoşunla İrəvana gəldi, ruslar Tiflisə çəkildilər, Məhəmməd xan Fətəli şaha tabe oldu. Məhəmməd xan bu dəfə də cəzadan qurtarsa da, onun ruslarla gizli əlaqələrindən, ikibaşlı oyunlarından xəbərdar olduqlarına görə, 1805-ci ildə Abbas Mirzə yenidən İrəvana gəlib bu dəfə onu İrəvandan sürgün etdi. Əhməd xanın qısa hakimiyyətindən sonra onun yerinə İrəvanın ən qüdrətli hakimi hesab olunan Hüseyn-

qulu xan təyin edildi. Məhəmməd xanın qızı Hacı Bəyimlə evli olan Hüseynqulu xana bütün Arazboyu hərbi birləşmələrin komandiri vəzifəsi də həvalə olunduğundan, o həm də İrəvan Sərdarı titulunu daşıyırdı [41, 17].

Çox keçmədən İrəvan xanlığında irsi hakimiyyət bərpa olundu və hakimiyyətə müstəqil İrəvan xanlığının sonuncu xanı ***Hüseynqulu xan Qacar (Qoyunlu*** [*] ***)*** (1806 dekabr-1827 oktyabr) gəldi [45, 60-70; 83, 167; 22 37]. İrəvan Sərdarı təyin edilən Hüseynqulu xana vilayətin bütün hərbi və mülkü hakimiyyəti verilməklə yanaşı, o çoxsaylı süvari və piyada qoşunla da təmin edildi [10, 56-57].

Hüseynqulu xanın hakimiyyəti dövrünü İrəvan xanlığının çiçəklənməsi dövrü adlandıran rus mənbələri onun haqqında çox yüksək fikirlər söyləmişlər. "Sərdar Hüseynqulu xan qeyri-adi dərəcədə istedadlı olmaqla, ona göstərilən etimadı tamamilə doğrultdu. Xanlığın idarəsini əlinə aldıqdan sonra iqtisadiyyatı bütün sahələrdə inkişaf etdirməyə başladı. Kənd təsərrüfatının elə bir sahəsi yox idi ki, onun diqqət və qayğısından kənarda qalsın. O, boş torpaqları qonşu ölkələrdən gətirdiyi əhali ilə məskunlaşdırdı, onları əkinçilik alətləri, qoşqu heyvanları, toxumla təmin etdi, suvarma üçün arxlar çəkdirdi... İrəvan əhalisində hələ indinin özündə də onun haqqında xoş xatirə yaşamaqdadır. Onun təsərrüfat fəaliyyəti görünməmiş uğur qazandı və İranın digər vilayətlərini qabaqladı. Bu dinc fəaliyyət 1808-ci ildə qraf Qudoviçin başçılığı ilə buraya edilən hücumla pozuldu və o İrəvanı 3 ay mühasirədə saxladı, amma istəyinə nail ola bilmədi" [55, 163].

---

* Qacarların Qoyunlu (Ağcaqoyunlu) boyundan olan Hüseynqulu xan Qacarın atası vaxtilə İrəvan xanı olub. Fətəli xanın sarayında əyanların başçısı vəzifəsində çalışmış, Ağa Məhəmməd şah qətlə yetiriləndən sonra Fətəli şahın hakimiyyətdə möhkəmlənməsinə yaxından kömək etmişdi. 1800-1802-ci illərdə Qəzvində paytaxta gedən yolun mühafizə dəstəsinin rəisi olmuş, şəxsi igidliyinə görə «Qəzvini» təxəllüsü almışdı. 1802-ci ildə əfşarlar arasında yaranan ixtişaşları yatırmaq üçün Xorasana göndərilmiş və beş il Xorasanı idarə etmişdi [bax: 41, 17-18; 22, 37-38].

Nəşrə hazırladığımız Kameral təsvirlərin müəllifi olan fransız mənşəli rus tədqiqatçısı İ.Şopen (1798-1870) də Hüseynqulu xana yüksək qiymət vermişdi: *“Hüseynqulu xan ağıllı, inzibatçı, hiyləgər və əla təsərrüfatçı adam olub. O, boş əraziləri məskunlaşdırmış, bağlar salmış, arxlar çəkdirmiş və ona həvalə olunan xanlığa müxtəlif ərazilərdən xeyli insan cəlb etmişdi. Əkinçiləri toxum, kotan, qoşqu heyvanları, tacirləri sərmayə və mallarla təmin etmiş və öz sələfləri ilə müqayisədə vilayəti tamamilə çiçəklənmiş vəziyyətə gətirmişdi*” [83, 450]. Bundan başqa, müəllif Hüseynqulu xanın Fətəli şah sarayında xüsusi statusunun, hörmətinin olduğunu isə belə təsvir edir: *“İrəvan xanlığını İranı Rusiyadan ayıran vilayət və müharibə olacağı halda birinci zərbəni dəf etməli olan bufer zona hesab etdiyinə görə, şah ona tam etimad göstərməklə onun heç bir işinə qarışmırdı. O, topladığı vergiyə görə heç kəsə hesabat vermir, pul kəsdirirdi... bir sözlə, hakimi mütləq idi*” [83, 449].

Onu da qeyd etmək lazımdır ki, sonuncu İrəvan xanı Hüseynqulu xan gəlirinin böyük hissəsini müdafiə məqsədlərinə sərf etmiş*, ticarəti inkişaf etdirmiş və sabit idarəçilik sistemi qurmuşdur. Binaçı vergisini ən yaxın iki köməkçisinin vasitəsilə yığmasına baxmayaraq, özü birbaşa hər bir kəndin vəziyyəti, torpağın məhsuldarlığı, suya olan ehtiyacı ilə maraqlanmış və kəndlərdə binaçı vergisini verməyə gücü çatan evləri təyin etmişdi. “Kameral təsvir”in məlumatlarında İrəvan xanına və onun ailəsinə məxsus mülklərdən vergi alınması haqqında məlumat vardır. Beləki, xanın özünə məxsus “Sərdar bağı”ndan və

---

* İrəvan xanlığının ərazisində yerləşən möhtəşəm Sərdarabad qalası 1815-1817-ci illərdə Hüseynqulu xan Qacarın əmri ilə tikilmişdi. Qalanın ikiqat hörgülü, hündür divarları uzunsov dördbucaq formasında idi. Top yerləşdirmək üçün uzun (yan) divarlarda 6, qısa divarlarda isə 4 bürcü var idi. Dərin xəndəklə əhatə olunan qalanın dövrəsi 4 verstə yaxın idi. Burada sərdarın sarayından başqa 700-dək ev, 1 məscid, 33 dükan, 16 dəyirman, 1 ding, 4 yağçəkən zavod, 1 boyaqxana və sərdara məxsus geniş bağ vardı. Əhalisi əkinçilik, maldarlıq, xırda ticarət, bəz toxumaq, dəmirçilik, dərzilik və digər sənət sahələri ilə məşğul olurdular [10, 146; 22, 37-38].

yüzbaşı Kazım ağadan məscid üçün aldığı dəyirmandan, xanımı Hacı Bəyimə məxsus Dərəkənd məhəlləsindəki un dəyirmanlarından və hamamdan xeyli məbləğdə vergi alındığı qeyd edilir [bax: 65, 121]. Bu isə İrəvan xanı Hüseynqulu xanın necə ədalətli bir hökmdar olmasını bir daha sübut edir.

Hüseynqulu xan iqtisadiyyatı çox gözəl bildiyi üçün xanlığı bir idarəçi kimi deyil, daha çox bir mülk sahibi kimi idarə edirdi. O, əhalinin işini və gəlirlərini diqqətlə araşdırdığı için onların vəziyyətini də bilirdi. Hər bir kəndin coğrafi şəraitə görə gəlirini, otlaqların dağlara yaxın və ya uzaqlığına görə məhsuldarlığını təyin edə bilirdi. Bundan başqa Hüseynqulu xan hər bir kəndin şəhərə və ya mühüm ticarət yollarına yaxınlığını, istehsal edilən məhsulun keyfiyyətini, onun az və ya daha çox mənfəətlə satılacağını, hər kənddə maldarlığın vəziyyətini də diqqətə alırdı. Hüseynqulu xanın əhali siyasətini digər xanlıqlardan fərqləndirən tərəflərdən biri də əhalinin öz problemlərini birbaşa xanın özünə deyə bilməsinə imkan yaradılması idi [33, 113-119].

Beləliklə, Sərdar Hüseynqulu xan hakimi-mütləq olaraq 21 il hakimiyyət sürdü. Rusiya ilə sülh şəraitində öz torpaqlarının təhlükəsizliyini qorumaq onun üçün heç bir çətinlik törətmirdi. Amma artıq Rusiya sülhpərvərlik maskasını çıxarıb atmış və öz xoşu ilə onun boyunduruğuna girmək istəməyən İrəvan xanını və xanlığını ram etmək qərarına gəlmişdi. Bu məqsədlə 1808-ci ildə feldmarşal qraf Qudoviçin başçılığı altında İrəvan xanlığını işğal etmək üçün bölgəyə qoşun yeridildi [55, 114-115; 58, 62]. İrəvan qalasını bir müddət mühasirədə saxlayan Qudoviç noyabrın 17-də son dəfə qalaya irimiqyaslı hücuma keçsə də, istəyinə nail ola bilmədi və noyabrın 30-da İrəvanın mühasirəsindən əl çəkərək geri qayıtdı, general Nebolsinə Naxçıvandan Gəncəyə geri çəkilmək əmri verdi. Naxçıvanda möhkəmlənən rus qoşunu da dekabrın 1-də oranı tərk etdi [76, 304-305; 10, 311].

Rusiya imperiyası nəyin bahasına olur-olsun, mühüm strateji əhəmiyyətə malik olan İrəvan xanlığını ələ keçirmək fikrində idi və ona görə də 1826-cı ildə yenidən müharibəyə başladı. İm-

perator I Nikolay Qafqazdakı rus qoşunlarının baş komandanı Yermolova 1826-cı il oktyabrın 21-də yazırdı: *"Əgər İrəvanı ya silah gücünə, ya İrəvan Sərdarını pulla ələ almaq yolu ilə, ya da onunla gizli münasibətlər qurmaq yolu ilə ələ keçirmək mümkündürsə, bu imkanı əldən verməyin"* [82, 112; 10, 331].

1827-ci il martın 29-da general-adyutant Paskeviç Qafqazda yerləşən rus qoşunlarının baş komandanı təyin olundu [76, 283]. 1827-ci ilin aprelin əvvəllərində Paskeviçin əmri ilə rus qoşunlarının ön dəstəsi general Benkendorfun komandanlığı altında və erməni arxiyepiskopu Nersesin müşayiəti ilə Borçalıdan İrəvana doğru hərəkətə başladı [82, 233; 10, 332-333].

İrəvan qalasını almaq üçün rusların üçüncü cəhdi də boşa çıxdıqdan sonra Paskeviç 6 aylıq ərzaq ehtiyatı toplanmış Sərdarabad qalasını və Naxçıvanı tutdu [46, 561-562, 563-564; 6, 36]. Fransız istehkamçılarının layihəsi ilə Naxçıvanda tikilmiş möhkəm Abbasabad qalası Naxçıvan hakimi Ehsan xanın xəyanəti nəticəsində ruslara təslim edildi [6, 108].

1827-ci il sentyabrın 24-də İrəvanın rus qoşunları tərəfindən növbəti mühasirəsi başlandı. 6 günlük şiddətli top atəşindən sonra qala divarları uçdu və ruslar İrəvan qalasına girdilər. Həsən xan Qacarla bərabər qalabəyi Sübhanqulu xan, xüsusi qoşun hissəsinin başçısı Qasım xan, mərəndli Cəfərqulu xan, təbrizli Əlimərdan xan, əhərli Arslan xan, Fətəli xan və 3 minlik qarnizon əsir düşdü, çoxlu hərbi qənimət, ərzaq ehtiyatı ələ keçirildi [75, 514; 10, 349-350]. İrəvan şəhəri mühasirədə olarkən, Sərdar Hüseynqulu xan tabeliyindəki qoşunla müxtəlif istiqamətlərdən ruslara zərbə endirərək onları qalanın mühasirəsindən əl çəkməyə məcbur etmək taktikasını seçmişdi. Lakin onun cəhdləri elə bir təsirli nəticə vermədi [75, 31; 61, 8; 62, 68; 79, 35].

İrəvan qalasının ələ keçirilməsi Rusiya imperatorunun sarayında böyük sevinclə qarşılandı və təntənəli mərasimlə qeyd edildi. V.Potto yazır ki, İrəvan qalasının işğalı xəbərini alan I Nikolay Riqadan tələsik Peterburqa qayıtdı, noyabrın 8-də Qış sarayı kilsəsində dua oxuma mərasimi keçirdi [76, 518-519; 10, 350].

İrəvan xanlığının işğalı ilə Şimali Azərbaycanın bütün ərazisi Rusiyanın tərkibinə qatıldı. Məğlub edilmiş Qacarlar İranı ilə 1828-ci il fevralın 10-da Türkmənçayda müqavilə imzalandı. Müqavilənin üçüncü maddəsinə əsasən Şimali Azərbaycanın Gülüstan müqaviləsinə daxil edilməmiş İrəvan və Naxçıvan xanlıqları da Rusiya imperiyasına ilhaq edildi [57, 252; 28, 73-95].

## *İrəvan xanlığı işğaldan sonra*

İrəvan xanlığının Rusiya tərəfindən işğalından sonra həmin ərazilərdə yeni idarəçilik sisteminin yaradılmasına başlandı. Bu məqsədlə Qafqazın baş hərbi hakimi Paskeviçin əmri ilə 1827-ci il oktyabrın 6-da "İrəvanın müvəqqəti İdarəsi" adlı qurum yaradıldı. Yerli qoşunların komandanı general Krasovski onun rəisi, işğalçıların əlaltısı, erməni arxiyepiskopu Nerses "Müvəqqəti İdarə"nin üzvü təyin edildilər. Yerli türk əhali isə dövlət idarəçiliyindən tamamilə uzaqlaşdırıldı [73, 72; 10, 379].

Yeni rus idarəçiliyi yerli türk əhalini narazı saldığına görə onlar doğma yer-yurdlarını tərk edib İrana və Osmanlı torpaqlarına köçməyə başladılar. Naxçıvan xanlığı, Pəmbək-Şörəyellə birlikdə İrəvan əyalətini tərk edən müsəlmanların sayı 12,3-13,5 min nəfərə çatırdı. Müqayisə üçün deyək ki, bu rəqəm İrəvan şəhərinin 1831-ci ildə qeydə alınmış əhalisindən çox idi. V.Potto bu barədə yazırdı: "Oturaq əhali Arazın o biri tayına keçmişdi. Tərəkəmə tatarların az bir hissəsi Türkiyəyə, çox hissəsi İrana getmişdi" [10, 378].

Krasovskinin qeyri-məhdud hakimiyyət verdiyi erməni arxiyepiskopunun azğınlığı o dərəcəyə çatdı ki, hətta Paskeviçin özünü narazı saldı və o, Krasovskini vəzifədən azad etdi, Nersesi isə Bessarabiyaya sürgün etdi [10, 379].

Qraf Paskeviçin Rusiyanın xarici işlər naziri qraf Nesselroda məktubundan məlum olur ki, yerli Qarapapaq türklərindən 800 ailə Arazın o tayına, bundan başqa, Qarapapaqlardan 100

ailə, Ayrımlardan 300 ailə Qarsa, Uluxanlı tayfasından 600 ailə Bəyazid paşalığına köçmüşdü [10, 378].

Paskeviçi narazı salan əsas şey onun türklərin qayğısına qalması deyil, vergilərin kəskin şəkildə azalması idi. Çünki bir tərəfdən müharibə təsərrüfatlara-vergi subyektlərinə dağıdıcı zərbə vurmuşdu və onların bərpasına müəyyən vaxt lazım idi, digər tərəfdən isə İrandan və Türkiyədən köçürülən ermənilər 6 il vergidən azad edilmişdilər. Vergi verən müsəlmanların da oranı tərk etməsi səbəbindən vergilər kəskin şəkildə azalmışdı. Məsələn, 1828-ci ilin yayında İrəvan xanlığının sakinlərindən natural şəkildə 755 xalvar buğda, 223 xalvar arpa, 428 xalvar çəltik, 42 xalvar pambıq vergi yığılmışdısa, görülmüş kəskin tədbirlər öz nəticəsini vermiş və növbəti, 1829-cu ildə vergi olaraq 2.436 xalvar buğda, 772 xalvar arpa, 728 xalvar çəltik, 158 xalvar pambıq alınmışdı. Başqa sözlə, buğda istehsalı 3 dəfədən artıq, arpa və çəltik istehsalı təxminən 2 dəfə, pambıq istehsalı təxminən 4 dəfə və təbii ki, bu məhsullar üzrə vergilər də mütənasib şəkildə o qədər artmışdı. Köçürülən ermənilər də vergi verdikdən sonra, 1835-ci ildə bu məhsullara görə vergi kimi yığılan buğda 7.286 xalvar, arpa 2.577 xalvar, çəltik 1.921 xalvar, pambıq 247 xalvar olmuşdu, başqa sözlə, vergi kimi alınan pambıq 6, digər məhsullardan natural şəkildə alınan vergi isə təxminən 10 dəfə artmışdı. Pul şəklində alınan vergilər də 1828-ci ildəki 33.765 rubldan 1836-ci ildə 258.953 rubla çatmışdı, başqa sözlə təxminən 8 dəfə artmışdı [83, 1219-1222].

Türkmənçay müqaviləsindən az sonra, 1828-ci il martın 21-də imperator I Nikolayın fərmanı ilə Naxçıvan və İrəvan xanlıqları ləğv edilərək, onların yerində yeni inzibati-ərazi vahidi – ***Erməni vilayəti*** yaradıldı və həmin müqaviləyə Rusiyanın təkidli tələbi ilə salınmış 15-ci maddəyə uyğun olaraq, İranın Salmas, Xoy, Urmiya, Marağa mahallarından erməniləri bu ərazilərə köçürməyə başladılar. Bunun üçünsə bu ərazilərə köçməyə meyl etməyən erməniləri dilə tutmaq, inandırmaq üçün erməni zabiti Lazarevi xüsusi olaraq dəvət etmişdilər. Təşviqat vasitəsi

olaraq onlara 25.000 rubl gümüş pul ayrılmış və yeni yaşayış yerlərində 6 il vergidən azad edilmişdilər [56, 98-103; 83, 1217].

Köçürülən ermənilər yerli türk-müsəlman əhaliyə elə ilk gündən fəlakət gətirdilər. İ.Şopen bu barədə belə yazır: "*Azərbaycanda* (Cənubi Azərbaycan -N.Ə.) *yaşayan ermənilərə bizim ərazilərimizə köçməyə şərait yaradılanda onlar dəstələrlə Araz çayını keçib yollarının üstündə rast gəldikləri müharibə nəticəsində əhalisi qaçıb getmiş yerli müsəlman əhalinin boş qalmış kəndlərdəki evlərini, torpaqlarını, bağlarını, dəyirmanlarını və başqa mülklərini zəbt etdilər. Sülh və əmin-amanlıq yaranandan sonra, 1829-cu ildə əvvəlki sakinlər geri qayıdanda başqalarının onların evlərinə yiyələndiyini gördükdə, bu kəndlərin arasındakı ən əlverişsiz torpaqlarda yerləşməyə razı salmaq üçün ermənilərə yalvarıb-yaxarıb özlərinə ev tikməyə başladılar. Əvvəlki sakinlərin bir çoxu isə dağlara çəkilərək yeni kəndlər salıb ömürlük oralarda məskunlaşdılar. Beləliklə, vilayətin Sərdara ən çox gəlir verən torpaqları ermənilərin əlinə keçdi*" [83,1217].

İşğaldan əvvəl İrəvan xanlığında 3.498, Naxçıvan xanlığında isə 930 olmaqla bütün Erməni vilayətində 4.428 erməni ailəsi, cəmi 25.151 nəfər erməni, müharibədə ölən, İrana və Türkiyəyə gedənləri nəzərə almadan belə 16.078 müsəlman ailəsi və 81.749 nəfər müsəlman yaşayır və müsəlmanlar 76,5 % təşkil edirdilərsə, işğaldan sonra qısa müddətdə, 1828-1830-cu illərdə İrandan 6.949 ailə (35.560 nəfər), Osmanlı imperiyasından isə 3.682 ailə (21.666 nəfər), cəmi 10.631 erməni ailəsi (57.226) nəfər köçürüldü və ermənilər artıq sayca (82.377 nəfər) müsəlmanları üstələməyə başladı [83, 635-642].

Ermənilərin Türkiyədən keçmiş İrəvan xanlığının ərazisinə köçürülməsi 1830-cu ildən sonra da davam etmişdir. Türkiyədən 14 mindən artıq erməni ailəsi – 90 min nəfər Göyçə, Dərəçiçək, Abaran, Sürməli və Talin mahallarına yerləşdirildi [10, 394-396].

Rusiya işğalı ərəfəsində İrəvan xanlığının bütün xristian əhalisinin ümumi sayı 20%-dən çox olmamışdır. Bu faktı İ.Şopenin tədqiqatlarına əsaslanan erməni mənşəli qərb tarixçisi

G.Bornoutyan da öz tədqiqatlarında etiraf edir [41, 59; 42, 78; 10, 76].

Tanınmış rus tədqiqatçısı N.Şavrov ermənilərin Cənubi Qafqaza köçürülməsi prosesini və köçürülüb gətirilmiş ermənilərin sayını araşdırdıqdan sonra 1911-ci ildə yazırdı: «***Hazırda Cənubi Qafqazda yaşayan 1 milyon 300 min erməninin 1 milyondan çoxu bu diyarın yerli əhalisi deyil. Onları bura biz*** (yəni ruslar – *red.*) ***köçürüb gətirmişik***» [81, 63; 10, 25].

## *Kameral siyahıların tərtibi*

Qeyd etmək lazımdır ki, Rusiya tərəfi təqdim olunan vergi və maliyyə sənədlərinə o qədər də etibar etmirdi, düşünürdülər ki, onlara verilən sənədlərdə rəqəmlər kiçildiləcəkdir. İrəvan xanlığı üzrə tərtib edilən bu tipli əsas sənəd İrəvan xanının vəziri (onu maliyyə naziri də adlandırırdılar) Mirzə İsmayılın tərtib etdiyi maliyyə sənədləri idi. İnzibati İdarənin işçiləri Mirzə İsmayılın sənədlərində ciddi uyğunsuzluqlar aşkar edə bilməmişdilər [83, 991-992].

Naxçıvan əyalətində isə vəziyyət tamamilə dolaşıq idi. Burada bu sənədləri tərtib etmək Paskeviçin göstərişi ilə general Merliniyə tapşırılsa da, onun 1828-ci ildə tərtib etdiyi kameral təsvirə görə yığılacaq verginin miqdarı işğaldan qabaqkı kəmiyyətdən az olduğuna görə, Paskeviçi razı salmamışdı. İkinci dəfə bu işi İnzibati idarənin müşaviri Petrikov, üçüncü dəfə polkovnik Voljinski görsə də, nə onların, nə də Naxçıvan naibi Ehsan xanın verdiyi bilgilər, eləcə də əyalət sakinlərindən alınan məlumatlar da Paskeviçi qane etməmiş və bu işi İnzibati İdarənin müşaviri, kollej assasoru rütbəli fransız mənşəli İvan Şopenə təklif etmiş və o da bu təklifi qəbul edərək yüksək səviyyədə yerinə yetirmişdir [83, 1138-1141].

Mühafizə dəstəsi və katiblərlə təmin edilmiş İ.Şopen 1829-cu ilin aprelində başladığı bu işi 3 ilə -1832-ci ilin mayında başa çatdırmış, İrəvan xanlığının 15, Naxçıvan xanlığının 10

mahalı, İrəvan, Naxçıvan və Ordubad şəhərləri və tərəkəmə (elat) əhali üzrə kameral təsvirlər tərtib etmiş, sonradan bu kameral təsvirlərdə toplanmış materialları təhlil edərək, ***"Erməni vilayətinin Rusiya İmperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinə dair tarixi abidə"*** [83] adlı fundamental kitabını yazmışdır.

"Kameral təsvir" adlanan sənədlərdə əhalinin adbaad siyahısı ilə yanaşı, hər bir mahal üzrə izahat yazısı və boş kəndlərin siyahısı da verilmişdir. Bu izahat yazılarında mahalın coğrafi ərazisi, sərhədləri, meşə, su ehtiyatları, çayları, gölləri, dağları, iqlimi, vergi sistemi, mahalda iqtisadi vəziyyəti yaxşılaşdırmaq üçün təkliflər yer almış, bir növ mahal inventarlaşdırılmışdir. Bir sözlə, bu sənədlərdə indiki tədqiqatçılar üçün zəngin material vardır.

Haqqında söhbət gedən kitaba yazdığı ön sözdə İ.Şopen öz missiyasını belə qiymətləndirirdi: *"Erməni vilayətinin Rusiya imperiyasına birləşdirildiyi dövrün vəziyyətini təsvir edən bu kitab bir sıra inventarları özündə cəmləşdirib. Bu kitabın köməyi ilə vilayətin sakinləri gələcəkdə müqayisə edib deyəcəklər: nəyimiz var imiş, indi nəyimiz var. Qoy bu vilayətin sakinləri bu kitabı əllərində tutduqları vaxt daim öz keçmişlərini yaşadıqları dövrlə müqayisə etsinlər*" [83, VI].

Osmanlı idarəçiliyi dövründə İrəvan əyalətinin idarəsi üçün hüquqi bazanın yaradılmasını təmin edən "*təhrir dəftəri*" adlanan sənədlər tərtib edilmişdi. Təhrir dəftərləri "*müfəssəl dəftər*", "*icmal dəftəri*" və "*sicil dəftəri*" olmaqla üç növə ayrılırdı. İcmal dəftərində ərazidəki kəndlər və təsərrüfat subyektləri (tiyul, zeamət, timar) siyahıya alınaraq onların nə qədər vergi ödədiyi yazılır, müfəssəl dəftərlərdə isə burada yaşayan vergi mükəlləfiyyətli əhali də siyahıya alınırdı.

Ələ keçirdikləri bölgələri mərkəzləşmiş qaydada idarə etmək məqsədi ilə osmanlılar buraların ölkənin ictimai-siyasi və sosial-iqtisadi sisteminə inteqrasiyasına ciddi səy göstərirdilər. Siyasi sabitliyi və asayişi təmin etmək, hücumlardan qorunmaq

üçün osmanlılar ilk növbədə qalalarda silahlı qüvvələri yerləşdirir, onlara maaş kimi veriləcək vəsaitin mənbələrini müəyyən edirdilər. Bu tədbirdən sonra ələ keçirilən bölgələr əyalətlərə bölünür, onların ərazi-inzibati bölgüsü aparılır, yerli idarə aparatı formalaşdırılır, rəhbərləri (bəylərbəyi, sancaqbəyi, qazi, naib, kəndxuda, dəftərdar) təyin edilirdi. Bundan sonrakı mərhələdə yerli idarə aparatının ayrı-ayrı idarələri işlərini paralel aparmağa başlayırdılar. İlk növbədə dəftərxana işçiləri yerli əhalidən olan kəndxudaların bələdçiliyi və onların bilavasitə iştirakı ilə əyalət əhalisinin sosial vəziyyətini təftiş edir, Səfəvi dövründəki vergilərin qaydasını və miqdarını müəyyənləşdirir, vergilərin toplanması zamanı edilən haqsızlıqları üzə çıxararaq, bəylərbəyi ilə qaziyə bildirir, əhalinin məşğuliyyəti, ailə vəziyyəti (evli, subay, dul), fiziki sağlamlığı (kor, lal, kar, topal), mənsub olduğu zümrə (şeyx, seyid və s.) haqqında ətraflı məlumat toplayır, gəlir obyektlərini müəyyən edir, onlardan alınacaq vergilərin miqdarını dəqiqləşdirir, ticarət qaydalarını qoyurdular. Beləliklə, əyalətin idarə edilməsi üçün lazım olan qanunnamə və vergilərin nizamlı şəkildə toplanmasını müəyyən edən müfəssəl dəftər tərtib edilirdi. Növbəti sonuncu mərhələdə isə, əkilən torpaq sahələri və formaları ilə bərabər torpaq sahibləri müəyyən edilərək, toplanan məlumatlara əsasən müfəssəl dəftər də istifadə olunmaqla icmal dəftər hazırlanırdı [9, 13].

1590-cı il tarixli “İrəvan əyalətinin müfəssəl dəftəri”nə görə İrəvan əyaləti İrəvan, Karbi, Naxçıvan, Məvaziyi-Xatun, Mülki-Arslan, Qarabağ, Dərəşam, Dərəşahbuz, Bazarçayı, Şərur, Ağcaqala, Gərni, Vedi, Abaran, Şərəbxana, Talin, Ərmus, Abnak, Aralıq, Azadcıran, Şorlut, Dərənürgüt, Zar, Zebil, Əlincə və Sisyan nahiyələrindən ibarət idi [9, 7].

1728-ci ildə isə bu əyalətin İrəvan, Naxçıvan və Şörəyel livalarından ibarət olduğu aydın olur. İrəvan livasına İrəvan şəhəri, Qırxbulaq, Körpü, Maku, Xınzirək, Gərni, Vedi, Dərəçiçək, Abaran, Göyçə, Dərələyəz (1727-ci ilin müfəssəl dəftərinə görə bu nahiyə Naxçıvan sancağına aid edilmişdir), Məzrə, Sürməli, İğdır, Aralıq və Şərur, Sədərək, Zarzəmin nahiyələri daxil idi [9, 8].

Rusiya işğalından (1828) əvvəl və kameral təsvirlərin tərtib edildiyi 1831-ci ildə keşmiş İrəvan xanlığı İrəvan şəhəri və 15 mahaldan ibarət idi: Qıxbulaq, Zəngibasar, Gərnibasar, Vedibasar, Şərur, Sürməli, Dərəkənd-Parçenis, Səədli, Talin, Seyidli-Axsaxlı, Sərdarabad, Körpübasar, Abaran, Dərəçiçək və Göyçə mahalları [83, 441-446].

İ.Şopenin rəhbərliyi ilə bu mahalların hər biri üzrə 1, İrəvan şəhəri üzrə 3, tərəkəmə (elat) əhali üçün də ayrıca 1 kameral təsvir tərtib edilmiş və bütün 19 kameral təsvirlər Ermənistan Milli Arxivində saxlanılır. O zaman İrəvan şəhəri 4 hissədən – Qala, Şəhər (Əski şəhər), Təpəbaşı və Dəmirbulaq hissələrindən ibarət olmuşdur.

## *İrəvan əyalətində idarəetmə sistemi*

İşğaldan sonra İrəvan qalası işğalçı dövlətin inzibati idarəsinə çevrildi. İnzibati idarə xanın sarayında yerləşdirilmiş, məscidlərdən birini silah anbarına, digərini taxıl anbarına, xanın hərəmxanasını isə “hospitala” – hərbi xəstəxanaya çevirmişdilər [63].

Rusiya işğalından sonra İrəvan əyaləti 4 inzibati dairəyə bölünmüşdü:

1.İrəvan dairəsinə İrəvan şəhəri, Göyçə, Dərəçiçək və Qırxbulaq mahalları;

2.Şərur dairəsinə Şərur, Vedibasar, Gərnibasar və Zəngibasar mahalları;

3.Sürməli dairəsinə Sürməli, Dərəkənd-Parçenis mahalları, Gərnibasar və Vedibasar mahallarının Arazın sağ sahilində yerləşən əraziləri;

4.Sərdarabad dairəsinə Səədli, Talin, Seyidli-Axsaxlı, Abaran, Qərbi və Sərdarabad mahalları daxil idi [83, 448].

İrəvan xanlığının işğaldan əvvəl və sonrakı idarəetmə sistemlərində ciddi fərqlər var idi.

İrəvan xanlığının İran Qacarlar dövlətindən asılılığı nominal xarakter daşıyırdı, çünki nəinki mərkəzi hökumətə xərac ve-

rilmirdi, əksinə, müdafiə tədbirlərini gücləndirmək üçün mərkəzi hökumət ona hər il müəyyən miqdarda, işğal ərəfəsindəki illərdə isə ildə 6 min tümən (24 min gümüş rubl) pul göndərirdi. Şah sarayındakı bütün vəzifələr Sərdarın sarayında da vardı. Saray əyanları onun xidmətində olanlara və hərəmxanaya qulluq edənlərə bölünürdü. Daxili idarə, vəzifəli şəxslərin təyini və hətta hərbi kadrlar onların arasından təyin edilirdi [83, 451].

Divan xan və vəzir də daxil olmaqla, sarayda mühüm vəzifə tutan və hər biri bir sahəni idarə edən mirzələrdən və Şeyxülislamdan ibarət idi. Divana xanın ən yaxın adamlarından olan və onun tərəfindən təyin edilən **divanbəyi** başçılıq edirdi. Xan sarayında maliyyə işlərində vəzirlə yanaşı, sərkari-ali, texniki işlərə məsul kəhya, xəzinədar, anbarağası, saray mühafizlərinin rəisi, qoruqbaşı və başqa vəzifəli şəxslər var idi [83, 451].

Şəhər rəisi vəzifəsini naib həyata keçirirdi. Naib iqtisadi və inzibati işlərlə məşğul olur, vergilərin vaxtında toplanmasına nəzarət edir, xan müvəqqəti olaraq bir neçə günlüyə şəhəri tərk etdikdə şəhərin idarəçiliyi ona keçirdi. Qalanın mühafizəsindən məsul olan şəxs isə qalabəyi idi [37, 48-49].

İrəvan Sərdarının idarəetmə aparatı 4 bölmədə cəmləşmişdi.

Ev təsərrüfatını Sərdarın özü və onun ən yaxın adamlarından biri idarə edirdi. Hərəmxanada çox güman ki, etiket xatirinə 36 arvad və kənizlər vardı. Onun sarayında xacələr yox idi və qadın azadlığı mövcud idi [83, 451].

Hərbi işlərə xanın qardaşı Ali Baş komandan Həsən xan rəhbərlik edirdi. Hərbi qüvvələr 2 sərbaz batalyonundan və qeyri-müəyyən sayda süvari döyüşçülərdən ibarət idi. Lazım gələndə xanlığın silah tutan bütün əhalisi orduya cəlb edilə bilərdi. Zəmburəklər-dəvə üstündə quraşdırılan falkonetlər-kiçik toplar nəzərə alınmasa, bir neçə 6 funtluq səhra topu və İrəvan qalasının ayrıca artilleriyası vardı. Divandakı mirzələrdən bir nəfər qoşunun siyahısını tuturdu. Sülh dövründə ordunun çoxu məzuniyyətdə hesab olunsa da, maaşlarını da alırdılar [83, 451-452].

Maliyyə işi əsas iş sayılırdı. Bu sahə Sərdarın daim diqqət mərkəzində olmaqla onun əsas məşğuliyyətini təşkil edirdi [83, 451].

İcra və polis orqanlarının fəaliyyəti də maliyyə məsələləri ilə sıx bağlı idi, çünki hakimiyyət demək olar ki, vergi toplamaq üçün idi. Lakin onlar həm də əmlak məsələləri və cinayət işləri üzrə məhkəmə qərarlarını yerinə yetirməli idi. Tabeliyindəki yüzbaşıların və onbaşıların vasitəsi ilə fəaliyyət göstərən şəhər polisinin rəisi darğa adlanırdı [83, 452].

Başqa islam ölkələrində olduğu kimi, İrəvan xanlığında da cinayət və ya mülki məsələləri peyğəmbərin müəyyən etdiyi yolla, şəriət məhkəmələri vasitəsi ilə həll edilirdi. Hərbi, maliyyə və polis idarəsinə gəldikdə isə hər şey hökmdarın iradəsindən, onun Divanının müdrikliyindən asılı idi. Üzərində heç bir məhdudiyyətin və nəzarətin olmadığı Divan hər bir halda icra aparatına sərəncam verirdi. Lakin bütün Şərq ölkələrində olduğu kimi, onların hakimiyyətini tarazlaşdıran və onların iradəsindən asılı olmayan dini bir hakimiyyət də vardı və o, dini məsələlərlə yanaşı, cinayət və mülkü hüququ, həm də təhsili həyata keçirirdi. Beləliklə, burada iki idarə hakimiyyəti vardı: dünyəvi rəislərə məxsus olub icra işlərini həyata keçirən cəbr hökuməti və ədalət mühakiməsini həyata keçirən və din xadimlərinin rəhbərlik etdiyi ədliyyə hökuməti [83, 453].

Mülki işlərə baxan dini məhkəmə Şəriət məhkəməsi adlanırdı. Bu məhkəmədə Şeyxülislam, qazılar və məşvərətçi səslə iştirak edəm axundlar və mollalar iştirak edirdi. Məhkəmə istintaqı tərəflərin dinlənməsi ilə başlayırdı. Əvvəlcə iddiaçını, sonra cavabdehi dinləyir, sonra hər ikisini üzləşdirirdilər. Sonra şahidləri dindirirdilər. Əvvəlcə cavabdehin, sonra iddiaçının şahidləri danışırdı. Şahidlər kifayət etmədikdə tərəfləri Qurana and içdirirdilər və bu zaman cavabdehin üstün hüququ vardı [83, 454].

Məsələ kifayət qədər araşdırıldıqdan sonra çəkişən tərəfləri otaqdan çıxardır və məhkəmə üzvləri öz aralarında müşavirə keçirirdilər. Əgər müzakirə edilən məsələ Quranda varsa, qərar

qəbul etmək çətin deyildi, əgər yox idisə, peyğəmbərin hədislərinə müraciət edirdilər, əgər burada da məqbul bir nümunə tapılmırdısa, onda yerli adət-ənənələrə uyğun olaraq və ya məhkəmə üzvlərinin vicdanına görə hökm çıxarırdılar. Mülkiyyət məsələləri mülkiyyət kağızının və digər sənədlərin əsasında həll edilirdi. Məhkəmənin qərarı yarlığa yazılır və məhkəmə heyətinin bütün üzvləri möhürünü basaraq yarlığı haqlı tərəfə verirdilər [83, 454-455].

1831-ci ildə İrəvan şəhərində yaşayan Şeyxülislamın, qazının, axundların və mollaların adları kameral siyahılarda qeyd edilmişdir.

İrəvan əyalətinin Şeyxülislamı şəhərin Təpəbaşı hissəsində yaşayırdı:

"134.224. Şeyxülislam Axund Molla Məhəmməd Axund Molla Məmmədhüseyn oğlu 60 yaş" [64].

Maraqlıdır ki, yaşadığı 134 nömrəli evdən başqa, Şeyxülislamın daha 1 evi qeydə alınmışdır. Bu, Təpəbaşı hissəsindəki 132 nömrəli evdir. 133-cü bina isə ona məxsus hamamdır [64]. Qazı Molla Kərim Şəhər hissəsində qeydə alınmışdır: "176.307. Qazı Molla Kərim Qazı Molla Cəfər oğlu 40 yaş" [63]. Göründüya kimi, Qazı Molla Kərimin atası da qazı olmuşdur.

İrəvan şəhərində 6 axund qeydə alınmışdır. Bunlar Şəhər hissəsində yaşayan Ağa Fətulla Ağa İbrahim oğlu, Axund Molla Kazım Məmmədrza bəy oğlu, Axund Molla Mustafa Kərbəlayı Heydər oğlu, Təpəbaşı hissəsində yaşayanlar: Axund Molla Bağır Sadıq bəy oğlu, Axund Molla Mehdi Axund Molla Məmmədəli Peşnamaz oğlu və Axund Molla Kazım Axund Molla Əhməd oğlu idi [63; 64].

Yuxarıda adları çəkilən həmin 8 nəfəri İrəvan xanlığında fəaliyyət göstərən Şəriət məhkəməsinin üzvləri saymaq olar.

İcra hakimiyyətinə mənsub olan cəzavermə daha sadə üsulla həyata keçirilirdi. Qatili öldürdüyü şəxsin yaxın adamlarına verirdilər. Onlar ya qan bahası əvəzində onu bağışlayır, ya da öldürürdülər [83, 456].

Dəftərxana işi və kargüzarlıq demək olar ki, yox dərəcəsində idi. Onlar nə qeydiyyat aparır, nə də jurnal tuturdular. Şərdar şikayətləri dinləyir, işi hərtərəfli araşdırıb qərar çıxarır və onun qərarı həmin dəqiqə icra olunurdu. Əgər cəza hökmü çıxarılırdısa, Sərdarın işarəsi ilə fərraşlar yerindən sıçrayıb onun sərəncamını icra edir, günahkarın ayaqlarını falaqqaya salıb şallaqlayırdılar. Çox nadir hallarda Sərdar kimisə pəncərədən Zəngi çayına atdırır, bəzən kiminsə əlini, ayağını, bir və ya iki qulağını kəsdirir, bir və ya iki gözünü tökdürürdü. Bütün bunlar bir göz qırpımında icra edilirdi [83, 456-457].

Mahalları xanların və ya bəylərin içərisindən təyin olunan mirbölük, kəndləri isə kəndxudalar idarə edirdi.

Tərəkəmə (elat) əhalini onların tayfa başçıları idarə edirdi.

Bütün bunlara onu da əlavə etmək lazımdır ki, Sərdar özü müəyyən etdiyi qayda-qanunu özü bildiyi kimi də dəyişə bilirdi və beləliklə, idarəetmə yüyənini əlində möhkəm saxlayırdı.

Sui-istifadə hallarına Sərdar bir çox hallarda barmaqarası yanaşırdı. Qeyri-qanuni yollarla sərvət toplayan məmurlar kifayət qədər şişəndə bütün sərvətini, mülklərini əlindən alıb xəzinəyə keçirirdi, başqa sözlə, özünə götürürdü. Həmin şəxs müxtəlif qapılar döyüb Sərdarın yanında sözü keçən adamların köməyi ilə yenidən mənsəbə çatardısa, ona şərait yaradırdılar ki, varlansın və yenidən hər şeyini əlindən alsınlar. İ.Şopen yazır ki, avropalılara nə qədər qəribə gəlsə də, asiyalılar bu üsulu əla hesab edirdilər [83, 458].

Mülki idarə sahəsində bütün vəzifələr əsasən xanların və bəylərin içərisindən təyin edilmiş şəxslər tərəfindən həyata keçirilirdi. Məktublar yazmaq, inventarların siyahısını tutmaq isə mirzələrin işi idi. Vəzifə yüksəlişi də aşağı vəzifəli məmurların daha yüksək məmur vəzifəsinə keçirilməsi ilə baş verirdi, Sərdarın Divanına da yol buradan keçirdi. Qeyd etmək lazımdır ki, hərbi, mülki və dini xidmət sahələri arasında elə bir sərhəd yox idi, diribaş mirzə asanlıqla yüzbaşı, bəy, xan olduğu kimi, molla və ya axund da ola bilərdi [83, 458].

Onu da qeyd etmək lazımdır ki, bütün mirzələr, bəylər, xanlar, vəzifəli əyanlar öz karyeralarını hələ gənc yaşlarından sarayda qəlyan paylamaqla başlayırdılar [83, 459].

İrəvan xanlığı işğal edildikdən sonra idarəetmə üsulu köklü surətdə dəyişdirildi, idarəetməni vilayət rəisi həyata keçirirdi. Onun tabeliyindəki dəftərxana isə Erməni vilayəti üzrə İnzibati idarə adlanırdı [83, 459-460].

İnzibati idarədə 2 şöbə vardı və hər şöbəyə müşavir rəhbərlik edirdi. Birinci şöbə icra hakimiyyətini, ikinci şöbə isə məhkəmə hakimiyyətini həyata keçirirdi. Müəyyən vaxtlarda maliyyə işlərini həyata keçirən üçüncü şöbə rəisinin icra aparatı yox idi. Maliyyə məsələləri isə Gəlirlər və Xəzinə mülkiyyəti üzrə Xüsusi İdarə tərəfindən həyata keçirilirdi. Bu idarə əvvəllər İnzibati idarənin bir şöbəsi olmuşdu. Mülki məhkəmələr birinci instansiya olan əyalət məhkəməsində həyata keçirilirdi. Bu məhkəmədə hakim və 3 nəfər mülki iclasçı var idi. Onlardan biri rus məmurları içərisindən, ikisi isə yerli xalqların-türklərin və ermənilərin nümayəndələri arasından seçilirdi. 500 rublu keçməyən iddia və mübahisəli məsələlər ikinci instansiya olan Vilayət rəisi tərəfindən həll edilirdi. Apelyasiya verildikdə isə onu üçüncü və sonuncu instansiya olan Qafqazdakı qoşunların ali baş komandanının təsdiqinə verirdilər [83, 459-460].

Cinayət işlərinə İrəvan şəhəri hərbi komendantının sədrliyi ilə hərbi məhkəmə baxırdı.

Hər bir şəhərdə polismeysterin idarəsi altında şəhər polis idarəsi təsis edilmişdi, tabeliyindəki pristavlar və məhəllə yüzbaşılarının vasitəsi ilə öz funksiyalarını həyata keçirirdilər.

İrəvan şəhərində hökumətin maaş verdiyi Şəriət məhkəməsi vardı (Naxçıvan və Ordubad şəhərlərində də mövcud olan şəriət məhkəmələrinin üzvlərinə maaş verilmirdi), mahallarda isə hər iki tərəfin razılığı ilə kiçik məsələləri həll edən axundlar vardı [83, 451-461].

Şeyxülislam Cənubi Qafqazdakı şiə müsəlmanlar arasında ali ruhani şəxs sayılsa da, uzun müddət onun statusu müəyyən-

ləşdirilməmişdi. Bir neçə dəfə layihə hazırlanmış, çar hökumətinin tələblərinə cavab vermədiyindən, qəbul edilməmişdi. Cənubi Qafqaz şiə və sünni idarəsinin əsasnaməsi 1872-ci ilin 5 aprelində qəbul edildi [84, 105].

İrəvan və Naxçıvan əyalətlərindən təşkil olunan Erməni vilayəti 1840-cı ildə ləğv edilərək Gürcüstan-İmeretiya quberniyasının tərkibinə verildi və onun tərkibində İrəvan və Naxçıvan qəzaları yaradıldı. İrəvan və Naxçıvan qəzaları 1846-cı ildə yeni yaradılan Tiflis quberniyasının tərkibinə verildi. 9 iyun 1849-cu ildə 5 qəzadan ibarət İrəvan quberniyasının yaradılması haqqında fərman verildi. 1850-ci il yanvarın 1-də bu fərman qüvvəyə mindi. İrəvan quberniyasına İrəvan, Aleksandropol, Novobəyazid, Naxçıvan və Ordubad qəzaları daxil idi [55, 9-10].

İrəvan quberniyası inqilaba qədər mövcudluğunu davam etdirdi.

### *İrəvan şəhərində təhsil, mədəniyyət, sənətkarlıq*

İrəvan şəhərinin məhəllələri, karvansaraları, məscid, hamam və dükanları haqqında “Şəhər hissəsinin” kameral təsvirində [65] geniş məlumat verildiyindən, fikrimizcə onları bir daha təkrarlamağa ehtiyac yoxdur. Amma haqqında danışmağı zəruri hesab etdiyimiz məsələlərdən biri, bəlkə də ən vacibi İrəvan şəhərindəki təhsil sistemi ilə bağlıdır.

İşğaldan sonra İrəvan şəhərində kilsə-məhəllə məktəbi açılmışdı, bu məktəblərdə 60 şagird təhsil alırdı, amma onların əksəriyyəti ermənilər idi, azərbaycanlı şagirdlər 10 nəfərə yaxın idi [83, 902]. Bu, iki şeylə bağlı idi. Bir tərəfdən yeni idarəçilər erməni kadrlar yetişdirib vilayəti onların vasitəsilə idarə etmək fikrində idilər və buna görə də türklərin rus dilini öyrənməsi və idarəçiliyə cəlb edilməsi onları o qədər də maraqlandırmırdı. Digər tərəfdən isə, türklər işğaldan əvvəl olduğu kimi öz dinlərinə, adət-ənənələrinə bağlılıq nümayiş etdirərək, əvvəlki kimi mədrəsə təhsili almağa üstünlük verirdilər. Məscidlərin nəzdində fəaliyyət göstərən mədrəsələrdə isə o dövr üçün heç də kiçik rə-

qəm sayılmayan 200 şagird təhsil alırdı (bundan başqa, adlı-sanlı din alimləri xüsusi məktəblər açıb hər şagirdə görə ayda gümüş pulla 20 qəpik zəhmət haqqının əvəzində təhsil verirdilər). Halbuki, kilsələrin nəzdindəki dini məktəblərdə işğaldan əvvəl cəmi 80 erməni şagirdi vardı [83, 902-903].

İrəvan şəhərindəki mədrəsə Hüseynəli xan məscidində fəaliyyət göstərirdi [83, 468]. Digər məscidlərin hər birində isə 20 şagird təhsil alırdı [65].

Kilsə-məhəllə məktəblərində biri müdir (nəzarətçi) olmaqla 2 müəllim, islam dinini tədris edən molla və xristian dinini tədris edən erməni terter fəaliyyət göstərirdi. Bu məktəblər 1 aşağı və 2 yuxarı sinifdən ibarət idi. Burada din dərsləri ilə yanaşı rus dili, hesab, ümumi coğrafiya, Rusiya coğrafiyası, dəftərxana işi və düzgün yazı qaydaları öyrədilirdi. Təhsil rus dilində idi. 1855-ci ilin məlumatına görə, İrəvan şəhərindəki rus kilsə-məhəllə məktəbində artıq 101 şagird təhsil alırdı [55, 252]. Mənbə bu şagirdlərdən neçəsinin erməni, neçəsinin isə türk (tatar) olması haqqında məlumat vermir.

Mədrəsələrdə təhsil iki istiqamətdə aparılırdı. Şagirdləri ya din işlərinə, ya da dünyəvi elmə hazırlayırdılar.

Aşağı siniflərdə dərs deyən müəllim "müdərris", yuxarı sinifdə dərs deyənlər isə "vaiz" adlanırdı. Bu və ya digər mədrəsədə müəllimlərin keyfiyyəti, eləcə də şagirdlərin sayı həmin məscidin maddi imkanlarından asılı olurdu. Əgər məscidin zəngin vəqfi vardısa, daha savadlı müdərris və vaizlər cəlb etməyə imkan verirdi və ya əksinə. Bəzi mədrəsələrdə təhsilə hansısa nüfuzlu və tanınmış müctəhid rəhbərlik edirdisə, həmin mədrəsəyə hər yandan çoxlu şagirdlər gəlirdi. Həmin müctəhid adətən, ən savadlı yetirmələrindən birini özünə varis təyin edərək əbasını ona bağışlayırdı. Beləliklə, onun əbası nəsildən nəslə keçir və sonuncu sahibinə və həmin mədrəsəyə böyük şöhrət gətirirdi [83, 902].

Mədrəsə təhsili üç ixtisas üzrə aparılırdı:

1.Ərəb dili və ədəbiyyatı. Buraya 12 fənn daxil idi: dilçilik, etimologiya, sintaksis, nitq mədəniyyəti, tarix, ərəb ədəbiyyatı, Quran qiraəti və s.

2.İlahiyyat və ümumi hüquq. Buraya 6 fənn daxil idi: Quranın təfsiri (ilmul-təfsir), İlmul-hədis, praktik ilahiyyat (hüququn da daxil olduğu ilmul-fiqh), sxolastik ilahiyyat (ilmul-kəlam), vərəsəlik hüququ (ilmul-fəraiz) və müxtəlif cərəyanların hüquqi əsasları (üsuli fiqh).

3. Fəlsəfə. Burada 5 fənn tədris edilirdi: məntiq, riyaziyyat, coğrafiya və astronomiya, təbabət və təbiət elmləri, nəzəri fəlsəfə [83, 903-904].

Xüsusi məktəblərdə isə (müəllimliklə məşğul olanların açdığı məktəblərdə) yalnız oxumağı və yazmağı öyrədirdilər. Onlara əvvəlcə əlifbanı öyrədərək Quran oxumağa məcbur edirdilər. Bir neçə ildən sonra şagirdə fars dilində kitab verir və yazı öyrədirdilər. Bu şagirdlər sürətlə oxumağı və yazmağı, bəzi əsərlərdən şeir parçalarını əzbər öyrəndikdən sonra onların təhsili başa çatmış sayılırdı. Bu şagirdlərdən bir çoxu Rudəkinin, Firdovsinin, Ənvərinin, Nizaminin, Caminin, Hafizin, Sədinin və Şərqdə məlum olan digər böyük şairlərin şeirlərini əzbər bilirdilər. Onların içərisində sözsüz ki, şeir yazanlar da var idi və ən tanınmışı özünə Mirzə Əndəlib (Bülbül) təxəllüsü götürərək şeirlər yazırdı [83, 904].

Həmin şəxs “Şəhər hissəsinin” kameral təsvirində qeydə alınmışdır: “452. Mirzə Əndəlib Əliqulu oğlu 48 yaş (mirzə); arvadı Nurcahan 50 yaş; qızı Xurşud 14 yaş;

nökərləri: Əliqulu Kərbəlayı Cəfər oğlu 15 yaş; Salman Kərbəlayı Əhməd oğlu 12 yaş” [65].

Göründüyü kimi, 1783-cü ildə anadan olan tanınmış şair evində iki nökər saxlayacaq qədər imkanlı adam olmuşdur.

İrəvanın Şəhər, Təpəbaşı və Dəmirbulaq hissələrində aşıq qeydə alınmayıb, lakin Dəmirbulaq hissəsində maraq doğuracaq bir evə və bir nəfərin adına rast gəlirik:

“231. Ölmüş Rəhim Aşıq Əli oğlunun evi.

346. Qasım Allahverdi oğlu 70 yaş (musiqi alətləri üçün sim düzəldir); iki oğlu var: Mirzəməhəmməd 25 yaş; Allahverdi 12 yaş” [63].

Göründüyü kimi, artıq həyatda olmasa da, Aşıq Əli adlı şəxs İrəvan şəhərinin adlı-sanlı aşıqlarından olmuşdur. Qasım Allahverdi oğlu isə simli musiqi alətləri üçün sim düzəldən nadir və çətin peşə sahibidir.

Aşıqlardan fərqli olaraq, 1831-ci ildə İrəvan şəhərində yaşayan iki rəssamın adlarını öyrənə bilirik: "747.1212. Cəfər ağa Mustafa bəy oğlu 25 yaş (bəy və rəssam); arvadı Telli 20 yaş". "748.1213. Sadıq Əkbər oğlu 45 yaş (rəssam); arvadı Səkinə 20 yaş; oğlu Cabbar 1 yaş; qızı Ummuşərəf 3 yaş" [65].

Burada yaşca böyük Sadıq Əkbər oğlunu daha gənc və imkanlı qonşusunun və həmkarının ustadı saymalıyıq.

Bütün İrəvan şəhərində, onun Şəhər hissəsində türklər arasında qeydə alınmış cəmi 1 nəfər silah ustasının olmasını, əlbəttə təəssüf hissi ilə qeyd etməliyik. O, nadir şəxsin adını burada hörmətlə qeyd etmək, zənnimizcə yerinə düşərdi:

"138.260. Şahbaz Səfi oğlu 35 y (silah ustası); arvadı Anaxanım 20 yaş; qızı Seyran 1 yaş; qardaşı Həmzə 20 yaş" [65]. Halbuki, türklərin əksəriyyət təşkil etdiyi İrəvan şəhərində yerli ermənilər arasında 4 nəfər, gəlmə ermənilər içərisində isə 12 nəfər silah ustası qeydə alınmışdır. Hətta cəmi 50 ailə olan qaraçılar arasında da 1 nəfər silah ustası var idi [65]. Türklər arasında silah ustalarının az olması onların Rusiya imperiyasına xidmət etmək istəməyərək İrana, yaxud Osmanlı dövlətinə getməsi ilə də bağlı ola bilərdi.

Bütün İrəvan şəhərində qeydə alınmış 2 saat ustası, 1 nəfər şüşə ustası və 4 tokarın hamısı isə türklər idi. Açığı, hələ elektrikin olmadığı bir vaxtda tornaçı dəzgahını və tokar (tornaçı) peşəsini təsəvvür etmək nə qədər çətin olsa da, saat ustası kimi, bu sənətin də İrəvanda yalnız türklərə məxsus olması qürurverici haldır.

İrəvan şəhərində ən geniş yayılmış peşələr isə tacir, baqqal, papaqçı, xırdavatçı, bağban, başmaqçı, nökər və günəmuzd fəhləlik idi. Müsəlmanlar adı çəkilən peşələrdə mütləq çoxluq təşkil edirdilər. Digər sənət növləri üzrə olmasa da, tacirlər arasında müqayisə aparmaq əhəmiyyətli olduğu üçün qeyd etmək lazımdır

ki, 1831-ci ildə 151 nəfər türk, 68 nəfər erməni taciri vardı ki, bu da ticarət kapitalının müsəlmanların əlində olduğunu göstərir.

Silah ustalığında olduğu kimi, parça toxuyanlar arasında da ermənilər, xüsusən gəlmə ermənilər üstünlük təşkil edirdilər.

1831-ci ildə İrəvan şəhərində cəmi 2.318 sənətkar qeydə alınmışdı, onların 1.436 nəfəri müsəlman, 468-i yerli, 386 nəfəri gəlmə erməni idi [83, 475; 63; 64; 66].

## *Demoqrafik vəziyyət: işğaldan əvvəl və sonra*

İşğaldan əvvəl İrəvan şəhərində daimi yaşayan əhalinin tamamilə Azərbaycan türklərindən ibarət olmasını ilk mənbələr də təsdiq edir. Hələ XVII əsrin sonlarında (1673) İrəvan şəhərində olan fransız səyyahı Şardenin məlumatına görə «*…**İrəvan qalası təxminən səkkiz yüz evdən ibarətdir və orada ancaq təmizqanlı qızılbaşlar yaşayırlar***» [27, 21]. «Qədim İrəvan» kitabında İrəvan əhalisindən bəhs edən erməni müəllifi Y.Şahəziz də fıransız səyyahı Şardenin İrəvan qalasında yaşayan əhali haqda məlumatını təsdiq edir və daha maraqlı bir məqama toxunur. O yazır ki, “***ermənilərin İrəvan şəhərində yalnız dükanları var idi, gündüzlər onlar orada alver edir, axşamlar isə dükanlarını bağlayıb evlərinə gedirdi*** [bax: 20, 488].

1700-ci ilin yazında İrəvanda olmuş digər avropalı-alman səyyahı Kaspari Şillinger də təsdiq edir ki, İrəvan şəhərində sayca və siyasi cəhətdən Azərbaycan türkləri tam üstünlük təşkil edirlər. O, yazır: «*İrəvan şəhərinin daxilində (yəni şəhərin qala divarları içərisində-red.) yalnız iranlılar (*Azərbaycan türkləri – *red.), şəhərin nisbətən iri qəsəbəsində (*görünür, Üçkilsədə – *red.) və müxtəlif yerlərdə kilsəyə xidmət üçün erməni tacir və sənətkarları yaşayırlar. Onlar iranlılara (*Azərbaycan türklərinə – *red.) vergi verirlər*». [bax: 20, 489].

XVIII yüzilliyn əvvəlində missionerlik məqsədilə İrəvana gəlmiş yezuitlər ordeninin üzvü, missioner Monye *evlərdən daha çox bağçalar və üzüm bağlarına qərq olmuş, ikiqat qala di-*

*varları ilə əhatə olunmuş İrəvan şəhərində əhalinin ¼-nin ermənilər olduğunu* qeyd edirdi. XVIII yüzillikdə İrəvanda olmuş Mami-Klerak Monyenin faktlarından təkcə faydalanmamış, hətta onu redaktə də etmişdir. Erməni tədqiqatçısı A.Q.İoannisyan da bu faktla razılaşaraq fransız tarixçisi, mühəndis Mami-Kleraka istinad edərək yazır ki, ***«qaynaqların məlumatına görə, ermənilər İrəvan şəhəri əhalisinin ¼-ni, azərbaycanlılar isə böyük əksəriyyətini təşkil edirdilər»*** [43, 153; 51, LXXVII; 70, 33-34].

XVIII əsrin əvvəllərində İrəvan şəhərində oturaq erməni əhalisinin yaşamadığını həmin dövrdə tərtib olunmuş arxiv sənədləri də təsdiq edir. Erməni-rus əlaqələrinə həsr olunmuş sənədlər toplusunun II cildinin I hissəsinə daxil edilmiş sənədlər içərisində maraqlı bir məlumat verilir. 1701-ci il 25 iyul tarixli «Yaddaş qeydləri» adlanan həmin sənəddə erməni avantüristi İsrail Ori rus qoşunlarını Cənubi Qafqaza yürüşə həvəsləndirmək üçün I Pyotra 18 bənddən ibarət layihə təklif edir. Layihənin 7-ci bəndində Rusiya imperatoruna İrəvan şəhəri haqda kəşfiyyat xarakterli məlumatlar çatdırılır və göstərilir ki, ***İrəvan şəhərində cəmi 300 nəfərdən bir az artıq erməni yaşayır və onlar da ticarətlə məşğul olurlar*** [51, 213; 19, 31].

Nəzərə almaq lazımdır ki, İrəvanda olan avropalılar, o cümlədən missionerlər şəhərin xristian əhalisi barədə məlumatı Üçkilsə katolikosundan alırdılar. Buna görə də həmin məlumatlar çox zaman bilərəkdən şişirdilir və həqiqəti əks etdirmirdi. Bununla belə, Avropa səyyahları Şarden, Şilinger, XVIII əsr arxiv sənədləri və hətta erməni müəllifi Şahəziz də İrəvan şəhərinin əhalisinin ancaq azərbaycanlılardan ibarət olduğunu yazırdı.

Göründüyü kimi, XVIII yüzillikdə İrəvan şəhərində yaşayan əhalinin böyük əksəriyyəti Azərbaycan türklərindən ibarət idi. Şəhər əhalisinin ¼-ni təşkil edən ermənilər isə Y.Şahəzizin qeyd etdiyi kimi, ***"gündüzlər alver edib, axşamlar isə dükanlarını bağlayıb evlərinə gedən"*** tacirlər idi. Beləliklə, XVIII əsrdə İrəvan şəhəri və ona yaxın bölgələrdə ermənilər elliklə məskən sala bilməmiş, yalnız müvəqqəti olaraq ticarətlə, habelə missionerlik fəaliyyəti ilə məşğul olmuşlar [bax: 20, 489].

XVII əsr Osmanlı qaynaqları İrəvan şəhəri və qalasını *“ab-i ru-yi memalik-i İran u Turan, ...reşk-i mülk-i Azerbaycan olan kalay-i Revan”* şəklində, yəni İran və Turan məmləkətlərinin namusu, isməti, Azərbaycan mülkünün həsəd doğuran İrəvan qalası kimi təsvir etmişdir [bax: 32, 690]. Bu fakt bir daha İrəvan şəhəri və qalasında ermənilərin yaşamadığını sübut edir.

1831-ci ilin kameral siyahılarından məlum olur ki, İrəvan şəhərində 1.807 müsəlman ailəsi və 7.331 müsəlman, 567 yerli erməni ailəsi və 2.369 yerli erməni, cəmi 9700 nəfər yerli sakin yaşayırdı [83, 543-545] və türklər 76 faiz təşkil edirdilər. Amma bununla belə, bu rəqəm müharibədən əvvəlki statistikanı düzgün əks etdirmir. Çünki müharibə zamanı yaralanmaqdan, müxtəlif xəstəliklərdən ölənlər və işğaldan sonra qaçıb gedən müsəlman əhali nəzərə alınmamışdır. Aydındır ki, məlum səbəblərə görə ermənilər İrəvanı tərk etməmişdilər. İrəvan şəhərinin işğaldan əvvəlki əhalisinin sayına gəldikdə isə, rus mənbələri qaladakı qarnizondan başqa oraya 18.000 İrəvan sakininin sığındığını və onların həm də müdafiə tədbirlərinə fövqəladə dərəcədə mane olduqlarını yazırlar [55, 257]. 3 minlik qarnizonu nəzərə almasaq belə, həmin rəqəmi əsas götürsək, deyə bilərik ki, işğaldan əvvəl İrəvan şəhərində təxminən 15.000 nəfər türk və 3 minə yaxın erməni yaşamış və əhalinin 84 faizə yaxını türk olmuşdur.

İşğaldan qısa müddət sonra İrəvan şəhərinə İrandan 366 ailə (1.715 nəfər), Türkiyədən isə 11 ailə (48 nəfər), yəni 377 ailə və ya 1.763 erməni köçürülmüşdü. Hətta həmin erməniləri də nəzərə alsaq, İrəvan şəhərində yaşayan 11.463 nəfər ümumi əhalinin [83, 545-546] 64 faizi türklər idi.

300-dən çox sənətkar erməni ailəsi İrəvanda yerli şəhərlilərin (Azərbaycan türklərinin) evlərində yerləşdirilmişdi [34, 143].

1834-cü ilin kameral təsvirinə görə İrəvan şəhəri və ətrafında yaşayan 2.750 ailənin 65,7% -i tatar (türk), 32,6%-i erməni, 1,4%-i boşa (qaraçı) olmuşdur [16, 24].

19-cu əsrin 90-cı illərində İrəvan şəhərində 7.228 nəfər tatar (türk), 313 rus, 7.142 erməni və digər millətlərdən 55 nəfər yaşayırdı [35, 94; 36, 50].

İşğaldan sonrakı 160 il ərzində sonuncu Azərbaycan türkünün İrəvan şəhərindən çıxarılmasının dinamikasını aşağıdakı cədvəl əyani şəkildə əks etdirir.

**İrəvan şəhərinin əhalisi**
**(1828-1988-ci illər)**

| İllər | Cəmi əhali | Türk-müsəlman | Faizlə |
|---|---|---|---|
| 1828-ci ilə qədər | | | ± 80,0 |
| 1828 | 9.700 | ≥ 7.331 | 75,6 |
| 1831 | 11.463 | 7.331 | 63,9 |
| 1865 | 12.670 | 6.900 | 54,5 |
| 1886 | 14.738 | 7.238 | 49.1 |
| 1897 | 29.033 | 12.539 | 43,1 |
| 1905 | 28.533 | 12.393 | 45,0 |
| 1914 | 51.286 | 12.557 | 24,4 |
| 1922 | ±46.000 | 5.124 | 11,1 |
| 1926 | ±65.000 | 4.968 | 7,6 |
| 1931 | ±90.000 | 5.620 | 6,2 |
| 1939 | ± 200.000 | 6.569 | 3,3 |
| 1959 | ±500.000 | 3.414 | 0,7 |
| 1979 | ±1.000.000 | 2.341 | 0,2 |
| 1988 | | 0,0 | 0,0 |

[37, 22-29; 17, 167].

1831-ci ildə İrəvan şəhərində yaşayan müsəlmanlar arasında hər 100 kişiyə 95 qadın düşürdü və qadınların payının artmasını müharibədə ölənlərin əsasən kişilər olması ilə bağlamalıyıq. Bütün İrəvan əyalətində isə 1.344 tərəkəmə (elat) ailəni nəzərə almasaq, 9.196 müsəlman ailəsi, 26.625 kişi, 23.250 qadın olmaqla cəmi 49.875 nəfər müsəlman yaşayırdı və hər 100 kişiyə 87 qadın düşürdü. Tərəkəmələrlə birlikdə isə İrəvan əyalətində 10.540 müsəlman ailəsi, 30.510 kişi, 26.884 qadın, cəmi 57.365 nəfər müsəlman yaşayırdı və hər 100 kişiyə 88 qadın düşürdü.

Şəhərdə 1.807 Azərbaycan türk ailəsinin yaşadığı qeyd edilsə də, böyük ailələrin tərkibindəki başqa ailələri də nəzərə alsaq, bu sayı 2.060 ailə hesab etməliyik (Şəhər hissəsində 107, Təpəbaşı hissəsində 76, Dəmirbulaq hissəsində 70, cəmi 253 əlavə ailəni nəzərə almaqla).

Bu kameral siyahılarda bütün digər məlumatlarla yanaşı, fiziki cəhətdən qüsuru olanların həmin qüsuru da göstərilmişdir. Burada kor, kar, lal, şikəst, ağıldan kəm şəxslərlə yanaşı, çox nadir hallarda rast gəlinən ***hermofrodit***-iki cinsli (1 nəfər) və ***albinos*** (1 nəfər) olan xəstələr də aşkar edilərək qeyd edilmişdir.

İrəvan şəhəri üzrə 1831-ci ildə tərtib edilmiş kameral siyahıların mahallar üzrə tərtib edilən kameral siyahılardan bir fərqli və üstün cəhəti vardır: burada qadınların da adı qeyd edilmişdir və bu məlumat tədqiqat üçün qiymətli material verir. Biz onların hansı yaşda ailə qurduqlarını, təxminən neçə il yaşadıqlarını, həm də həmin dövrdə İrəvan şəhərində hansı qadın adlarının daha çox yayıldığını öyrənə bilirik.

Kameral təsvirlərdə İrəvan şəhərinin türk-müsəlman əhalisinin çox mömin və dindar olduğunu da izləmək mümkündür. Belə ki, qeydə alınan sakinlər arasında *hacı, kərbəlayı* və *məşədi* titullarının üstünlük təşkil etdiyini, həmçinin həyatda olmayan, amma kiminsə atası olaraq bu titullarla adları siyahıda qeydə alınanları da nəzərə alsaq, az qala hər ailədə belələrinin adına rast gəlmək mümkündür.

İrəvan şəhərinin və ümumən İrəvan xanlığının siyasi elitası xüsusi araşdırma tələb etsə də, burada bu məsələyə qısa da olsa, toxunmaq lazım gəlir.

İrəvan şəhəri üzrə təqdim və tədqiq olunan hazırkı 3 kameral təsvir sənədlərində şeyxülislam, qazı və 6 nəfər axunddan başqa 4 xanın, 51 bəyin və 19 mirzənin, 50 mollanın (*şəriət məhkəməsinin üzvləri olan Şeyxülislam, qazı və 6 nəfər axund da buraya aiddir*) 39 seyidin və 3 dərvişin qeydiyyatı aparılmışdır (imtiyazlı təbəqə olan bu adamlar 118 ailə idi). Bu barədə geniş danışmağa imkan olmasa da, burada ən ali titul sayılan

xanlar haqqında məlumat verməyə ehtiyac vardır. 1831-ci ildə İrəvan şəhərində qeydiyyata alınan, başqa sözlə, Rusiya təbəəliyini qəbul edən həmin 4 xan bunlar idi:

1. Paşa xan Hüseyn xan oğlu 27 yaş (Şəhər hissəsi).
2. Mayor Əhməd xan Kərim bəy oğlu 37 yaş (Şəhər hissəsi).
3. Həsən xan Məhəmməd xan oğlu 38 yaş (Şəhər hissəsi).
4. Kapitan Məmmədqulu xan Hüseynqulu xan oğlu 50 yaş (Təpəbaşı hissəsi) [64, 48].

Bu xanlar nəinki Rusiya təbəəliyini qəbul etmiş, hətta onlardan ikisi – Əhməd xan və Məmmədqulu xan onlarla sıx əməkdaşlıq etmiş, çox güman ki, 1828-1829-cu illər Rusiya-Türkiya müharibəsində rusların tərəfində iştirak edərək rus qoşunlarının hərbi rütbəsini almışlar.

Öz vətəninə, dövlətinə sadiq qalaraq vuruşan və 1827-ci il oktyabrın 1-də İrəvan qalasının süqutu zamanı əsir düşən 7 xan:

1. Həsən xan Qacar. İrəvan xanlığının Ali Baş komandanı, Sərdar Hüseynqulu xanın qardaşı.
2. Fətəli xan, onun nəvəsi. Bir müddət Sərdarabad qalasının müdafiəsinə başçılıq etmişdir.
3. Sübhanqulu xan. İrəvan qalasının komendantı (qalabəyi).
4. Qasım xan. Xüsusi qoşun hissəsinin komandiri.
5. Mərəndli Cəfərqulu xan.
6. Təbrizli Əlimərdan xan.
7. Əhərli Arslan xan [50, 564-566; 10, 349-350].

Xanlığın işğalından sonra İrana gedən xanların adlarını onların rus idarəçiləri tərəfindən müsadirə edilmiş mülklərinin siyahısından öyrənə bilərik:

1. İrəvan Sərdarı Hüseynqulu xan Qacar.
2. Sərtib xan.
3. Sübhan xan.
4. Ailəsi qırılan Baba xan.
5. Ölən Məşədi Məhəmməd xan.
6. Qafar xan.

7. Nağı xan. Göyçə qarapapaqlılarından ibarət süvari qoşunun komandiri [65].

İşğaldan sonra müsadirə edilərək iltizama verilən bağların siyahısından aşağıdakı xanların adları məlum olur:

1. Əli xan
2. Xudadat xan
3. Cəfər xan
4. Hacı Mahmud xan [65].

Bu sıraya sözsüz ki, İrəvan xanlığının idarəçiliyində mühüm rol oynayan aşağıdakı şəxsləri də əlavə etməliyik:

1. Vəzir və maliyyə naziri Mirzə İsmayıl.
2. Hacı Bəyim. Sərdarın arvadı, Abbas Mirzə tərəfindən vəzifəsindən kənarlaşdırılan əvvəlki İrəvan xanı Məhəmməd xanın qızı.
3. Darğa Ağa Rəfi.
4. Kələntər Hacı Nəzərəli.

Divan üzvləri olan digər bəylər və mirzələr də daxil olmaqla, yuxarıdakı şəxslər işğal ərəfəsində İrəvan xanlığının və ***İrəvan şəhərinin siyasi elitasını*** təşkil edirdi.

Buraya Dərəçiçək qarapapaqlarının süvari dəstəsinin komandiri, ruslarla əməkdaşlığı qəbul etmiş və 1831-ci ildə Dərəçiçək mahalında qeydə alınmış Mərdan xanla gürcü şahzadəsi, çar II İraklinin oğlu Aleksandrı da əlavə etməliyik. Mərdan xandan fərqli olaraq, şahzadə Aleksandr ruslarla işbirliyinə getməmiş, Gürcüstanın işğalından sonra da İran Qacarlar dövlətinə sədaqətini saxlamış, İrəvan qalasının alınmasından sonra İrana getmişdir. İşğaldan qabaq Dərələyəz mahalı ona arpalıq-tiyul verilmişdi. Şahzadənin ailəsi İrəvanın süqutundan sonra Təpəbaşı hissəsinin kameral təsvirində qeydə alınmışdır:

“439.710. Poruçik Məlik Saak Məlik Abramoviç Ağamalov 60 yaş; arvadı Takui 35 yaş; oğlu Qəhrəman 10 yaş; iki qızı var: Saloma 12 yaş;

Gürcü şahzadəsi Aleksandrın arvadı Maya xanım 25 yaş; onun oğlu İrakli 3 yaş” [64].

Kürəkənindən fərqli olaraq ruslara xidmət edərək poruçik rütbəsi alan Məlik Saak hələ Sərdarın vaxtından erməni məhəlləsinin məliki idi [83, 968].

Kameral siyahılardakı şəxs adlarını tədqiq edərək onları aşağıdakı qruplara bölmək olar:

***Birinci qrupa*** başqa mahallarda da ən çox rast gəlinən Məhəmməd, Əli, Həsən, Hüseyn, İsmayıl, İbrahim kimi adlarla yanaşı, onlardan yaranmış mürəkkəb adları aid etmək olar: Məmmədhəsən, Məmmədhüseyn, Məmmədəli, Əliməmməd, Hüseynəli, Həsənəli, Əliqulu, Abbasəli, Məmmədqulu və s.

***İkinci qrupa*** aid edilən adlara isə aşağıdakılar aid edilə bilər: Abbas, Əhməd, Ələkbər, Ələsgər, Mehdi, Rəsul, Qasım, Kərim, Rəhim, Baba, Bağır, Məmmədbağır, Cəfər, Məhərrəm, Mustafa, Zeynal, Zeynalabdin, Heydər, Novruz, Novruzəli, Tanrıverdi, Allahverdi, Vəli, Musa, Oruc, Haxverdi, Xudaverdi, Sadıq, Kazım, Xəlil, Süleyman, Tağı, Nağı, və s.

***Üçüncü qrupa*** daha az rast gəlinən adları aid edə bilərik: Fətəli, Əsgər, Şahbaz, Aşır, Rüstəm, Salman, Nəbi, Mahmud, Ramazan, Səfər, İsgəndər, Fərəc, Fərrux, Muxtar, Zülfüqar, Məmmədxan, Möhsün, Saleh, Xudadat və s.

***Dördüncü qrupa*** isə nadir rast gəlinən adları misal göstərmək olar: Şaban, Şahqulu, Daşdəmir, Abdı, Məmili, Paşa, Burhan, Balı, Şəfi, Səfi, Qədim, Qəni, Qərib, Zaman, Dünyamalı, Qara, Qoca, Dadaş və s.

Göründüyü kimi, dördüncü qrupa daxil edilən adlar islam dini ilə bağlı olmayıb, daha çox türk mənşəli adlardır.

Adqoyma ənənəsindən danışarkən, ilk növbədə Məhəmməd, Əli, Həsən, Hüseyn, İsmayıl, İbrahim kimi dini mənşəli adlara üstünlük verildiyini qeyd etməliyik. İkinci sırada ailə başçısının atasının adı gəlirdi, atası artıq vəfat etmişdisə, adətən onun adını oğluna qoyurdu. Əgər uşaq hələ ana bətnində ikən atası ölmüşdüsə, bir çox hallarda uşağa öz atasının adını qoyurdular, məsələn, Mehdi Mehdi oğlu və s. kimi. Qərib adı isə əksər

hallarda ailənin köçdüyü yeni yaşayış məskənində qəribçilik hiss etdiyinə işarə olaraq qoyulurdu.

İrəvan şəhərindəki qadın adlarının tədqiqi xüsusi maraq doğurur. Onları bir neçə qrupa ayırmaq olar.

***Birinci qrupa*** ən geniş yayılmış adları daxil edə bilərik. Maraqlıdır ki, buraya dini xarakterli və ərəb-fars mənşəli adlarla yanaşı, türk mənşəli adlar da daxildir:

Fatma, Fatmanisə, Zeynəb, Səkinə, Şərəbanu, Xeyrənisə, Xədicə, Sadat, Sona, Nabat, Nazəni, Ummu, Xatun, Sayalı, Şərəf, Şirin, Çiçək, Seyran, Pəri, Şərəf, Mələk, Həlimə, Anaxanım, Telli, Gülsüm, Canı, Tükəzban, Püstə, İzzət, Gövhər, və s.

***İkinci qrup*** adlar daha az rast gəlinən Nazlı, Bəyim, Nisə, Nisəxanım, Nənəxanım, Qızxanım, Həcər, Zöhrə, Yetər, Zübeydə, Gözəl və s. kimi adlardır.

***Üçüncü qrup*** adlara daha az rast gəlinsə də, indinin özündə də onlara tez-tez rast gəlmək olar:

Bahar, Mina, Qərənfil, Ceyran, Sara, Qədimə, Banu, Əsli, Əzizə, Həvva, Əminə, Müşərrəf, Asya, Nərgiz, Leyla, Yasəmən, Dünya, Buta, Mirvari, Cığalı və s.

Adların qrammatik formasına gəlincə, ən çox işlənən sözdüzəldici tərkiblərə – nisə, – bəyim, – banu, – xanım və s. ilə düzəldilən adları misal göstərmək olar:

Nisə, Fatmanisə, Xeyrənisə, Ummunisə, Fağırnisə, Bədirnisə, Gülnisə, Hürünisə, Pərinisə, Səlbinisə, Tacnisə, Rövzənisə, Mələknisə, Şərəfnisə, Bağırnisə, Banu, Şərəbanu, Zöhrəbanu, Ağcabanu, Mahbanu, Seyidəbanu, Səfiyəbanu, Hədiyəbanu, Cahanbanu, Zeynəbbanu, Aydabanu, Mehribanu, Xanım, Anaxanım, Nisəxanım, Nənəxanım, Bibixanım, Qızxanım, Kiçikxanım, Xırdaxanım, Balaxanım, Bacıxanım, Şirinxanım, Bəyim, Asyabəyim, Sədabəyim, Sonabəyim, Tellibəyim, Mahbəyim, Sarabəyim və s.

Şəxs adlarından bəhs edərkən, tərcümə zamanı qarşıya çıxan bəzi çətinlikləri qeyd etməliyik. Bu çətinliklərdən biri hazırda rast gəlmədiyimiz şəxs adlarının necə oxunması, ikinci çətin-

lik isə Məhəmməd və Əli adlarını bildirən, rusca «Магмед», və «Али» yazılan adların Azərbaycan dilində Məmməd, Məhəmməd, Əli və Alı variantlarından hansının seçilməsi ilə bağlı olmuşdur. Ona görə də tərcümə zamanı həmin adların ərəb dilindəki düzgün variantı olan "Məhəmməd" və "Əli" adlarına, mürəkkəb adların tərkibində isə adətən Məmmədə üstünlük verilmişdir, məsələn, Məmmədəli, Məmmədhüseyn, Məmmədbağır, Məmmədqulu və s. Amma Əli və Məhəmməd adlarından yaranan mürəkkəb adı necə verməli? Məsələn, Əliməmməd kimi Alməmməd, Məmmədəli kimi Məmmədalı da işlədilirdi. Qeyd edək ki, Əli adına üstünlük verilməsində İrəvan əhlisinin şiə məzhəbinə aid olması nəzərə alınmışdır, çünki Alı adını adətən sünni məzhəbinə mənsub olanlar qoyurdular və indinin özündə də belədir.

İrəvan sakinlərinin yaş məsələsinə toxunarkən, qeyd etmək lazım gəlir ki, onlar o qədər də uzun ömür sürmürdülər, yəni nadir hallarda 70 və daha artıq yaşında olanlara rast gəldiyimizə görə, düşünə bilərik ki, həmin əhalinin yuxarı yaş həddi 60 olmuşdur. Bu rəqəm qadınlarda daha aşağı, təxminəm 50-55 idi.

Diqqəti çəkən məsələlərdən biri sakinlər arasında dul qadınların çoxluğudur və yəqin ki, bunu onların ərlərinin müharibədə həlak olması ilə izah etməliyik. Erkən evlilik də bir tərəfdən bununla, digər tərəfdən də ənənə ilə izah edilə bilər. Burada qızların da, oğlanların da 15 yaşında ailə qurması adi hal almışdı, hətta 12 yaşında ərli qadınlara da rast gəlinir.

Nəhayət, İrəvan şəhərinin müxtəlif hissələrinin adları haqqında zəruri izahat verməyi gərəkli hesab edirik. Məsələ burasındadır ki, bu mövzuda yazan müxtəlif müəlliflər İrəvan şəhərinin 4 məhəllədən – Qala, Şəhər (Əski şəhər), Təpəbaşı və Dəmirbulaq məhəllələrindən ibarət olduğunu yazmaqla yanaşı, bu məhəllələrdə də müxtəlif məhəllələrin olduğunu qeyd edirlər və anlaşılmazlıq yaranır. Halbuki, kameral təsvirlərin tərtib edildiyi rus dilində Qala, Şəhər, Təpəbaşı və Dəmirbulaq "*часть*" kimi yazılmışdır və onları "*hissə*" kimi təqdim etmək daha düzgündür: İrəvan şəhərininn Şəhər hissəsi, Təpəbaşı hissəsi, Dəmirbulaq hissəsi. Bundan sonra isə həmin hissələrdə olan məhəllələr-

dən danışmaq olar, məsələn, Abihəyat məhəlləsi, Xosrov məhəlləsi, Dərəkənd məhəlləsi, Dəlmə məhəlləsi, Zəvzikar məhəlləsi, Abbasdərə məhəlləsi, Köşəkli məhəlləsi və s [63; 64; 65].

İrəvan şəhərinə aid 3 kameral təsvir şəhərin hissələri üzrə tərtib edilmişdir.

## *İrəvan əyalətində işlədilən çəki, ölçü, pul vahidləri və qiymətlər*

Kameral siyahıların tərtib edildiyi dövrdə İrəvan əyalətində işlədilən çəki, ölçü, uzunluq və pul vahidləri də İ.Şopen tərəfindən ətraflı təsvir edilmişdir.

İrəvan əyalətində ən ağır çəki vahidi olaraq xalvar işlədilirdi. İrəvan və Naxçıvan xalvarı bir-birindən fərqlənirdi. Brokhauz və Yefronun Ensiklopediyasına görə İrəvan xalvarı 30 puda bərabər idi. İ.Şopen isə onu 27 pud, 32 funt, 12 zolotnikə bərabər sayır. 1 pudun 16,38 kq, 1 rus funtunun 1/40 pud və 96 zolotnikə bərabər olduğunu nəzərə alsaq, 1 xalvar təxminən 455 kq-a bərabər olur.

1 xalvarın 10 taçkirə (ona səmər də deyirdilər), 1 taçkirin isə 10 batmana bərabər olduğunu nəzərə alsaq, taçkirin təxminən 45,5 kq, İrəvan batmanının isə 4,55 kq olduğu anlaşılır. Naxçıvan və Təbriz batmanı ayrı çəkidə idi.

Batmanla yanaşı, məişətdə ən çox işlənən çəki vahidi girvənkə 1 rus funtuna (409 qr) yaxın olmaqla, təxminən 400 qr idi.

Məsafə ölçüsü kimi Rusiya imperiyasında verstdən istifadə edilirdi. 1 verst 1,0668 km-ə bərabər idi. Şərq ölkələrində məsafəni təyin etmək üçün ağacdan istifadə edilirdi. Qədim zamanlardan hər 1 saatlıq yolun tamamında ağac dirək basdırarmışlar və "ağac" termini də oradan yaranmışdır. 1 ağac təxminən 7 verstə bərabərdir. Həmin hesabla ağac 7,5 km-ə yaxındır.

Digər uzunluq vahidlərindən arşını qeyd etməliyik. Arşın 0,71 metrə, sajen isə 2,13 metrə bərabər idi, başqa sözlə, 1 sajen 3 arşın idi.

Ərazi vahidi kimi də, xalvar, səmər və batmandan istifadə edilirdi. “1 xalvar ərazi” dedikdə 1 xalvar taxıl toxumunun səpildiyi ərazi nəzərdə tutulurdu. Amma məhsuldarlığına görə müxtəlif torpaqlara aydındır ki, müxtəlif miqdarda toxum səpildiyinə görə, ərazi vahidi kimi istifadə olunan xalvar, batman və taçkir (səmər) yayğın termin idi.

1 xalvar ərazinin 4 əkin gününə, 1 əkin gününün isə 8 min kv. arşına bərabər olması [66] məlumatından istifadə etsək, 1 əkin günü ərazinin 0,4 ha-ya, 1 xalvar ərazinin isə 1,6 ha-ya bərabər olduğunu hesablaya bilərik.

İrəvan xanlığının işğalı ərəfəsində burada hər 3 qonşu dövlətin – Qacarlar İranı, Osmanlı imperiyası və Rusiyanın pulu işləyirdi və onların arasında mübadilə vardı. Mübadilə ilə məşğul olan və sərraf adlanan şəxslər müxtəlif mübadilə sxemlərindən istifadə edərək varlanırdılar. Əyalətdəki ən bahalı valyuta Qacarlar dövlətinin pul vahidi olan qızıl tümən idi və 1 tümən 4 gümüş rus rubluna bərabər idi. 10 sahibqıran 1 tümənə, 1 sahibqıran 40 gümüş qəpiyə bərabər idi. 2 pənahabad 1 sahibqırana, 1 pənahabad 10 şahıya, 1 şahı 2 gümüş rus qəpiyinə və ya 50 dinara ekvivalent idi. Ən ucuz pul isə misdən kəsilən və “qarapul” adlanan sikkə idi.

Osmanlı pul vahidlərindən ən bahalısı qızıl mahmudi idi və 1 mahmudi 1 qızıl tümənə və ya 4 gümüş rubla bərabər idi.

Nəhayət, qeyd etmək lazımdır ki, istər daşınan, istərsə də daşınmaz əmlakın miqdarı üçün ***“ağça”*** termininidən istifadə edilirdi. İstənilən mülk bütövlükdə 6 ağçadan ibarət idi, hər ağça isə 20 stilə bərabər idi, başqa sözlə, mülk 120 stil və ya 6 ağça götürülür və hər bir mülkiyyətçinin bu 120 stildən neçəsinə sahib olduğu nəzərdə tutulurdu.

İrəvan əyalətində əkilib-becərilən və təbii ki, əhalinin əsas ərzaq məhsulu olan taxıl bitkiləri haqqında da məlumat vermək lazım gəlir.

İrəvan əyalətində dənli bitkilərdən ən çox səpilən buğda idi. 15.000 xalvar buğda əkini ümumi əkinlərin 56 faizə yaxınını tutmaqla, ildə 75.000 xalvar məhsul verirdi. Buradan göründüyü kimi, 1 xalvar əkin sahəsindən 5 xalvar taxıl əldə edilmişdi, başqa sözlə, toxum kimi səpilən hər xalvar 5 xalvar məhsul vermişdi. Çar Rusiyasındakı həmin rəqəmləri ifadə etmək üçün ***"sam"*** deyilən terminindən istifadə edilirdi və burada buğdanın məhsuldarlığı "sam 5" olmuşdur. 5.000 xalvar arpa əkininin məhsuldarlığı "sam 6" olduğuna görə 30.000 xalvar arpa, 1.000 xalvar darı əkinindən 10.000 xalvar darı, 2.500 xalvar çəltik əkinindən 40.000 xalvar çəltik və ümumilikdə İrəvan əyalətində 155.000 xalvar və ya 610.000 çetver taxıl toplanmışdı. Əyalətdə yaşayan əhalinin adambaşına istehlak etdiyi taxıl 3 çetver qəbul edilirdi ("çetver" rus dilindəki "четверть" sözündən götürülməklə "dörddə bir" mənasını verir, yəni xalvarın dörddə biri). 94.000 çetver isə toxumluq üçün saxlanmışdı. Bunların cəmi 586.000 çetver olmuş və 24.000 çetver artıq qalmışdır. Ona görə də deyə bilərik ki, İrəvan əyaləti sakinlərini ərzaqla təmin etməyə yararlı idi [83, 745].

Bu bitkilərdən bəzilərinin qiymətləri isə belə idi: 1 xalvar əla növ buğda 12 rubl, aşağı növlü buğda 6 rubl, arpa müvafiq olaraq 7 və 3,5 rubl, darı 6 və 3 rubl, çəltik 12 və 8 rubl, pambıq 205 və 120 rubl, tütün 160 və 50 rubl və s [83, 745]

Heyvandarlıq məhsullarından bəzilərinin qiyməti isə belə idi: 1 batman yağ 1-1,6 rubl, 1 batman yun 0,6-1 rubl, 1 batman pendir 30-40 gümüş qəpik [83, 795]

Ev heyvanlarının qiyməti: sağmal inək 6-12 rubl, öküz 10-20 rubl, qoyun 2-3 rubl, at 15-40 rubl və s. [83, 795-796].

***"İrəvan əyalətinin Kameral təsviri" çoxcildliyi xalqımızın tarixi yaddaşı üçün nəzərdə tutulmaqla, ulu əcdadlarımızın həmin torpaqlardakı izlərinin pasportlaşdırılması deməkdir.***

***1831-ci ildə İnzibati İdarənin müşaviri İ.Şopenin rəhbərliyi ilə İrəvan əyalətinin hər bir mahalı üzrə 1, İrəvan şəhəri***

***üzrə 3, İrəvan əyalətində yaşayan tərəkəmə əhali üçün 1, cəmi 19 kameral təsvir tərtib edilmişdir.*** * ***Bu kameral təsvirlər "İrəvan əyalətinin kameral təsviri" adı altında 5 cilddə çapa hazırlanır. I cildə İrəvan şəhəri üzrə tərtib edilən 3 kameral təsvir daxildir. Digər kameral təsvirlərin (müharibələr nəticəsində əhalisi pərən-pərən düşdüyündən, 1831-ci ildə müsəlmanların yaşamadığı Abaran mahalı istisna olmaqla) 4 cilddə nəşr edilməsi planlaşdırılır.***

***Müəllif kitabın nəşrə hazırlanmasında dəyərli məsləhətləri ilə göstərdikləri köməyə görə elmi redaktora, məsul redaktora və elmi rəyçilərə təşəkkürünü bildirir.***

* İrəvan şəhəri üzrə tərtib edilən hər 3 kameral təsvir qeydiyyatçı katib Arxip Rıjkov tərəfindən yazılmışdır.

# Erməni vilayəti, İrəvan əyaləti, İrəvan şəhərinin kameral təsviri. Şəhər hissəsi. 1831-ci il.

## İRƏVAN ŞƏHƏRİ

### § 1. Yerləşdiyi yer (v. 2)

Əcəmi dilində **“Rəvan”**, ermənicə **“Erevan”** adlanan və 1827-ci ildə* İranla bağlanmış Türkmənçay sülh traktatı ilə Rusiya dövlətinə birləşdirilən bu şəhər 40 və 41-ci dərəcələr arasında şimal en, 62 və 63-cü dərəcələr arasında uzunluq dairəsində yerləşməklə, Araz çayından şimala 5 saatlıq, Eçmiədzin monastırından şərqə doğru 3 saatlıq məsafədə olmaqla, Gümrüdən keçən qış yolu ilə Tiflisdən 321 verst, Abarandan keçən yay yolu ilə 271 verst məsafədə yerləşir.

Yerləşdiyi yer belədir: təpəlik ərazilər baş Pəmbək dağ silsiləsindən cənuba doğru tədricən aşağı enir. Qırxbulaq çayının Zəngi çayına töküldüyü yerdən bir qədər yuxarıda təpələr qurtarır, lakin şərq və qərb tərəfdən Araza doğru iki qanad enir, Araz düzənliyində tədricən itib gedir və amfiteatr əmələ gətirir. İrəvan şəhəri şimal tərəfi sərt və həddindən artıq daşlıq olan bu ərazidə yerləşir.

### § 2. Sərhədləri (v. 3-4)

İrəvan şəhəri qərbdə məhsulsuz Yeğvard çölü ilə həmsərhəddir. Şimalda böyük Eçmiədzin yoluna qədər xatırlatdığımız sərt və daşlı çıxıntı ilə (onun yuxarısından Qırxbulaq mahalı başlayır), şərqdə Çölməkçi kəndinin bağları və ondan cənuba

* Qeydiyyatçı katib səhv edib, Türkmənçay müqaviləsi 1828-ci il fevralın 10-da bağlanmışdır. İ.Şopenin özü isə “Erməni vilayətinin Rusiya imperiyasına birləşdirildiyi dövrdəki vəziyyətinə dair tarixi abidə” (S.Pb, 1852) kitabında müqavilənin tarixini 12 fevral 1828-ci il kimi göstərib (səh.345)

doğru uzanan dağların daşlı qanadı, nəhayət, cənubda Zəngibasar mahalı ilə həmsərhəddir.

## § 3. Tutduğu ərazi (v. 4-5)

Bu şəhər öz böyük bağları ilə kifayət qədər geniş əraziləri tutur və həmin ərazini gözlə təyin etmək olur. Zəngibasar körpüsündən Dəmirbulaq ətrafındakı ərazilər, Abbasdərə, Köşəkli, Abihəyat, Dərəbağ, Qızılqala məhəllələri, kəndlərdən Zənginin sağ tərəfi ilə Dəlmə və Noraguğ ətrafları və geriyə 20 verstdən az deyil. Bu ərazilərin 9/10 hissəsini bağlar tutur.

## § 4. Şəhərin hissələri və məhəllələri (v. 5-7)

İrəvan şəhəri aşağıdakı hissələrdən ibarətdir:

1. Şəhər hissəsi
2. Təpəbaşı hissəsi
3. Dəmirbulaq hissəsi

Ən böyük olan Şəhər hissəsi İrəvanın şimal-şərq ərazisini əhatə edir; Təpəbaşı hissəsi qərb, Dəmirbulaq hissəsi isə cənub-şərq hissəsini tutur.

Bu hissələrə öz xüsusi adı olan aşağıdakı əlavə məhəllələr də daxildir:

**Şəhər hissəsinə aid olanlar:**

1) Çölməkçi kəndindən aşağıda yerləşən Abbasdərə məhəlləsi;
2) Kənəkir yolundan sağ tərəfdə yerləşən Köşəkli məhəlləsi;

**Təpəbaşı hissəsinə aid olanlar:**

1) Kənəkir yolundan solda yerləşən Abihəyat məhəlləsi;
2) Zəngi çayının solunda, Kənəkir kəndindən aşağıda yerləşən Qızılqala məhəlləsi;
3) Zənginin həmin tərəfində, Qızılqala məhəlləsindən aşağıda yerləşən Dərəbağ məhəlləsi;
4) Körpüdən yuxarıda, həmin yerdə yerləşən Dərəkənd məhəlləsi;

5) Zənginin o biri tərəfində, Dərəbağla üz-üzə yerləşən Dəlmə məhəlləsi;

6) Noraguğ məhəlləsi;

Bütün bu məhəllələr bağlardan ibarətdir və qış vaxtı buralarda heç kim yaşamır.

**Dəmirbulaq hissəsinə aid olanlar:**

1) Dəmirbulaq hissəsinin cənub tərəfində, çox mənzərəli kurqan şəklində olan Xosrovabad məhəlləsi;

2) Qala ilə Xosrovabad məhəllələrinin arasındakı boş sahəni tutan Zəvzikar məhəlləsi.

## § 5. Suları (v. 8-13)

***a) Çayları:***

İrəvanda su boldur. Şəhərin qərb hissəsindən axan Zəngi çayı Qızılqala, Dərəbağ, Dərəkənd məhəllələrini və İrəvan qalasını su ilə təmin edir, lakin dərin, sərt və daşlı sahilləri olduğuna görə ondan gözlənilən xeyri vermir.

Qırxbulaq mahalından mənbəyini götürən eyni adlı çay Şəhər hissəsini, Abbasdərə, Dəmirbulaq, Xosrovabad, Səvzikar məhəllələrini qidalandıraraq Zəngi çayından çəkilən Noraguğ arxına tökülür.

***b) Bulaqları***:

Ən yaxşı bulaqlar bunlardır: suyu təmiz və sağlam olan Dəmirbulaq daş borularla İrəvan qalasına axıdılır*. Bundan başqa Zəngi və Qırxbulaq çaylarının ətrafında xeyli bulaq var.

***c) Arxları:***

Əsas arxlar bunlardır:

**Zəngi çayından çəkilənlər:**

1) Sağ tərəfdəki Dəlmə arxı. Bu arx çox maraqlıdır. O Zəngi çayının Dərəbağı ilə üzbə-üz olan yerindən çəkilib, kifayət qədər hündür dağın altından keçərək 300 sajendən sonra dağın o biri

---

∗ Görünür, müəllif saxsı borunu daş boru hesab edir.

tərəfindən böyük bir bulaq kimi çıxır və bir hissəsi Dəlmə, digər hissəsi Noraguğ bağlarını suvarır, qalan hissəsi isə qərbə doğru axır və Eçmiədzin Monastrının torpaqlarına gedir.

**Sol tərəfdəki arxlar**

2) Abihəyat arxı. Bu arx bir vaxtlar çox böyük olub, çox bağları qidalandırıb və Qırxbulaq çayına tökülüb, onun suyunu iki dəfə artıraraq Çölməkçi dağlarından aşağıdakı əkinləri suvarırdı. Lakin indi bu arx xarab olub və suyu xeyli azalıb. Xeyli vəsait tələb etməsinə baxmayaraq, onun bərpası çox faydalı olardı.

3) Məmri arxı Təpəbaşı hissəsini və Şəhər hissəsinin bir neçə bağını suvarır, daş borularla Qalaya gedir və onu su ilə təchiz edir.

Zəngi çayından çəkilən digər arxlar o qədər də əhəmiyyətli deyil və adları da yoxdur.

**Qırxbulaq çayından çəkilən arxlar:**

Bu çaydan çəkilən çoxlu arxlar Dəmirbulaq hissəsini qidalandırır və onların xüsusi adları yoxdur.

Burada Çölməkçi arxından aşağıda yaradılmış süni su anbarı haqqında xüsusi danışmaq lazım gəlir. Qış və yaz aylarında su burada toplanır, yay vaxtı suvarmaq üçün istifadə olunur və əla pambıq və çəltik yetişdirilməsini təmin edir.

Bu su anbarını bərpa etmək çox faydalı ola bilərdi.

***d) Bataqlıqlar***

İrəvan qalası ilə Dəmirbulaq hissəsinin arasında bataqlıq var. Bu bataqlığı Dəmirbulaq və şəhərin müxtəlif yerlərindən çəkilmiş arxlar yaradır. O öz zərərli rütubəti ilə havanı çirkləndirir və xəstəliklərin yayılmasına səbəb olur. Əvvəlki hökumətin vaxtında burada söyüdlər əkilmişdi, indi hamısı kəsilib.

## § 6. İqlimi (v. 13-15)

İrəvan şəhərinin iqlimi çox qeyri-sağlam olduğuna görə burada müxtəlif səbəblərdən çoxlu ölüm halları baş verir. Onun səbəbləri aşağıdakılardır:

a) zəruri məişət əşyalarının qıtlığı;

b) evlərin pis tikilməsi;

c) ticarətçilərin ərzaq məhsullarının keyfiyyətinə fikir verməməsi;

d) nazik sısqa ilə evlərə axan suyun təmiz olmaması;

e) rusların həyat tərzinin dəyişməsi;

q) meyvənin və bəzən isti içkilərin həddən artıq istifadə edilməsi;

g) rusların bu cür iqlimə uyğun geyimlərinin çatışmaması.

Burada azacıq soyuq da ölüm gətirir, çünki təcrübə göstərir ki, yerli sakinlər kimi qalın və düyməli arxalıq geyməklə sağlamlığı qorumaq olar. İsti paltar almaq üçün az imkanı olan aşağı rütbəli şəxslər soyuqlamadan və özünü ərzaq və sudan gözləməyənlər ölürlər. Həm də təcrübə göstərir ki, istilər xəstəliklərin yaranmasına gözlənildiyindən az səbəb olur. Yerli adamların ilin bütün fəsillərində çuxa geyməsi də bunu sübut edir. Bataqlıqlardan yayılan üfunətli buxarlar da xəstəliklərin yayılmasına səbəb olur.

## § 7. Şəhərin xarici görünüşü (v. 15-20)

İrəvan ilk baxışdan yeknəsəq görünməklə ruh düşkünlüyü yaradır. Bütün Asiya şəhərlərində olduğu kimi burada da küçələr dar və əyri-üyrüdür. Bu küçələr iki cərgə alçaq, yaraşıqsız və çiy kərpiclə hörülmüş divarlardan əmələ gəlib, çox hissəsi isə çay daşı və kobud palçıqla hörülmüş həyət divarlarının arasında qalan hissədir. Bu yaraşıqsız divarlarda arabir möhkəm bağlanmış alçaq qapılara rast gəlinir. Əsas küçələrin ortası ilə su axır və küçənin hər iki tərəfindəki evlərin sahibləri köndələninə qoyulmuş borularla bu suyu öz həyətlərinə döndərərək bağ-bostanlarını suvarırlar. Bu su yolları yuyub aparır, yay vaxtı çuxur və palçıqlı yerlər əmələ gəlir, qış vaxtı isə küçələrdə donaraq onları çox vaxt keçilməz edir.

Həyətlərin içi daha xoşagələndir. İmkanlı adamlar evlərinə girəndə böyük bağın içindən keçirlər.Bağla evin arasına isə

səliqə-sahmanla daş döşənib, böyük tut və qoz ağaclarının kölgə saldığı həyətin ortasında daş hovuz var. Bu evlərin içərisi həyət tərəfə açılan pəncərələrlə işıqlandırılır. Bütün divarı tutan bu pəncərələr müxtəlif rəngli şüşələrdən yığılır. Onlar müxtəlif və gözəl şəbəkə əmələ gətirir. Bu cür otaqlar yay vaxtı gözəl olur, qışda isə orada adam yaşamır. Buraya onu da əlavə etmək lazımdır ki, ev o birilərdən nə qədər aralı və küçənin bağlı sonunda olsa o qədər bahalı hesab olunur.

İmkanlı ailələrin daxili otaqları çox səliqə-sahmanlıdır. Divarlar ağ və əla suvaqla suvanıb.* Demək lazımdır ki, suvaqçılar bu işdə çox bacarıqlıdır və paytaxtımızdakı sarayların ən dəbdəbəli otaqlarını bəzəyə bilərlər. Hər bir otaqda olduqca gözəl buxarı olsa da, istifadə etmirlər, çünki sakinlər əsasən manqalla qızınırlar.

Buralarda mebel məlum deyil, yer zəngin və böyük xalılarla döşənib. Divarlarda iki mərtəbəli taxçalar var-aşağı mərtəbədə sandıq və mücrü, yuxarı mərtəbədə isə gülab suyu doldurulmuş şüşə qab qoyurlar. Nadir hallarda arağa və çaxıra da təsadüf edilir. Bəzən oraya kitab, bəzi evlərdə qab-qacaq, meyvə, bəzən hansısa rəsm əsəri qoyurlar.

İçərisindən fərqli olaraq evlərin xarici görünüşü xoş təsir bağışlamır, yəqin bunu ona görə edirlər ki, başqaları onu varlı hesab etməsin.

Hazırkı mənzillərin təsviri sakinlərin öz evlərinin içərisinə də çölü qədər laqeyd olduğunu göstərir. Mənzil mükəlləfiyyəti təhlükə doğurur, sakinlər bilirlər ki, əgər evi yaxşı bəzədilsə, post üçün evini əlindən ala bilərlər.

Lakin İrəvan evlərinin qəmgin görünüşü gözəl bağları ilə bir qədər yaraşığa minir. Burada təbiət öz gözəlliklərini tam nümayiş etdirir.

* Görünür, söhbət gəc suvağından gedir.

## § 8. Əhalisi (v. 20)

***(Cədvəllər kameral siyahının sonuncu, 318-ci səhifəsində verilib-N.Ə.)***

İrəvan şəhərinin əhalisi aşağıdakı kimidir:

***Tatarlar:***

**Şəhər hissəsi**

802 ailə, 1.627 kişi, 1.527 qadın, cəmi 3.199 nəfər;

**Təpəbaşı hissəsi**

594 ailə, 1.333 kişi, 1.264 qadın, cəmi 2.537 nəfər;

**Dəmirbulaq hissəsi**

411 ailə, 789 kişi, 806 qadın, cəmi 1.595 nəfər.

***Cəmi 1.807 ailə, 3.749 kişi, 3.582 qadın, 7.331 nəfər.***

***Yerli ermənilər:***

**Şəhər hissəsi**

244 ailə, 530 kişi, 468 qadın, cəmi 998 nəfər;

**Təpəbaşı hissəsi**

277 ailə, 589 kişi, 587 qadın, cəmi 1.176 nəfər.

***Cəmi 521 ailə, 1.119 kişi, 1.055 qadın, 2.174 nəfər.***

***Boşalar:***

**Təpəbaşı hissəsi**

46 ailə, 101 kişi, 94 qadın, cəmi 195 nəfər;

***İrandan köçürülən ermənilər:***

**Şəhər hissəsi**

231 ailə, 598 kişi, 513 qadın, cəmi 1.111 nəfər;

**Təpəbaşı hissəsi**

87 ailə, 187 kişi, 187 qadın, cəmi 374 nəfər;

**Dəmirbulaq hissəsi**

48 ailə, 118 kişi, 112 qadın, cəmi 230 nəfər;

***Cəmi 366 ailə, 903 kişi, 812 qadın, 1.715 nəfər;***

***Türkiyədən köçürülən ermənilər:***

**Şəhər hissəsi**

8 ailə, 14 kişi, 16 qadın, cəmi 30 nəfər;

**Təpəbaşı hissəsi**

3 ailə, 11 kişi, 7 qadın, cəmi 18 nəfər;

***Cəmi 11 ailə, 25 kişi, 23 qadın, 48 nəfər.***

**Şəhər hissəsindəki bütün əhali**

1.285 ailə, 2.769 kişi, 2.569 qadın, cəmi 5.398 nəfər;

**Təpəbaşı hissəsindəki bütün əhali**

1.007 ailə, 2.221 kişi, 2.079 qadın, cəmi 4.300 nəfər;

**Dəmirbulaq hissəsindəki bütün əhali**

459 ailə, 907 kişi, 918 qadın, cəmi 1.825 nəfər;

***Bütün İrəvan şəhəri üzrə əhali:***

***Cəmi 2.751 ailə, 5.897 kişi, 5.566 qadın, 11.463 nəfər.***

Sərdarın idarəsi altında bu hissələrin əhalisi təqribən bərabər idilər. Dəmirbulaq hissəsi müharibədən daha artıq ziyan çəkib. Qala isə müqayisəolunmaz dərəcədə ziyan çəkib. Ona görə də şəhərin hissələri arasında yenidən bölgü aparılmalıdır.

***İrəvan şəhərinin imtiyazlı əhalisi***

**Şəhər hissəsi**

**Tatarlarda**

3 xan ailəsi, 18 kişi, 17 qadın, cəmi 35 nəfər
25 bəy ailəsi, 78 kişi, 63 qadın, cəmi 141 nəfər
12 mirzə ailəsi, 30 kişi, 24 qadın, cəmi 54 nəfər
23 molla ailəsi, 99 kişi, 87 qadın, cəmi 186 nəfər
18 seyid ailəsi, 49 kişi, 52 qadın, cəmi 101 nəfər

**Ermənilərdə**

2 bəy ailəsi, 4 kişi, 3 qadın, cəmi 7 nəfər
1 mirzə ailəsi, 1 kişi, 3 qadın, cəmi 4 nəfər
5 ruhani ailəsi, 23 kişi, 12 qadın, cəmi 35 nəfər.

***Cəmi 89 ailə, 302 kişi, 261 qadın, 563 nəfər.***

**Təpəbaşı hissəsi**

**Tatarlarda**

1 xan ailəsi, 4 kişi, 2 qadın, cəmi 6 nəfər
12 bəy ailəsi, 43 kişi, 28 qadın, cəmi 71 nəfər
6 mirzə ailəsi, 33 kişi, 16 qadın, cəmi 49 nəfər
20 molla ailəsi, 69 kişi, 48 qadın, cəmi 117 nəfər
10 seyid ailəsi, 21 kişi, 25 qadın, cəmi 46 nəfər.

**Ermənilərdə**

3 məlik ailəsi, 13 kişi, 13 qadın, cəmi 26 nəfər
8 ruhani ailəsi, 32 kişi, 23 qadın, cəmi 55 nəfər

***Cəmi 63 ailə, 227 kişi, 165 qadın, 192 nəfər.***

**Dəmirbulaq hissəsi**

**Tatarlarda**

14 bəy ailəsi, 46 kişi, 46 qadın, cəmi 92 nəfər
1 mirzə ailəsi, 1 kişi, 1 qadın, cəmi 2 nəfər
7 molla ailəsi, 13 kişi, 16 qadın, cəmi 29 nəfər
11 seyid ailəsi, 22 kişi, 19 qadın, cəmi 41 nəfər
3 dərviş ailəsi, 6 kişi, 4 qadın, cəmi 10 nəfər

**Ermənilərdə**

3 məlik aillərsi. 12 kişi, 10 qadın, cəmi 22 nəfər
5 bəy ailəsi, 16 kişi, 13 qadın, cəmi 29 nəfər
1 mirzə ailəsi, 1 kişi, 3 qadın, cəmi 4 nəfər
13 ruhani ailəsi, 55 kişi, 35 qadın, cəmi 90 nəfər

***Cəmi 36 ailə, 88 kişi, 86 qadın, 174 nəfər***

**İrəvan şəhəri üzrə**

**Tatarlarda**

4 xan ailəsi, 22 kişi, 19 qadın, 41 nəfər
51 bəy ailəsi, 167 kişi, 137 qadın, 304 nəfər
19 mirzə ailəsi, 64 kişi, 41 qadın, 105 nəfər
50 molla ailəsi, 181 kişi, 151 qadın, 332 nəfər
39 seyid ailəsi, 92 kişi, 96 qadın, 188 nəfər
3 dərviş ailəsi, 6 kişi, 4 qadın, 10 nəfər

**Ermənilərdə**

3 məlik ailəsi, 13 kişi, 13 qadın, 26 nəfər
5 bəy ailəsi. 16 kişi, 13 qadın, 29 nəfər
1 mirzə ailəsi, 1 kişi, 3 qadın, 4 nəfər
13 ruhani ailəsi, 55 kişi, 35 qadın, 90 nəfər

***Cəmi 188 ailə, 617 kişi, 512 qadın, 1.129 nəfər.***

## § 9. Evlər, kilsələr, məscidlər, bazarlar, karvansaralar, dükanlar, hamamlar, körpülər, ictimai müəssisələr və meydanlar. (v. 21-31)

a) **Evlər**

İrəvan şəhərindəki bütün evlərin sayı bu qədərdir:

| № | Şəhərin hissəsi | Tatarlarda | Ermənilərdə | Xəzinəyə məxsus ev. | Cəmi |
|---|---|---|---|---|---|
| 1. | Şəhər hissəsi | 539 | 173 | 80 | 792 |
| 2. | Təpəbaşı | 378 | 214 | 30 | 622 |
| 3. | Dəmirbulaq | 310 | Yoxdur | 12 | 322 |
| | Cəmi | 1.227 | 387 | 122 | 1.736 |

b) **Kilsələr**

**İrəvan qalasında**

1) Yunan-rus Müqəddəs Məryəm ana kilsəsi

**Forştatdakılar**
**Şəhər hissəsində**

2) Erməni Pyotr və Pavel kilsəsi
3) Erməni Müqəddəs Yekaterina kilsəsi
4) Erməni Müqəddəs Sergi kilsəsi

5) Erməni Müqəddəs Georgi kilsəsi
6) Erməni Müqəddəs İohann kilsəsi
7) Erməni Müqəddəs Apostol kilsəsi
***Şəhərin Dəmirbulaq hissəsində xristian kilsələri yoxdur.***

c) **Məscidlər**

**Qalada**

Buradakı iki məsciddən birini cəbbəxanaya, digərini isə mağazaya çeviriblər.*

**Forştatdakılar**

**Şəhər hissəsində**

3) Zalı xan məscidi
4) Novruzəli bəy məscidi
5) Sərtib xan məscidi

**Təpəbaşı hissəsində**

6) Hüseynəli xan məscidi
7) Hacı İmamverdi məscidi

**Dəmirbulaq hissəsində**

8) Hacı Cəfər bəy məscidi

Bu məscidlərdən başqa, bir neçə də uçmuş məscidlər var ki, burada qeyd olunmayıb.

d) **Bazarlar**

İrəvan şəhərindəki əsas bazar şəhərin Təpəbaşı və Şəhər hissələrinin arasında yerləşir. Karvansara və dükanlar buradadır. Bundan başqa, Şəhər hissəsində Zalı xan məscidinin yaxınlığında 18 dükan da var. Təpəbaşı hissəsində 4, Dəmirbulaq hissəsində isə 2 dükan var.

---

* Görünür, ruslar qalanı alandan sonra oradakı türkləri çıxardıb və məscidlərin də təyinatını dəyişiblər

e) **Karvansaralar**

İrəvan şəhərində 6 karvansara var. Onlar aşağıdakılardır:

1) Gürcü karvansarası
2) Culfa karvansarası
3) Zöhrab xan karvansarası
4) Tahir karvansarası
5) Sulu qamçı karvansarası
6) Susuz qamçı karvansarası
7) Hacı Əli karvansarası

Bütün bu karvansaralar bişmiş kərpic və əhəngdaşı məhlulu ilə möhkəm tikilmişdir, lakin təmirə ehtiyacları var.

f) **Dükanlar**

Aşağıdakı miqdardadır:

1) Gürcü karvansarasında-62 dükan
2) Culfa və 3) Zöhrab xan karvansaralarında 76,
4) Tahir karvansarası, 5) Sulu qamçı və Susuz qamçı karvansaralarında cəmi 58,
Yuxarı mərtəbədə 16,
6) Hacı Əli karvansarasında 40 dükan.
Karvansaralarda cəmi 252 dükan;
Parça satanların sırasında 151 dükan;
Köhnə çarşının qapısından sağda 20, solda 31 dükan;
Köhnə Göysarı qapılarının yanında 33 dükan;
Məscid meydanında 70 dükan;
Axundun evindən sağda 121 dükan;
Zalı xan məscid meydanında 18 dükan;
Təpəbaşı hissəsində 4 dükan;
Dəmirbulaq hissəsində 2 dükan;
Qalada 32 dükan.
Şəhərin hissələrində, cərgələrdə və Qalada cəmi 599 dükan;

***İrəvandakı bütün dükanların sayı 851.***

Dövlətə məxsus dükanlardan başqa, orda-burda xüsusi dükanlar da tikməyə başlayıblar. Lakin fikrimcə, xəzinəyə məxsus bütün dükanlar işlədiləndən sonra xüsusi dükanlara icazə vermək olar.

Meydanların künc-bucağında pul mübadiləsi ilə məşğul olanların, saatsaz və zərgərlərin taxta budkaları da var, lakin onları da qadağan etmək lazımdır, çünki belə budkalar meydanların görkəmini pozur. Qeyd etmək lazımdır ki, dövlətə məxsus dükanların çoxu boşdur.

### g) **Hamamlar**

İrəvandakı hamamlar nə təmizlik, nə də komfort baxımından yaxşı cəhətdən tanınmır. Əksinə, xoşagəlməz iy və suyun natəmizliyi gələnlərin həvəsini öldürür.

Hamamların çoxu bir neçə böyük zalı və kürəvi tavanı olan hamamlardır.

Su böyük mis qazanlarda qızdırılır və yuyunmaq üçün borularla yan otaqlara çəkilir. Lakin bütün Asiya hamamlarında olduğu kimi, müştərilər burada əməliyyata məruz qalır. Onların bütün sümükləri şaqqıltı ilə tək-tək ovxalanır, axırda müştərinin başına gülab suyu tökülür.

İri qazanlardakı su quru təzəklə qızdırılır.

**Şəhərdəki hamamlar.**

**Şəhər hissəsində**
1) Şeyxülislam hamamı
2) Zalı xan hamamı
3) Mehdi bəy hamamı

**Təpəbaşı hissəsində**
4) Hacı Bəyim hamamı
5) Şeyxülislam hamamı

6) Hacı Əli hamamı
7) Qafar və Hacı Fətəli hamamı
8) Kərim bəy hamamı

**Dəmirbulaq hissəsində**
9) Həsən ağa və Cəfər bəy hamamı.

Bundan başqa, Qalada gözəl bir hamam da var, hal-hazırda uçub-dağılır. Onun yanında uzunluğu 15, eni 4 sajen olan hovuz tikilib. Dərinliyi 3 arşın olan bu hovuz yayda qarnizon üçün çox yaxşı çimərlik idi. Təəssüf ki, onu saz vəziyyətdə saxlamırlar.

h) **Körpülər**

Qırxbulaq çayının üzərində 4 körpü var ki, onlardan biri Abbasdərə körpüsüdür. Onların hamısı, xüsusilə adını çəkdiyimiz körpü zədələnib və bərpası tələb olunur.

Zəngi çayı üzərindəki gözəl körpü və 3 arx üzərindəki körpülər əhəngdaşı ilə tikilib, lakin onların da təmirə ehtiyacı var, əks halda uçub dağılacaqlar. Bu körpünü təmir edib saz vəziyyətdə saxlamaq xüsusilə ona görə vacibdir ki, Böyük İrəvan yolu ondan keçir.

i) **Meydanlar**

İrəvan şəhəri meydanlarla zəngin deyil. Əsas meydanı xəzinəyə məxsus olan Xan bağı meydanıdır.

İkinci meydan bazarla Qalanın arasındakı meydandır ki, kənd əhalisi gətirdiyi ərzaq məhsullarını burada satır.

3) Hüseynəli xan məscidi meydanı;
4) Zalı xan meydanı;
5) Günəmuzd fəhlələrin tutulduğu Fəhlə bazarı;

Bunlardan ən diqqətəlayiqi Hüseynəli xan məscid meydanıdır. Dükanlarla əhatə olunmuş bu meydan düzgün dördbucaqlı şəklindədir.

h) **İctimai müəssisələri**

Təhsil müəssisələri ilə məhdudlaşır. Hər bir məsciddə və hər bir erməni kilsəsində məktəb var və hər birində 20 şagird oxuyur, lakin Hüseynəli xan məscidində 200-ə yaxın şagird təhsil alır.

## § 10. Torpağın məhsuldarlığı (v. 31-34)

İrəvan şəhərinin ətrafındakı torpaqlarda əla taxıl, pambıq, çəltik, buğda, arpa, darı, küncüt, kətan, bostan bitkiləri, hər cür tərəvəz yetişir. Bir sözlə, hər bir bitki əkmək üçün yararlıdır. Polisin verdiyi məlumata görə İrəvan şəhərinə məxsus olan torpaq 200 əkin gününə bərabərdir, lakin təxmini hesablamalara görə, əkinəyararlı suvarılan torpaq 300 xalvardan az deyil və Qırxbulaq çayının suyu ilə suvarılır.

***Bostanlıq ərazilər***

Səvzikar İrəvan qalasının qənşərində yerləşir və hər il iltizama verilir.

***Biçənəklər***

Yonca əkinləri Qaladan bir qədər aşağıda yerləşir.

İrəvan erməniləri arasında yayılan rəvayətə görə, guya nə vaxtsa varlı bir erməni İran şahından öz azadlığını satın alıb və İrəvan sakinləri hər cür vergilərdən azad edilib, ona görə də Sərdar onlardan heç bir vergi almayıb. Lakin bu şifahi rəvayətin nəyə əsaslandığı məlum deyil və heç kim deyə bilmir ki, ermənilərə verilən padşah fərmanı haradadır. Mən isə hesab edirəm ki, bu yararlı torpaqları iltizama verib onun gəliri ilə şəhər kapitalını yaratmaq lazımdır.

## § 11. Bağçılıq (v. 34-35)

İrəvan şəhəri sakinlərinin əsas gəlir yeri bağçılıqdır. Torpağın əla vəziyyətinə görə bağçılıq burada inkişaf etmiş vəziyyətdə oımaqla sakinlərə kifayət qədər gəlir gətirir. Burada bağçılığın 2 növü vardır: birincisi evlərin həyətində yerləşən bağçadır və müxtəlif meyvələr verir. İkincilər isə üzüm bağlarıdır ki, sakinlər qış vaxtı onları tərk edir, çünki bağların çoxu şəhərdən kənarda yerləşir. Xəzinə bağlarını nəzərə almasaq, bağ və bağçalar belədir:

**Yaşayış olan ərazilərdə**

**Şəhər hissəsində**

***Evlərin həyətində***

662,75 əkin günü ərazini tutan 499 bağ var. İldə 59 xalvar 66 batman üzüm, 793 xalvar 83 batman meyvə verir.

***Evlərdən kənarda***

914 əkin günü ərazi tutan 94 bağ var, ildə 559 xalvar 25 batman üzüm, 480 xalvar 10 batman meyvə verir.

**Təpəbaşı hissəsində**

***Evlərin həyətində***

189,5 əkin günü ərazisi olan 155 bağ var, ildə 178 xalvar 80 batman üzüm və 148 xalvar 80 batman meyvə verir.

***Evlərdən kənarda***

192 əkin günü ərazi tutan 17 bağ var, ildə 95 xalvar 50 batman üzüm və 28 xalvar meyvə verir.

**Dəmirbulaq hissəsində**

***Evlərin həyətində***

394,25 əkin günü ərazi tutan 218 bağ var, ildə 35 xalvar 50 batman üzüm və 544 xalvar 20 batman meyvə verir.

***Evlərdən kənarda***

80,5 əkin günü ərazisi olan 16 bağ var, ildə 29 xalvar üzüm, 26 xalvar 50 batman meyvə verir.

**Yaşayış olmayan yerlərdə**

***Abbasdərə bağları.*** 68 əkin günü ərazini tutan 8 bağ var, ildə 59 xalvar üzüm və 51 xalvar meyvə verir.

***Köşəkli bağları.*** 205,5 əkin günü ərazini tutan 50 bağ var, ildə 218 xalvar üzüm, 89 xalvar 30 batman meyvə verir.

***Abihəyat bağları.*** 258 əkin günü ərazisi olan 56 bağ var, ildə 182 xalvar üzüm, 141 xalvar 30 batman meyvə verir.

***Qızılqala bağları.*** 96,25 əkin günü ərazisi olan 67 bağ var, ildə 189 xalvar 50 batman meyvə verir.

***Dərəbağ bağları.*** 288,5 əkin günü ərazisi olan 67 bağ var, ildə 154 xalvar 30 batman üzüm və 180 xalvar 90 batman meyvə verir.

***Noraguğ bağları.*** 736,5 əkin günü ərazisi olan 61 bağ var, ildə 511 xalvar 30 batman üzüm və 137 xalvar 60 batman meyvə verir.

***Dəlmə bağları.*** 735,75 əkin günü ərazisi olan 145 bağ var, ildə 491 xalvar üzüm və 79 xalvar meyvə verir.

***Səvzikər bağları.*** 31.5 əkin günü ərazisi olan 10 bağ var, ildə 12 xalvar 9 batman üzüm və 1 xalvar meyvə verir.

***Xosrovabad bağları.*** 29 əkin günü ərazisi olan 3 bağ var, ildə 14 xalvar üzüm və 50 batman meyvə verir.

***Söyüdlü bağları.*** 5 əkingünü ərazisi olan 1 bağ var, məhsul verməyib.

***Şahadişli bağları***. 29 əkin günü sahəsi olan 3 bağ var, ildə 9 xalvar üzüm və 45 xalvar, 50 batman meyvə verir.

***Gül dərəsi bağları***. 10 əkin günü ərazisi olan 1 bağ var, ildə 5 xalvar meyvə verir.

***Kəpkən bağları.*** 2 əkin günü ərazisi olan 1 bağ var, məhsul verməyib.

***Bütün İrəvan şəhəri üzrə 4.932 əkin günü ərazisi olan 1.473 bağ var, ildə 2.608 xalvar 34 batman üzüm, 2.982 xalvar 3 batman meyvə verir*[*]*.***

## § 12. Arıçılıq (v. 36)

Kameral təsvir tərtib edilərkən İrəvan şəhərində 304 arı ailəsi var idi və ildə 350 batman bal və 50 batman mum verirdi. Buranın balı çox keyfiyyətli olmaqla 1 batmanı 7 abbasıdan 2 rubla qədər qiymətə satılır.

## § 13. İpəkçilik (v. 36-37)

Bütün bağların tut ağacları ilə zəngin olmasına və ipəkqurdu bəsləmək üçün yaramasına baxmayaraq, bu sahə cəmi 10 funt ipək əldə etməklə məhdudlaşır. Bəzi sakinlərin dediyinə görə, İrəvanda qış çox sərt keçir, ipəkqurdunu saxlamaq olmur. Lakin həqiqətə yaxın olan odur ki, onlar tənbəllikdən bu bahalı məhsulu yetişdirmək istəmirlər.

## § 14. Balıq ovu (v. 37)

Zəngi çayında əla forel və qeyri-adi dərəcədə böyük sazan ovlanır. Çoxusu tatar olan xeyli sakin bu işlə məşğuldur.

---

[*] 1 əkin günü ərazi 0,4-ha, 1 xalvar 455,5 kq, 1 batman 4,55 kq-a bərabərdir.

## § 15. Heyvandarlıq (v. 38)

**İrəvan şəhərində heyvandarlıq**

***Tatarlarda***

44 dəvə, 46 camış, 33 öküz, 110 inək, 87 buzov, 1.695 qoyun və keçi, 438 at, 34 qatır və 540 ulaq.

***Yerli ermənilərdə***

1 camış, 29 inək, 24 buzov, 85 at, 11 qatır və 154 ulaq.

***Boşalarda***

1 inək, 1 buzov, 3 at. 1 qatır və 36 ulaq.

***İrandan gələn ermənilərdə***

3 camış, 9 öküz, 16 inək, 14 buzov, 275 qoyun və keçi, 34 at, 4 qatır və 105 ulaq.

***Türkiyədən gələn ermənilərdə***

3 inək, 2 buzov, 65 qoyun və keçi, 8 ulaq.

***İrəvan şəhəri üzrə cəmi***

44 dəvə, 50 camış, 42 öküz, 159 inək, 128 buzov, 2.035 qoyun və keçi, 560 at, 50 qatır və 843 ulaq.

## § 16. Zavodlar, fabriklər və xüsusi sənətlər (v. 38-52)

İrəvan şəhərindəki əl işləri insan cəmiyyətinin ictimai həyatın faydalı vəziyyətə çatdırdığı və ürkək təcrübələr apardığı dövrü xatırladır. Zavod və fabriklər acınacaqlı körpəlik mərhələsindədirlər. Ən yaxşıları bunlardır.

**a) Dəriçilik sənəti**

Dərəkənd məhəlləsində, Zəngi çayının yaxınlığında dabbaqlar (dəriçilər) icmasının 32 dükanı vardır. Sərdarın zamanında bu sahə iltizama verilmişdi. İrəvan dərilərindən başqa, burada Bəyaziddən və Makudan gətirilən dəriləri də nəzərə almaqla ildə təxminən 4 min böyük, 25 min balaca dəri aşılanır. Böyük dəri-

lər 3 rubla, kişik dərilər isə 80 qəpik gümüş pula satılır. Bəzi ustalar dərini çox yüksək keyfiyyətlə aşılayır, bəziləri isə onları bacarıqsız şəkildə qara, qırmızı və sarı rəngə boyayır.

**b) Sabun bişirmə**

Bu sahə iltizama verilmişdi və iltizamçıdan başqa heç kim sabun bişirə bilməzdi. Buranın sabununun rəngi qaradır və pis iy verir. Bundan daha pis sabun ola bilməz.

**c) Boyaqxanalar** da iltizama verilir. Yalnız iltizamçı bəzi, sapları, yunu və başqa şeyləri göy rəngə boyaya bilər. Başqa rənglərə boyamaq hüququ azad istehsalçılara məxsusdur.

**d) Şüşəçilik**

Bir Xoy sakini tərəfindən işə salınan bu zavod hələlik körpə vəziyyətindədir, lakin onun buraxdığı şüşə kifayət qədər ağdır ***(yəqin "şəffafdır" demək istəyir-N.Ə.)*** Mənim fikrimcə, onu rəğbətləndirmək və bu cür zavod üçün ən uyğun yer olan Dərəçiçək mahalına köçürmək lazımdır.

**e) Dəyirmanlar**

***İrəvan şəhərində sakinlərə məxsus aşağıdakı miqdarda dəyirman var:***

Şəhər hissəsində Qırxbulaq çayı üzərindəki 10 daşı olan 5 un dəyirmanı;

Təpəbaşı hissəsində Zəngi çayı üzərindəki 27 daşı olan 27 işlək un dəyirmanı, 12 daşı olan 4 işlək çəltik dəyirmanı, 5 daşı olan 5 yararsız un dəyirmanı;

**Xəzinəyə məxsus dəyirmanlar:**

***Zəngi çayı üzərində olanlar:***

3 işlək, 7 yararsız daşı olan Doqquz yoxuş dəyirmanı;
3 işlək. 2 yararsız daşı olan Hacı Bəyim dəyirmanı;
Qaladakı 3 yayarsız daşı olan dəyirman;
Məhəmməd xanın 4 işlək, 2 yararsız daşı olan un dəyirmanı;

Yenə onun 3 yararsız daşı olan çəltik dəyirmanı;
Sübhanqulu xanın 1 yararsız daşı olan un dəyirmanı;
Yenə onun 1 yararsız daşı olan başqa bir un dəyirmanı;
Yenə onun 6 yararsız daşı olan 1 çəltik dəyirmanı;
Xatunbağı arxı üzərindəki Sərdara məxsus 2 yararsız daşı olan 1 un dəyirmanı;

**Qırxbulaq çayı üzərində**

Gevork Xubova məxsus 2 yararsız daşı olan 1 un dəyirmanı;
Bütün İrəvan şəhərində 47 yararlı və 26 yararsız daşı olan 45 un dəyirmanı, 12 yararlı və 9 yararsız daşı olan 6 çəltik dəyirmanı var.
Xüsusi sənətkarlıq aşağıdakı siyahıda göstərilmişdir

**Şəhər hissəsində**

| Sənətin adı | Tatarlarda | Ermənilərdə | | Cəmi |
|---|---|---|---|---|
| | | Yerli | Gəlmə | |
| Baqqal | 52 | | | 52 |
| Aşıq | 3 | | | 3 |
| Hamamçı | 6 | | | 6 |
| Dəllal | 5 | | | 5 |
| Başmaqtikən | 75 | 21 | 2 | 98 |
| Kəndir toxuyan | 1 | | | 1 |
| Kənkan | 4 | | | 4 |
| Desyatnik | | 1 | 4 | 5 |
| Yasovul | 2 | 1 | 2 | 5 |
| Dəmir satan | 5 | | | 5 |
| Rəssam | 2 | | | 2 |
| Zurnaçı | 3 | 2 | 1 | 6 |
| Bənna | 12 | 3 | 1 | 16 |
| Qənnadı ustası | 1 | | | 1 |
| Dəri ustası | 4 | 9 | | 13 |
| Mehtər | 4 | 5 | 1 | 10 |
| Sınıqçı | | | 2 | 2 |
| Dəmirçi | 8 | | 3 | 11 |

| | | | | |
|---|---|---|---|---|
| Tacir | 74 | 26 | 29 | 129 |
| Boyaqçı | | 1 | 1 | 2 |
| Həkim | 1 | 2 | | 3 |
| Qalayçı | 10 | 1 | 1 | 12 |
| Bal və mürəbbə satan | 1 | | | 1 |
| Misgər | 1 | 8 | | 9 |
| Xırdavatçı | 26 | 1 | | 27 |
| Sərraf | 2 | | 3 | 5 |
| Qəssab | 15 | 1 | | 16 |
| Dilənçi | 12 | 1 | 4 | 17 |
| Nökər | 28 | 4 | 5 | 37 |
| Silah ustası | 1 | 4 | 12 | 17 |
| Çadır ustası | 1 | | | 1 |
| Nalkəsən | | | 1 | 1 |
| Arabaçı | 27 | 6 | 8 | 42 |
| Dərzi | 7 | 11 | 2 | 20 |
| Buğda satan | 20 | | | 20 |
| Bağban | 64 | 21 | 1 | 86 |
| Pinəçi | 26 | 3 | 1 | 30 |
| Ləbləbi satan | 4 | | | 4 |
| Şam ustası | 4 | 6 | | 10 |
| Sərrac | 7 | 15 | | 22 |
| Zərgər | 9 | 11 | 7 | 27 |
| Çilingər | | 3 | | 3 |
| toxucu dəzgahı düzəld. | | | 2 | 2 |
| Dülgər | 5 | 8 | 55 | 68 |
| Əllaf | 5 | | | 5 |
| Parça toxuyan | 1 | 5 | 54 | 60 |
| Müəllim | | 1 | | 1 |
| Aşçı | 9 | | | 9 |
| Bərbər | 22 | 6 | 4 | 32 |
| Çərçi | 5 | | 1 | 6 |
| Baramaçı | 1 | 1 | | 2 |
| Keçəçi | 5 | 1 | 6 | 12 |
| Suvaqçı | | 1 | 5 | 6 |
| İpək satan | 11 | 22 | | 33 |

## Təpəbaşı hissəsində

| Sənətin adı | Tatarlarda | Ermənilərdə | | Cəmi |
|---|---|---|---|---|
| | | Yerli | Gəlmə | |
| Mürdəşir | 1 | | | 1 |
| Baqqal | 15 | 1 | | 16 |
| Hamamçı | 5 | | 1 | 6 |
| Dəllal | 2 | | | 2 |
| Başmaqtikən | 14 | 12 | 1 | 27 |
| Kəndir toxuyan | 3 | | | 3 |
| Dulusçu | 1 | | 1 | 2 |
| Desyatnik | 4 | 6 | | 10 |
| Yasovul | 2 | 1 | | 3 |
| Dəmir satan | 2 | | | 2 |
| Zurnaçı | | 3 | | 3 |
| Bənna | 7 | 3 | 3 | 13 |
| Dəri ustası | 13 | 3 | | 16 |
| Mehtər | 1 | | | 1 |
| Qəhvəçi | 1 | | | 1 |
| Dəmirçi | 1 | 7 | 1 | 9 |
| Tacir | 53 | 6 | 7 | 66 |
| Həkim | | 1 | | 1 |
| Qalayçı | 4 | 2 | 1 | 7 |
| Pul kəsən | | 1 | | 1 |
| Sabun bişirən | 1 | | | 1 |
| Misgər | | 19 | | 19 |
| Xırdavatçı | 11 | | | 11 |
| Sərraf | 5 | | | 5 |
| Qəssab | 5 | 1 | | 6 |
| Dilənçi | 9 | 1 | 1 | 11 |
| Nökər | 27 | 12 | | 39 |
| bostançı | 1 | | | 1 |
| İltizamçı | | 1 | 1 | 2 |
| Arabaçı | 36 | 1 | | 37 |
| Günəmuzd fəhlə | 41 | 14 | 9 | 64 |
| Dərzi | 8 | 9 | | 17 |

| | | | | |
|---|---|---|---|---|
| Çoban | 2 | | | 2 |
| Köhnə paltar satan | 1 | | | 1 |
| Balıqçı | | 3 | | 3 |
| Bağban | 78 | 34 | 3 | 115 |
| Ləbləbi satan | 1 | | | 1 |
| Sərrac | 5 | 3 | 3 | 11 |
| Zərgər | 1 | 6 | | 7 |
| Çilingər | | 8 | | 8 |
| Şam ustası | 8 | 2 | | 10 |
| Şüşə ustası | 1 | | | 1 |
| Dülgər | | 1 | 9 | 10 |
| Kilsə gözətçisi | | | 1 | 1 |
| Əllaf | 9 | | | 9 |
| Toxucu | | 7 | 18 | 25 |
| Tokar | 3 | | | 3 |
| Ütü ustası | 2 | | | 2 |
| Atəşfəşan ustası | 1 | | | 1 |
| Aşçı | 2 | | | 2 |
| Şatır | 11 | 1 | | 12 |
| Bərbər | 16 | 2 | 1 | 19 |
| Saat ustası | 2 | | | 2 |
| Çərçi | 14 | | 3 | 17 |
| Çubuq düzəldən | 1 | | | 1 |
| Pinəçi | 36 | 6 | | 42 |
| Keçəçi | 1 | | 1 | 2 |
| Suvaqçı | 3 | 1 | 16 | 20 |
| Ipəksatan | 17 | 14 | | 31 |
| Yüzbaşı | 2 | | | 2 |

**Təpəbaşı hissəsinin qaraçıları (boşalar) arasındakı sənətkarlıq**

1 başmaqtikən, 1 tacir, 1 dəri ustası, 3 misgər, 1 nökər, 1 silah ustası, 2 günəmuzd fəhlə, 6 şəbəkə ustası, 7 bağban, 3 sərrac, 16 çilingər, 1 toxucu, 2 pinəçi.

## Dəmirbulaq hissəsində

| Sənətin adı | Tatarlarda | Ermənilərdə | | Cəmi |
|---|---|---|---|---|
| | | Yerli | Gəlmə | |
| Başmaqtikən | 6 | | | 6 |
| Baqqal | 29 | | | 29 |
| Dəllal | 3 | | | 3 |
| Kənkan | 1 | | | 1 |
| Göyərçin satan | 1 | | | 1 |
| Yasovul | 1 | | | 1 |
| Zurnaçı | 2 | | 1 | 3 |
| Əhəng ustası | 2 | | | 2 |
| Bənna | 1 | | | 1 |
| Dəri ustası | 9 | | | 9 |
| Mehtər | 10 | | | 10 |
| Boyaqçı | 2 | | | 2 |
| Tacir | 24 | | | 24 |
| Qalayçı | 4 | | | 4 |
| Xırdavatçı | 6 | | | 6 |
| Sərraf | 1 | | | 1 |
| Dəyirman ustası | 2 | | | 2 |
| Sabun bişirən | 2 | | | 2 |
| Qəssab | 5 | | | 5 |
| Dilənşi | 12 | | 1 | 13 |
| Nökər | 14 | | | 14 |
| Günəmuzd fəhlə | 50 | | 4 | 54 |
| Arabaçı | 18 | | | 18 |
| Dərzi | 4 | | | 4 |
| Bağban | 37 | | | 37 |
| Sərrac | 1 | | | 1 |
| Sim ustası | 1 | | | 1 |
| Əllaf | 8 | | | 8 |
| Şam ustası | 2 | | | 2 |
| Dükançı | 1 | | | 1 |
| Parça toxuyan | 2 | | 33 | 35 |
| Tokar | 1 | | | 1 |

| | | | | |
|---|---|---|---|---|
| Ütüçü | 2 | | | 2 |
| Feyerferkçi | 1 | | | 1 |
| Aşçı | 2 | | | 2 |
| Şatır | 15 | | | 15 |
| Bərbər | 12 | | | 12 |
| Çərçi | 9 | | 1 | 10 |
| Pinəçi | 10 | | | 10 |
| Baramaçı | 2 | | | 2 |
| Ipək satan | 3 | | | 3 |
| Keçəçi | 1 | | 2 | 3 |
| Suvaqçı | 1 | | 5 | 6 |

## § 17. Müxtəlif xəzinə əmlakı (v. 53-70)

***İrəvan şəhərindəki sahibləri qaçıb gedən və ailə üzvlərinin hamısı ölən bir çox tikililər-evlər, bağlar və s. mənim tərəfimdən xəzinə mülkiyyətinə aid edilmişdir. Onlardan bəziləri xüsusi icazə ilə sahiblərinə qaytarılacaq. Lakin onların hamısı bu siyahıda göstərilib.***

**a) Evlər**

**Şəhər hissəsi**

1.33.Qaçıb gedən Nağı xanın evi.
2 əkin günü ərazisi, 250 batman meyvə verən bağı var.

***Qeyd. Birinci rəqəm mülkün buradakı sıra nömrəsini, ikinci rəqəm isə kameral təsvirdəki sıra nömrəsini göstərir*-N.Ə.**

2.37.Gürcüstana qaçıb gedən erməni Naqik Sarkisovun Sərdar tərəfindən alınan evi.
1,5 əkin günü ərazisi, 50 batman meyvə verən bağı var.

3.42.Sərdarın Q.Sarkisovun əlindən aldığı ev.
0,5 əkingünü ərazisi, 20 batman meyvə verən bağı var.

4.46.Həsən xanın evi.
1 əkin günü ərazisi, 50 batman meyvə verən bağı var.

5.51.Sərdarın Mehdi bəyin əlindən aldığı ev.

6.52.Sərdarın Mehdi bəyin əlindən aldığı ev.

7.53.Sərdarın Mehdi bəyin əlindən aldığı ev.

8.70.Qaçıb gedən Məmmədhüseyn Molla Zaman oğlunun evi.
2 əkin günü ərazisi, 100 batman meyvə verən bağı var.

9.78.Qaçıb gedən Məhəmməd Kərbəlayı Həsən oğlunun evinin 1/7 hissəsi.

10.127.Qaçıb gedən Allahverdi Dəvəlinin evi.
1 əkin günü ərazisi, 150 batman meyvə verən bağı var.

11.150.Ailəsi qırılan Hacı Abbasəlinin evi.
0,25 əkin günü ərazisi, 25 batman meyvə verən bağı var.

12.151.Qaçıb gedən Sərtib xanın evi.

13.152.Qaçıb gedən Sərtib xanın evi.
Bu iki evin 5 əkin günü ərazisi, 1.000 batman meyvə verən bağı var.

14.154.Hacı Bağır Hacı Cəfər oğlunun evi.

1,5 əkin günü ərazisi, 100 batman meyvə verən bağı var.
15.167.Qaçıb gedən Sərtib xanın evi.

16.168. Qaçıb gedən Sərtib xanın evi.
1/8 əkin günü ərazisi olan bağı var, məhsulu yoxdur.

17.169. Qaçıb gedən Sərtib xanın evi.
1 əkin günü ərazisi, 150 batman meyvə veən bağı var.

18.170.Sərdarın arvadı Hacı Bəyimim evi.
1,5 əkin günü ərazisi olan bağı var, məhsulu yoxdur.

19.171.Ailəsi qırılmış Məmmədhüseynin evinin 1/3 hissəsi.

20.173.Qaçıb gedən Nəsrullanın evi.

21.174. Sərdarın arvadı Hacı Bəyimim evi.

22.197. Sərdarın arvadı Hacı Bəyimim evi.
4 əkin günü ərazisi, 100 batman meyvə verən bağı var.

23.196.Qaçıb gedən Sübhan xanın evi.
10 əkin günü ərazisi, 1.000 batman meyvə verən bağı var.

24.213.Abbasqulu bəy Mirzə Rəsul bəy oğlunun evi.
4 əkin günü ərazisi, 40 batman meyvə verən bağı var.

25.245.Ailəsi qırılan Ağəli Əhməd oğlunun evi.
0,5 əkin günü ərazisi, 100 batman meyvə verən bağı var.

26.255.Cəfərqulu Molla Usub oğlunun evi.
0,5 əkin günü ərazisi, 50 batman meyvə verən bağı var.

27.264.Baba Əzim Qatırçı oğlunun evi.
4 əkin günü ərazisi, 600 batman meyvə verən bağı var.

28.274.Baba Həsən Qatırçı oğlıunun evi.
0,5 əkin günü ərazisi olan bağı var, meyvəsi yoxdur.

29.303.Vəzir Mirzə İsmayılın evi.

30.305. Vəzir Mirzə İsmayılın evi.

31.306. Vəzir Mirzə İsmayılın evi.

32.313.Mirzə Bağırın evi.

33.316.Ailəsi qırılan Məşədi Alməmməd Hacı Nadir oğlunun evi.
1/8 əkin günü ərazisi, 10 batman meyvə verən bağı var.

34.327.Ailəsi qırılan Baba xanın evi.
¼ əkin günü ərazisi olan, 30 batman meyvə verən bağı var.

35.329.Ailəsi qırılan Zeynalın evi.

36.371.Ailəsi qırılan Allahverdinin evi.
½ əkin günü ərazisi, 50 batman meyvə verən bağı var.

37.379.Qaçıb gedən Molla Məhəmmədin evi.

1 əkin günü ərazisi, 50 batman meyvə verən bağı var.

38.409.Məhəmməd Sadıq oğlunun evi.
½ əkin günü ərazisi, 50 batman meyvə verən bağı var.

39.410.Qaçıb gedən Sərtib xanın evi.
¼ əkin günü ərazisi, 50 batman meyvə verən bağı var.

40.417.Qaçıb gedən Araklının evinin ½ hissəsi.

41.441.Qaçıb gedən Əlican Əbülhüseyn bəy oğlunun evinin ½ hissəsi.
1 əkin günü ərazisi, 100 batman meyvə verən bağı var.

42.450.Hacı Tağı oğlunun evi.
½ əkin günü ərazisi, 40 batman meyvə verən bağı var.

43.451.Ağa Rəfi Darğanın evi.
¼ əkin günü ərazisi, 20 batman meyvə verən bağı var.

44.469.Qaçıb gedən İsmayıl bəyin evinə baxan Məşədi Hüseyn Qurban oğlunun evi.
1/8 əkin günü ərazisi, 30 batman meyvə verən bağı var.

45.473.Ailəsi qırılan Kərbəlayı Qasım Mahmud oğlunun evi.
¼ əkin günü ərazisi, 30 batman meyvə verən bağı var.

46.478.Qaçıb gedən Əkbər bəy Həsən bəy oğlunun evi. Əfəralı bəyin evi.

47.506.Səfəralı bəyin evi.
1 əkin günü ərazisi, 100 batman meyvə verən bağı var.

48.523.Ailəsi qırılan Barabançı Hüseynin evi.
49.529.Sərdarın gavur qadın Mixaylovadan alıb Araklıya verdiyi və onun qoyub qaçdığı ev.
¼ əkin günü ərazisi, 25 batman meyvə verən bağı var.

50.530.Nazaret Allahverdiyevin evi.

51.531.Ailəsi qırılan və dul qalmış arvadı yeni ərə gedən Arytyunovun evi.

52.550.Qaçıb gedən Aleksandr Şahinovun evi.

53.563.Qaçıb gedən Miron Asaturovun evi.
1/2 əkin günü ərazisi, 50 batman meyvə verən bağı var.

54.565.Qaçıb gedən Karapet Xubovun evi.
1,5 əkin günü ərazisi, 300 batman meyvə verən bağı var.

55.576. Qaçıb gedən Kirokos Koçarovun evi.

56.580.Qaçıb gedən şatır Baba Osman oğlunun evi.

57.Qaçıb gedən Petros Ayvazovun evi.

58.594.Qaçıb gedən Alim Arutyunovun evi.

59.596.Qaçıb gedən Zərnişançı Simonun evi.
3/4 əkin günü ərazisi, 200 batman meyvə verən bağı var.

60.603.Qaçıb gedən Ohanes Xaçumovun evi.
¼ əkin günü ərazisi, 50 batman meyvə verən bağı var.

61.608.Qaçıb gedən Arakel Qalustovun evi.

62.609.Qabriel Aslanovun evi.

63.612.Dəllək Petrosovun evi.
8 əkin günü ərazisi, 400 batman meyvə, 500 batman üzüm verən bağı var.

64.613.Dəllək Petrosovun evi.
6 əkin günü ərazisi, 300 batman meyvə verən bağı var.

65.Qaçıb gedən Arutyun Ayvazovun evi.
2 əkin günü ərazisi, 500 batman meyvə verən bağı var.

66.632.Qaçıb gedən Araklının evinin ½ hissəsi.
1 əkin günü ərazisi, 300 batman meyvə verən bağı var.

67.548.Qaçıb gedən Qalust Ayrapetovun evi.

68.655.Ailəsi qırılan qazançı Stepanın evi.

69.662.Qaçıb gedən Sərtib xanın evi.

70.663.Qaçıb gedən Məşədi Zeynal Mirzə oğlunun evi.
1/8 əkin günü ərazisi, 10 batman meyvə verən bağı var.

71.688.Qaçıb gedən Kərim Xudaverdi oğlunun evi.
1 əkin günü ərazisi, 100 batman meyvə verən bağı var.

72.Qaçıb gedən Məşədi Xudaverdinin evi.
1/2 əkin günü ərazisi, 60 batman meyvə verən bağı var.

73.707.Ölən dul Xırdanın evi.
1/8 əkin günü ərazisi, 10 batman meyvə verən bağı var.

74.Qaçıb gedən Abbasəli Sadıq oğlunun evi.

75.716.Ölən Xudaverdinin girovunda olan ev.
¼ əkin günü ərazisi, 50 batman meyvə verən bağı var.

76.755.Qaçıb gedən bənna Bayram Əli oğlunun evi.
1 əkin günü ərazisi olan bağı var, meyvəsi yoxdur.

77.773.Barıtsaz Hüseynqulu bəyin evi.
¼ əkin günü ərazisi, olan bağı var, meyvəsi yoxdur .

78.777.Əlican Molla Nağı oğlunun evinin ½ hissəsi.
1/2 əkin günü ərazisi, 30 batman meyvə verən bağı var.

79.Qaçıb gedən Məşədi İsmayılın evi.
¼ əkin günü ərazisi, 30 batman meyvə verən bağı var.

80.797.Sərdarın bağbanı Bağırın evi.
¼ əkin günü ərazisi olan bağı var, meyvəsi yoxdur.

81.Xəzinəyə məxsus buzxana.

***Şəhər hissəsində xəzinəyə məxsus cəmi 80 ev və 1 buzxana var.***

**Təpəbaşı hissəsi**

1.6.Ölmüş Əhməd Gümüş oğlunun evi.
1/8 əkin günü ərazisi, 20 batman meyvə verən bağı var.

2.9.Qaçıb gedən Hacı Tapdığın evi.

3.43.Qaçıb gedən Hacı Qasımın evi.

4.60.Ölmüş Stepan Arutyunovun evi.

5.79.Ölmüş Xoylu Ələkbərin evi.

6.82.Ölmüş Məhəmməd Ağamirzə Gəncəlinin evi.
1/2 əkin günü ərazisi, 60 batman meyvə verən bağı var.

7.100.Ölmüş Məşədi İbrahim Şahsuvar oğlunun evi.

8.104.Ölmüş Sərraf Ələkbərin evi.

9.106.Ölmüş Molla Həsənin evi.

10.123.Ölmüş Ramazan bəy Hacı Əli oğlunun evi.

11.80.Ölmüş Seyid Hüseynin evi. Vərəsəlikdən məhrum etdiyi arvadı və qızı qalıb.
1/2 əkin günü ərazisi, 100 batman meyvə verən bağı var.

12.188.Qaçıb gedən Yüzbaşı Kazımın evi.
1 əkin günü ərazisi, 100 batman meyvə verən bağı var.

13.189.Qaçıb gedən Qafar xanın evi.
1/2 əkin günü ərazisi, 30 batman meyvə verən bağı var.

14.199.Qaçıb gedən Məmmədbağır Hüseynalı oğlunun evi.
1/2 əkin günü ərazisi, 100 batman meyvə verən bağı var.

15.218.Qaçıb gedən Həsən ağa Əsəd bəy oğlunun evi.
3 əkin günü ərazisi, 300 batman meyvə verən bağı var.

16.256.Keçmiş İrəvan Sərdarı Məhəmməd xanın evi.
6 əkin günü ərazisi, 300 batman meyvə, 300 batman üzüm verən bağı var.

17.326.Qaçıb gedən Şərurlu Məmmədhəsənin evi.

18.356.Qaçıb gedən Qasım Abbas oğlunun evi.

19.368.İki qardaşın evi. Böyük qardaş Nəzəralı varissiz ölüb, dul arvadı qalıb. İkinci qardaş Hacı Zeynal qaçıb və indi İranda onlara məxsus olan ümumi mülkü idarə edir. Bu mülk isə Sərtib xanın girovunda imiş.

10 əkin günü ərazisi, 100 batman meyvə, 1.000 batman üzüm verən bağı var.

20.369.Onların başqa evi.

15 əkin günü ərazisi, 1.200 batman meyvə, 2.000 batman üzüm verən bağı var.

21.370.Qaçıb gedən Həsən bəy Mirzə Həsən oğlunun evi.

1 əkin günü ərazisi, 70 batman meyvə, 100 batman üzüm verən bağı var.

22.380.Ölən Həsənalı Məmmədbağır oğlunun evinin 1/3 hissəsi.

1/2 əkin günü ərazisi, 100 batman meyvə verən bağı var.

23.416.Qaçıb gedən Rza bəy Gəncəli oğlunun evi.

½ əkin günü sahəsi olan bağı var, meyvəsi yoxdur.

24.419.Qaçıb gedən Cabbar Məmmədcəfər oğlunun evi.

¼ əkin günü ərazisi, 100 batman meyvə verən bağı var.

25.438.Mirzə Məhəmməd Mirzə Aşır oğlunun evi.

1 əkin günü ərazisi olan bağı var, meyvəsi yoxdur.

26.452.Mirzə Əhmədin evi.

27.474.Şahzadə Aleksandrın xidmətçisi Danielin evi.

1/2 əkin günü ərazisi, 50 batman meyvə verən bağı var.

28.486.Zaxar Karapetovun evi.

3/4 əkin günü ərazisi, 50 batman meyvə verən bağı var.

29.553.Yəhya Sanahovun evi.

1 əkin günü ərazisi olan bağı var, meyvəsi yoxdur.

30.557.Gevork Ter-Ohanesovun evi.

1 əkin günü ərazisi, 40 batman meyvə verən bağı var.

***Təpəbaşı hissəsində cəmi 30 ev.***

**Dəmirbulaq hissəsi**

1.12.Qaçıb gedən Mustafa Məho oğlunun evinin ½ hissəsi.

2.57.Qaçıb gedən İsmayıl Türkmən oğlunun evi.
1 əkin günü ərazisi, 200 batman meyvə verən bağı var.

3.111.Ölən Abdulla Xoylu Dərviş oğlunun evi.

4.125.Qaçıb gedən Məmmədrza Sultanın evi.

5.136.Qaçıb gedən Musa Topçu Əli oğlunun evi.
1/2 əkin günü ərazisi, 50 batman meyvə verən bağı var.

6.151.Ölən Molla Məhəmməd Səfər oğlunun evi.

7.191.Qaçıb gedən Zeynal Ərəb Məmmədqulu oğlunun evi.
3 əkin günü ərazisi, 500 batman meyvə verən bağı var.

8.231.Ölən Rəhim Aşıq Əli oğlunun evi.

9.234.Qaçıb gedən Niftalı bəyin evi.
1/8 əkin günü ərazisi olan bağı var, məhsul vermir.

10.237.Ölən Məşədi Məhəmməd xanın evi.
1/8 əkin günü ərazisi, 60 battman meyvə verən bağı var.

11.277.Ölən Hüseyn Zayburaçın evi.
1/8 əkin günü ərazisi olan bağı var, məhsul vermir.

12.321.Qaçıb gedən Rəcəbəli Məhəmməd oğlunun evi.
2 əkin günü ərazisi, 500 battman meyvə verən bağı var.

13.1.Xəzinəyə məxsus buzxana.

***Dəmirbulaq hissəsində cəmi 12 ev və 1 buzxana.***

**İrəvan şəhərində xəzinəyə məxsus bütün evlər:**
***Şəhər hissəsində 80 ev, 1 buzxana***
***Təpəbaşı hissəsində 30 ev***
***Dəmirbulaq hissəsində 12 ev, 1 buzxana***
***İrəvan şəhəri üzrə cəmi 122 ev, 2 buzxana.***

## b) Bağlar

## İltizama verilən bağlar

***Noraguğdakılar***

1. *Kəhyabaşı bağı.* Sahəsi 8.760 kv.sajendir, 6 meyvə ağacı, 184 üzüm kolu var.*

2. *Vəzir bağı.* Sahəsi 24.000 kv.sajendir, 42 meyvə ağacı, 930 üzüm kolu var.

3. *Topçubaşı bağı.* Sahəsi 19.625 kv.sajendir, 24 meyvə ağacı, 690 üzüm kolu var.

4. *Daşbaşı bağı.* Sahəsi 2.808 kv.sajendir, 6 meyvə ağacı, 90 üzüm kolu var.

5. *Hüseynəli xan bağı.* Sahəsi 15.680 kv. sajendir, 89 meyvə ağacı, 200 üzüm kolu var.

6. *Dəllər bağı.* Sahəsi 46.440 kv.sajendir, 8.700 meyvə ağacı, 380 üzüm kolu var.

7. *Bağça.* Sahəsi 394 kv.sajendir, 49 meyvə ağacı, 200 üzüm kolu var.

8. *Güllü bağ.* Sahəsi 16.560 kv.sajendir, 54 meyvə ağacı, 400 üzüm kolu var.

9. *Qirbağ.* Sahəsi 14.070 kv.sajendir, 13 meyvə ağacı, 280 üzüm kolu var.

***Dəlmədəki bağlar***

10. Məmmədrza Cabbar oğlunun bağı.
Sahəsi 28.800 kv.sajendir, 1.213 meyvə ağacı var.

11. Qoşa bağlar.
Sahəsi 28.800 kv.sajendir, 1.213 meyvə ağacı var.

12. Əli xan bağı.

---

* 1 sajen 2,13 metrə bərabərdir.

Sahəsi 9.292 kv.sajendir, 93 meyvə ağacı, 270 üzüm kolu var.

13. Sübhanqulu xan bağı.
Sahəsi 9.100 kv.sajendir, 146 meyvə ağacı, 300 üzüm kolu var.

14. Xudadat xanın bağı.
Sahəsi 5.400 kv.sajendir, 249 meyvə ağacı, 192 üzüm kolu var.

15. Cəfər xan bağı.
Sahəsi 9.920 kv.sajendir, 164 meyvə ağacı, 500 üzüm kolu var.

16. Dərəbağ.
Sahəsi 11.749 kv.sajendir, 323 meyvə ağacı, 592 üzüm kolu var.

**Təpəbaşı hissəsində**
17. Məhəmməd xanın bağı.
Sahəsi 2.304 kv.sajendir, 90 meyvə ağacı, 60 üzüm kolu var.

**Şəhər hissəsində**
18. Hüseynəli xanın bağı.
Sahəsi 2.592 kv.sajendir, 1.310 meyvə ağacı var.

19. Mirzə Rəfinin bağı.
Sahəsi 1.092 kv.sajendir, 264 meyvə ağacı, 360 üzüm kolu var.

20. Hacı Babanın bağı.
Sahəsi 2.220 kv.sajendir, 900 meyvə ağacı, 90 üzüm kolu var.

21. Yüzbaşı Kazımın bağı.
Sahəsi 2.700 kv.sajendir, 130 meyvə ağacı, 20 üzüm kolu var.

22. Hacı Bəyimin bağı.
Sahəsi 3.444 kv.sajendir, 248 meyvə ağacı, 100 üzüm kolu var.

**Dəmirbulaq hissəsində**
23. Xosrovabad bağı.
Sahəsi 6.120 kv.sajendir, 10 meyvə ağacı, 290 üzüm kolu var.

***Xəzinəyə götürülən və iltizama verilən bağlar***
1.Dəlmədəki Sərtib xan bağı

10 əkin günü ərazisi, 100 batman meyvə, 3.000 batman üzüm verən bağı var.

2.Şəhər hissəsində olan Hacı Rəsulun bağı.

6 əkin günü ərazisi, 2.000 batman üzüm verən bağı var.

3.Mirzə Məhəmməd bəyin Şəhər hissəsindəki bağı.

5 əkin günü ərazisi, 400 batman meyvə, 1.400 batman üzüm verən bağı var.

4.Şəhər hissəsindəki Hacı Mahmud xan bağı.

2 əkin günü ərazisi, 100 batman meyvə, 100 batman üzüm verən bağı var.

5.Şəhər hissəsindəki Şişman bəyin bağı.

4 əkin günü ərazisi, 150 batman meyvə, 600 batman üzüm verən bağı var.

***Qaçıb gedən müxtəlif kənar şəxslərin bağları***

6.Dəlmədəki Hacı Əbdülqasımın bağı.

3 əkin günü ərazisi, 100 batman üzüm verən bağı var.

7.Onun Təpəbaşı hissəsindəki bağı.

0,5 əkin günü ərazisi, 50 batman meyvə, 50 batman üzüm verən bağı var.

8.Hacı Tağının Şəhər hissəsindəki bağı.

4 əkin günü ərazisi, 600 batman meyvə, 700 batman üzüm verən bağı var.

***Kameral siyahı tərtib edilərkən yeni aşkar edilən bağlar***

**Təpəbaşı hissəsi**

***Abihəyat məhəlləsi***

1.486.Zaxar Karapetovun bağı.

1 əkin günü ərazisi, 400 batman üzüm verən bağı var.

2.553.Yəhya Sahakovun bağı.
1 əkin günü ərazisi, 500 batman üzüm verən bağı var.

3.555.Gevork Ter-Ohanesovun bağı.
1 əkin günü ərazisi, 40 batman meyvə, 300 batman üzüm verən bağı var.

4.326.Şərurlu Məmmədhəsənin bağı.

5.356.Qasım Abbas oğlunun bağı.

6.370.Hüseyn bəy Mirzə Hüseyn oğlunun bağı.
3 əkin günü ərazisi, 100 batman meyvə, 800 batman üzüm verən bağı var.

**Şəhər hissəsində**

***Köşəkli məhəlləsi***
7.70.Məmmədhüseyn Molla Zaman oğlunun bağı.
8 əkin günü ərazisi, 200 batman meyvə, 700 batman üzüm verən bağı var.

8. Onun başqa bir bağı.

9.563.Mesrop Asaturovun bağı.
2 əkin günü ərazisi, 50 batman meyvə, 600 batman üzüm verən bağı var.

10.Araklı Qalustovun şəhərdəki bağı.
2 əkin günü ərazisi, 500 batman üzüm verən bağı var.

11.Sübhanqulu xana məxsus olan şəhərdəki Hacı Əlinağı bəy bağı.

12.Məryəm xanımın bağı.

**Təpəbaşı hissəsindəkilər**
13.Hacı Nəzərəli Kələntərin bağı.
30 əkin günü ərazisi, 1.000 batman meyvə, 3.500 batman üzüm verən bağı var.

14.Yenə onun Noraguğdakı bağı.

20 əkin günü ərazisi, 100 batman meyvə, 3.000 batman üzüm verən bağı var.

### c) Hamamlar

1.Qaladakı hamam.

***Forştatdakılar***

2.Hacı Bəyim hamamı.
2.Ağa Sultan hamamı (1 ağça).

### d) Karvansaralar

1.Gürcü karvansarası

2.Culfa karvansarası

3.Zöhrab xan karvansarası

4.Tahir karvansarası

5.Sulu qamçı karvansarası

6.Suzuz qamçı karvansarası

7.Hacı Əli kanvansarası

### e) Dükanlar

1.Gürcü karvansarasındakı 62 dükan

2.Culfa və

3.Zöhrab xan karvansarasındakı 76 dükan

4.Tahir karvansarasındakı və

5.Sulu qamçı karvansarasındakı 56 dükan və əlavə olaraq yuxarı mərtəbədəki 16 dükan.

6.Hacı Əli karvansarasındakı 40 dükan.

Karvansaralarda cəmi 252 dükan.

Yuxarı cərgələrdə 151 dükan.

Köhnə çarşı qapısından sağda 20 dükan

Solda 31 dükan

Köhnə Göysarı qapılarının qarşısında 33 dükan

Məscid meydanında 70 dükan

Axundun evindən sağda 121 dükan

Tərəvəz satılan və digər cərgələrdə 117 dükan

Qaladakı 32 dükan

Bütün cərgələrdə cəmi 575 dükan.

***İrəvan şəhərində xəzinəyə məxsus olan bütün dükanlar 827-dir.***

**f) Dəyirmanlar**

***Dərəkənddəkilər***

1.3 işlək, 7 yararsız daşı olu Doqquz dəyirman.

2.3 işlək, 2 yararsız daşı olan Hacı Bəyim dəyirmanı.

3.Qaladakı məscidə məxsus 3 yararsız daşı olan dəyirman.

4.Məhəmməd xana məxsus olan 4 işlək, 2 yararsız daşı olan dəyirman.

5.Yenə onun 3 yararsız daşı olan çəltik dəyirmanı.

6.2 yararsız daşı olan Sübhanqulu xan dəyirmanı.

7.1 yararsız daşı olan Xan dəyirmanı.

8.Yenə onun 6 yararsız daşı olan çəltik dəyirmanı.

***Xatunbağı arxının üstündə olanlar***

9.Sərdarın 2 yararsız daşı olan dəyirmanı.

***Qırxbulaq çayının üstündə olan***

